

# Azərbaycanda daha 57 nəfər koronavirusa yoluxdu

*Azərbaycanda 57 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 68 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.*

*Bu barədə Unikal.org-a Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.*

*Səh.2*


# UNİKAL

№11 (2006) 18 aprel 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Elman Rüstəmovun vəzifədə qalma səbəbi...

## Mərkəzi Bankın rəhbəri niyə postunda saxlanıldı?

*Xəbər verildiyi kimi, bu il aprelin 9-da Elman Rüstəmovun Azərbaycan Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilməsi haqqında məsələ Milli Məclisin iclasında müzakirəyə çıxarılıb. Məsələ müzakirə edildikdən sonra səsverməyə çıxarılaraq qəbul edilib.*

Elə həmin gün ölkə başçısı bu təyinatla bağlı sərəncam imzalayıb.Qeyd edək ki, Elman Rüstəmovun səlahiyyət müddəti ayın əvvəlində bitirdi. Belə ki, aprelin 3-də baş bankirin səlahiyyətləri başa çatırdı. "Mərkəzi Bank haqqında" qanuna əsasən, Mərkəzi Bankın İdarə Heyətinin üzvləri Konstitusiyanın 109-cu maddəsinin 10-cu bəndinə, 95-ci maddəsinin I hissəsinin 15-ci bəndinə və II hissəsinə müvafiq olaraq vəzifəyə təyin və vəzifədən azad edilirlər.İdarə Heyətinin üzvləri vəzifəyə 5 il müddətinə təyin edilirlər.

Mərkəzi Bankın İdarə Heyəti sədrinin birinci müavini və digər müavinləri də beş il müddətinə vəzifəyə təyin edilirlər.

Səh.6

Səh.5



# Prezident 190 manat alanların sayını 3 dəfə artırdı

## "Ölkədə tətbiq edilən sosial izolyasiya tədbirlərini doğru hesab edirəm"



*Hazırda ölkədə gündəm mövzusu koronavirus pandemiyasıdır. Hətta müxalifət qüvvələri də siyasi fəaliyyətlərini bu yöndə qurublar. "Unikal" qəzetinə müsahibə verən ADP sədrinin müavini, həkim Həsrət Rüstəmovla söhbətimiz də elə bu mövzuda oldu.*

Səh.4

## "Vergi Məcəlləsinə dəyişikliklər paketi hazırlanıb" - Mikayıl Cabbarov



*Azərbaycanda Vergi Məcəlləsinə dəyişikliklər paketi hazırlanıb.Unikal.org xəbər verir ki, bunu İqtisadiyyat naziri Mikayıl Cabbarov deyib. "O, aşağıdakı hissələrdən ibarətdir və bütün dövlət qurumları ilə razılaşdırılıb. Birincisi, pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergiödəyicilərinə...*

Səh.3

## Cahangir Əsgərov bankını daha da dirçəldir



*Bir ençə gün öncə məlum oldu ki, "Premium Bank" ASC nizamnamə kapitalını 49 999 950 manat və yaxud 47,8% artırmağı planlaşdırır. Kapital artımı üçün dövriyyəyə hər birinin nominal dəyəri 154 manat olan 324 675 ədəd yeni səhm buraxılacaq.*

Səh.12

# İlham Əliyevdən Pasxa ilə bağlı təbrik



***Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasına təbrik ünvanlayıb.***

"Unikal" həmin müraciəti təqdim edir: "Hörmətli həmvətənlər! Sizi - Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm. Fərqli sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanda yüz illərdir ki, müxtəlif xalqların və dinlərin nümayəndələri əmin-amanlıq, mehriban qonşuluq, qarşılıqlı etimad və anlaşma şəraitində yaşayırlar. Dərin tarixi köklərə malik tolerantlıq ənənələrimizin qorunub saxlanılması, multikultural dəyərlərə söykənən ictimai münasibətlərin təbliği və təşviqi Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin başlıca istiqamətlərindən biridir.

Azərbaycan Respublikasında formalaşmış nümunəvi dövlət-din münasibətləri cəmiyyətin bütün təbəqələri kimi, xristian icmasına da öz dini-mənəvi dəyərlərindən lazımınca faydalanmaq imkanı yaradır. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, cəmiyyətimizdə özünəməxsus yeri olan pravoslav xristianlar ölkəmizdə gedən böyük inkişaf və quruculuq prosesinin fəal iştirakçılarıdır.

Əziz həmvətənlər!

Builki Pasxa bayramı bütün dünyanı bürümüş təhlükəli epidemiyanın bəşəriyyəti təhdid etdiyi bir vaxta təsadüf edir. Əminəm ki, üzləşdiyimiz qlobal bəla ilə mübarizədə həmvətənlərimiz yüksək məsuliyyət, həmrəylik və mütəşəkkillik nümayiş etdirəcək, xalqımız bu çətin sınaqdan da uğurla çıxacaqdır.

Yeniliyin, dirçəlişin, birlik və bərabərliyin rəmzi sayılan nurlu Pasxa bayramı günündə bir daha hər birinizə cansağlığı, xoşbəxtlik, ailələrinizə əmin-amanlıq arzulayıram. Bayramınız mübarək olsun!".

# Prezident həbs olunan icra başçılarının əməllərindən danışdı

***"Ödənişli ictimai iş yerlərinin açılması ilə bağlı əvvəlki illərin təcrübəsinə əsaslanaraq, biz ilin əvvəlində 37 min iş yerinin açılmasını nəzərdə tuturduq. Onu da bildirməliyəm ki, artıq bu proqram 3-4 ildir həyata keçirilir. Artıq bəzi insanlar, hansılar ki, ilkin mərhələdə bu işlərə cəlb edilmişdilər, sonra daha da yüksək maaş imkanına malik başqa iş yerlərinə keçdilər. Ona görə biz bu proqramı təqribən 30-40 min ətrafında nəzərdə tuturduq. Ancaq pandemiyaya görə və işsizliyin qaçılmaz artımını nəzərə alaraq mən göstəriş vermişdim ki, biz ilkin mərhələdə bu rəqəmi 50 minə çatdıraq. Amma indi hesab edirəm ki, biz daha böyük rəqəmə çatmalıyıq və bu il 90 min ödənişli ictimai iş yeri yaradılmalıdır".***



"Unikal" xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev iki nazirlə videobağlantı formatında keçirilən iclasda deyib.

Dövlət başçısı bildirib ki, bu sahəyə də çox ciddi nəzarət olmalıdır:

"Bu məsələ ilə bağlı biz sizinlə əvvəllər də danışmışıq. İndi mexanizm daha şəffafdır. Çünki əfsuslar olsun ki, ilkin mərhələdə burada nəzarət sıfır səviyyəsində idi və bir çox hallarda yerli icra orqanları bundan sui-istifadə edərək, aztəminatlı təbəqə üçün nəzərdə tutulmuş vəsaiti də mənimsəyirdilər. Bu, vicdansızlığın zirvəsidir. Məhz buna və digər cinayətlərə görə artıq 3 icra başçısı həbs olunub və onların çirkin əməlləri sənədləşdirilib, ictimaiyyətə təqdim edilib. Onlar özlərini, öz əcdadlarını biabır ediblər, öz yaxınlarına, dövlətə böyük ziyan vurublar. Biz bu vəsaiti ayırırdıq ki, iş tapa bilməyən, yaxud da iş qabiliyyəti yüksək olmayan insanlar heç olmasa minimum əməkhaqqı səviyyəsində əməkhaqqı alsın, evinə çörəkpulu aparsın. Nəzərə alsaq ki, biz minimum əməkhaqqını 250 manata qaldırdıq, ancaq onu da mənimsəyib, kartları özündə saxlayıb, kartlardan pul çəkib varlanırdılar. Bu, həm cinayətdir, həm də mənəvi eybəcərlikdir. Buna başqa ad vermək olmaz. Ona görə bütün aidiyyəti orqanlar bundan sonra bu məsələyə çox böyük diqqət verməlidirlər. Mən vətəndaşlardan da xahiş edirəm, kimin ki, adı bəlkə indi də yazdırılır və əməkhaqqı alınır, onlar da bu məlumatı bizə versinlər. Beləliklə, biz 90 min işsizi ictimai işlərlə təmin edəcəyik".

# Azərbaycanda daha 57 nəfər koronavirusa yoluxdu - 68-i sağaldı

***Azərbaycanda 57 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 68 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

Bu barədə Unikal.org-a Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

Hazırkı dövrədək ölkəmizdə 1340 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilmiş, onlardan 528 nəfəri müalicə olunaraq sağalmış, 15 nəfər vəfat etmiş, 797 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 26 nəfərin vəziyyəti ağır, 35 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 86.607 test aparılmışdır.

# Azərbaycan səfirliyi Rusiyadakı azərbaycanlılara çağırış etdi

***"Məlum olduğu kimi, yeni koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə göstərilən səylər çərçivəsində Azərbaycan və Rusiya arasında dövlət sərhədi müvəqqəti olaraq bağlanılıb. Azərbaycan Respublikasının bir sıra vətəndaşları müxtəlif səbəblərdən ölkəni tərk edə bilməmiş və məcburən Rusiya Federasiyası ərazisində qalıblar".***



Unikal.org xəbər verir ki, bu fikirləri Azərbaycanın Rusiya Federasiyasındakı səfirliyindən bildiriblər.

Məlumatda qeyd olunub ki, ölkə daxilində tətbiq edilən ciddi karantin tədbirləri səbəbindən onların bir çoxu çətin vəziyyətə düşüb, praktiki olaraq hər hansı gəlirdən məhrum olub, sağlamlıqları ilə bağlı problemlərlə üzləşib, bəziləri isə xəstəxanaya yerləşdirilib və ya özünütəcrid rejimindədir:

"Çox təəssüf ki, onların sırasında yaşayış və gündəlik qida xərclərini ödəmək iqtidarında olmayan şəxslər də var. Azərbaycanın məsul vəzifəli şəxsləri və Nazirlər Kabineti yanında Operativ Qərargahla daim əlaqə saxlayırıq. Biz Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi və digər rəsmi qurumları ilə koordinasiya edilmiş şəkildə öz diplomatik səlahiyyətləri və məhdud imkanları çərçivəsində vətəndaşlarımızın vəziyyətinin yüngülləşdirilməsi üçün mümkün olan köməkliyi göstərməyə və lazımi tədbirlər görməyə davam edirik".

Eyni zamanda vurğulanıb ki, səfirlik yüksək hazırlıq rejiminə keçib və 24 saat fəaliyyət göstərən "qaynar xətt" yaradılıb: "Gərgin iş nəticəsində qısa zaman ərzində iki mindən artıq vətəndaşımızın vətənə qayıtması təmin edilib. Səfirliklə əlaqələndirilmiş şəkildə və ya fərdi qaydada ehtiyacı olan Azərbaycan vətəndaşlarına hər hansı bir köməklik göstərən bütün şəxslərə öz dərin minnətdarlığımızı bildirir və bu cür addımları yüksək qiymətləndiririk".

Səfirlik Azərbaycanın Rusiyadakı diasporuna da müraciət edib: "Diaspor təşkilatlarına, iş adamlarına, imkanlı azərbaycanlılara müraciət edərək Rusiyada yaşayan bütün soydaşlarımızı həmrəylik nümayiş etdirərək keçmiş fikir ayrılıqları, anlaşılmazlıqları geridə qoyaraq və yersiz populizmə, gərəksiz söhbətlərə və təhqirlərə yol vermədən bir-birlərinə yardım əli uzatmağa və öz həmyerlilərinə istənilən mümkün dəstəyi göstərməyə çağırırıq. Öz tərəfimizdən bu cür humanitar fəaliyyətin əlaqələndirilməsini davam etdirməyə hazır olduğumuzu bildirir və hər bir kəsə sağlamlıq və səbir arzulayırıq. Bu gün yaranmış kəskin zərurət qarşısında Rusiyadakı bütün azərbaycanlıları Azərbaycan Respublikası Prezidentinin "Biz birlikdə güclüyük!" çağırışına qoşulmağa dəvət edirik. İnanırıq ki, müdrik Azərbaycan xalqı bütün dünyanı cənginə almış bu çox ağır vəziyyətdən, bu böyük sınaqdan şərəflə çıxacaq!".

# Baş nazirlər telefonla danışdılar

***Azərbaycan və Rusiya baş nazirləri arasında telefon danışığı olub.***

Unikal.org-un Rusiya Nazirlər Kabinetinin mətbuat xidmətinə istinadən verdiyi xəbərə görə, Mixail Mişustin Əli Əsədovla telefon danışığı zamanı koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərini və iqtisadiyyata dəstək tədbirlərini müzakirə edib.

Bundan başqa baş nazirlər iki ölkə arasında ticarət iqtisadi əməkdaşlığın aktual məsələlərinə toxunublar.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Dubaydakı azərbaycanlılar Prezidentə və Mehriban Əliyevaya təşəkkür etdilər

***Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində işləyən və yeni növ koronavirus pandemiyası ilə əlaqədar işlərini, habelə yaşayış yerlərini itirən Azərbaycan vətəndaşları dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar.***



Dövlət rəhbərliyinin tapşırığına əsasən, 25 ailədən və daha 61 nəfərdən ibarət olan azərbaycanlılar ölkəmizin BBƏ-dəki səfirliyi və Dubaydakı Baş Konsulluğu tərəfindən "Hampton By Hilton Dubai Al Barsha" beşulduzlu otelində yerləşdiriliblər, onlara oteldəki səhər yeməyindən əlavə gündə iki dəfə yemək verilir. Həmvətənlərimizin arasında 33 uşaq, 113 qadın, turist səyahətinə getmiş 48 nəfər və bir tələbə var. Bundan başqa, dövlətimizin başçısının göstərişi əsasında ayrılan maliyyə vəsaiti hesabına Dubayda evlərində qalan, lakin karantin rejimi şəraitində işləməyən azərbaycanlı ailələr də gündəlik ərzaqla təmin edilir.

Dubayda karantin rejimi tətbiq olunduqdan və aviareyslər dayandırıldıqdan sonra azərbaycanlılardan başqa heç bir xarici ölkə vətəndaşlarının bu cür diqqət və qayğı ilə əhatə olunmadığını diqqətə çatdıran vətəndaşlarımız Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürlərini bildiriblər.

Həmvətənimiz Əli Hüseynov deyib: "Bizə hər cür şərait yaradılıb. Həm özüm, həm də burada qalan vətəndaşlarımızın adından dövlətimizin başçısına təşəkkürümü bildirmək istəyirəm. İnşallah ağır günlər tezliklə bitər və biz də vətənimizə qayıdarıq".

Elvin Kazımov, Vüsal Məmmədov, Umud Tarverdiyev, Bəhram Əmrahov, Sevinc Qafarova, Adilə Məmmədova, Rəna Şərəfzadə və digər vətəndaşlarımız da göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə və Birinci vitse-prezidentə təşəkkür ediblər.

Ölkəmizin Dubaydakı Baş Konsulluğunun əməkdaşları həmvətənlərimizlə söhbət zamanı bildiriblər ki, xarici ölkələrdə olan vətəndaşlarımızın problemləri dövlətimizin başçısının diqqət mərkəzindədir və onların tezliklə vətənə qayıtması üçün bütün zəruri tədbirlər görülür.

# "Vergi Məcəlləsinə dəyişikliklər paketi hazırlanıb" - Mikayıl Cabbarov

***Azərbaycanda Vergi Məcəlləsinə dəyişikliklər paketi hazırlanıb.***

Unikal.org xəbər verir ki, bunu İqtisadiyyat naziri Mikayıl Cabbarov deyib. "O, aşağıdakı hissələrdən ibarətdir və bütün dövlət qurumları ilə razılaşdırılıb. Birincisi, pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergiödəyicilərinə 2021-ci il yanvarın 1-dək olan dövr üzrə bir sıra vergi güzəştləri və vergi tətilləri təklif olunub. Burada əmlak və torpaq vergiləri üzrə tam məbləğdə vergi güzəştlərinin verilməsi, əldə edilən mənfəətin, gəlirin 75 faiz miqdarında vergi güzəşti kimi, fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyində tutulan verginin dərəcələrinin 50 faiz, yəni, 14 faizdən 7 faizə endirilməsi, ictimai iaşə və ölkədaxili sərnişindaşıma fəaliyyəti üzrə sadələşdirilmiş vergi məbləğinə 50 faiz güzəştin verilməsi və digər tədbirlər", - deyə nazir qeyd edib.

M.Cabbarov bildirib ki, ikinci istiqamət, mikrosahibkarlıq subyektlərinə 2020-ci il yanvarın 1-dən 2021-ci il yanvarın 1-dək sadələşdirilmiş vergi üzrə 50 faiz vergi güzəştinin, yəni, 2 faiz dövriyyədən 1 faiz dövriyyəyə endirilməsi, həmçinin vergilərin, cari vergiödəmələrin hesablanması və ödənilməsi üzrə vergi tətillərinin verilməsi. Nəhayət, üçüncü istiqamət, bütün sahibkarlıq subyektlərinə şamil edilməsi proqnozlaşdırılır və 2021-ci il yanvarın 1-dək olan dövr üzrə aşağıdakı vergi güzəştlərini təqdim edirik: Epidemiyanın qarşısının alınması, əhalinin həyat və sağlamlığının qorunması məqsədilə vergiödəyiciləri tərəfindən həyata keçirilən zəruri profilaktik, o cümlədən dezinfeksiya tədbirlərinə görə çəkilmiş xərclərin məhdudiyyəti nəzərə alınmadan gəlirlərdən çıxarılması, həmçinin əhalinin bir sıra ərzaq və tibbi ehtiyacları üçün zəruri olan və siyahısı, Azərbaycan Prezidenti tərəfindən təsdiq olunan bəzi məhsul növlərinin idxalının əlavə dəyər vergisindən müddətli azad edilməsi. Yəni, bu, kifayət qədər geniş paketdir və bu paketdə yeni rejimdə fəaliyyət göstərilməsi də müəssisələr tərəfindən nəzərə alınıb".



# Daha 25 min işsiz üçün birdəfəlik vəsait köçürüldü

***İşsiz kimi qeydiyyata alınan şəxslərdən daha 25 min nəfəri üçün birdəfəlik vəsait aidiyyəti üzrə köçürülüb.***

Bu barədə Unikal.org-a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib. Həmin şəxslərə qeydiyyata alınmaq üçün müraciət edərkən qeyd etdikləri telefon nömrəsinə bu barədə SMS göndəriləcək.

Onlar evdən çıxmaq üçün müvafiq qaydada icazə aldıqdan sonra mesajda "Azərpoçt" MMC qeyd edildiyi halda, istənilən poçt şöbəsinə, bank göstərildiyi halda isə həmin bankın istənilən filialına şəxsiyyət vəsiqəsi ilə müraciət edərək birdəfəlik ödəməni əldə edə bilərlər.



Qeyd edək ki, Nazirlik tərəfindən işsiz şəxslərə aprelin 9-dan başlayaraq birdəfəlik ödəmələrin verilməsinə başlanıb. Hər gün bu proses davam etdirilir və artıq 165 min işsiz şəxs üçün birdəfəlik vəsaitin bank filiallarına və poçt şöbələrinə köçürülməsi təmin edilib.

Ödənişlər qarşıdakı günlərdə də davam edəcək.



# Deputatdan təklif: "Yardım hamıya şamil olunsun"

***"Əvvəlki çıxışlarımda da deputat statusu haqqında fikrimi bildirmişəm. Amma yenə demək istəyirəm ki, qanun nə qədər yaxşı olsa da, onun həyata keçirilməsində müəyyən problemlər var".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin plenar iclasında çıxışı zamanı deputat Razi Nurullayev deyib. R.Nurullayevin sözlərinə görə, deputatlar bəzi fikirləri səsləndirməyə çətinlik çəkir:

"Ona görə də o təklifləri sizə yazılı formada təqdim edirlər. Mən bu platformada öz fikirlərimi, tənqidlərimi deyə bilirəm. Hesab edirəm ki, mübarizə meydanlardan yığılmalı və sivil formaya çıxmalıdır. Mən burada bitərəf kimi təmsil olunuram, amma mən Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədriyəm. Bu ada Əli Kərimli də iddia edir. Koronavirus, neftin ucuzlaşması zamanında insanları narazı salmaq radikal qüvvələrin işinə yaşayır. Hesab edirəm ki, o insanların narazılıqları aradan qaldırılmalıdır".

Deputat təklif edib ki, qaz və işıq sərfiyyatı ehtiyaclı ailələr üçün sıfırlansın: "Ehtiyaclı ailə deyəndə, yalnız işsiz kimi qeydiyyata düşənlər, sosial yardım alanlar deyil. Mən seçildiyim İmişli rayonunda minlərlə ehtiyac içində olan ailə göstərərəm ki, onlar sosial yardım almır, çünki adlarında maşın, torpaq var. Hər kənddə, hər qəsəbədə, hər rayonda və şəhərdə icra nümayəndələri, bələdiyyələr var və onlar bu tip insanları tanıyırlar, əllərində hazır siyahıları da var. Bu məsələni bir həftə ərzində 100 % civarında aydınlaşdırmaq mümkündür. Əlavə olaraq, güzəştin bütün əhali qruplarına şamil edilməsini istərdim".

# Azərbaycanda 86 607 nəfər koronavirusla bağlı testdən keçirilib

***TƏBİB Azərbaycanda koronavirusla bağlı aprelin 17-nə olan statistik göstəriciləri açıqlayıb.***

"Unikal" xəbər verir ki, məlumatda bu gün ərzində Azərbaycanda koronavirusla bağlı 5 858 test edildiyi bildirilib.

Qeyd olunub ki, ölkə ərazisində indiyə qədər 86 607 test aparılıb.

Xatırladaq ki, bu gün Azərbaycanda koronavirusa 57 yeni yoluxma faktı qeydə alınıb. Ölkədə ümumilikdə koronavirusa 1 340 yoluxma aşkarlanıb. Onlardan 528-i sağalıb, 15-ü ölüb. Hazırda 797 nəfər müalicə alır.

# Siyavuş Novruzov: "50 hektar torpağı var, amma işsiz sayılır"



***"Bizdə belə anlayış var ki, əmək haqqı cədvəlinə qol çəkmirsə, işsiz sayılır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib.

Komitə sədri bildirib ki, cəmiyyətdə sovet dövründən qalma yanaşma var: "İnsan var ki, 30 hektar, 50 hektar torpaq sahəsi var, işsiz sayılır. Biz partiya üzvlərini araşdıranda məlum oldu ki, yarıdan çoxu işsizdir. Belə təsəvvür yaranıb ki, adam səhər işə gedib, axşam evə gəlmirsə, maaş cədvəlinə qol çəkmirsə, o, işsiz sayılır. Bu gün dövlətin ayırdığı yardımla bağlı ardıcıl müraciət edənlər digərlərinin yolunu bağlamasınlar".

# “Ölkədə tətbiq edilən sosial izolyasiya tədbirlərini doğru hesab edirəm”

## Həsrət Rüstəmov: “Azərbaycan hakimiyyətinin əksər addımlarını haqlı olaraq tənqid edən tərəfin nümayəndəsi olsam da, bu son tədbirlərin əsasən vaxtında və doğru atıldığı qənaətindəyəm”



***Hazırda ölkədə gündəm mövzusu koronavirus pandemiyasıdır. Hətta müxalifət qüvvələri də siyasi fəaliyyətlərini bu yöndə qurublar. “Unikal” qəzetinə müsahibə verən ADP sədrinin müavini, həkim Həsrət Rüstəmovla söhbətimiz də elə bu mövzuda oldu.***

***-Həsrət bəy, Siz siyasi müxalifət təmsilçisi olmaqla yanaşı, həm də həkimsiniz. Hazırda dünyanı cənginə alan və ölkəmizdə də yayılan koronavirus pandemiyası ilə bağlı fikirlərinizi bilmək istərdik.***

- Koronavirus ailəsindən olan və hazırda dünyada sürətlə yayılmaqda olan COVİD-19 adı verilmiş yeni növ koronovirus infeksiyası haqqında o qədər çox məlumat yayılır ki, indi başqa sənət sahibləri, xüsusilə də siyasətçilər və mətbuat nümayəndələri demək olar ki, həkimlər qədər bu barədə məlumata sahibdirlər. Çünki bu iki təbəqə nümayəndələri daha çox xəbərlər və dünya yenilikləri ilə maraqlanırlar və indiki dönəmdə xəbərlərin demək olar ki, hamısı bu və ya digər dərəcədə koronavirusun yeni növünün yaratdığı pandemiya ilə əlaqəlidir. Bircə onu əlavə etmək istərdim ki, bu virus infeksiyasının təhlükəli tərəfi odur ki, sürətlə yayılır və eyni zamanda yüzlərlə, minlərlə, hətta daha çox adamın xəstələnməsinə səbəb ola bilir ki, bu zaman bu qədər xəstəlik hadisəsi ilə nə edəcəyini bilməyən səhiyyə sisteminin, habelə sosial müdafiə, xüsusi və dövlət sektoruna bağlı iqtisadiyyatın çökməsi baş verə bilər. Təsəvvür edirsinizmi, bizim ölkədə əgər bir gündə min və daha çox yoluxma halı qeyd olunarsa, hansı ki, adətən bunun orta hesabla 10%-ni ağır xəstələr təşkil edir, bir neçə gündən sonra səhiyyə və əlaqəli sahələrdə nə baş verə bilər? Əlbəttə ki, total kollaps, başqa cür desək çökmə baş verə bilər. Nə çarpayı, nə tibb işçisi, nə yemək və dərman çatdırmaq mümkün olmaz. Yəni, bu xəstəliyin qorxulu tərəfi budur, elmi dildə bu epidemioloji aspekt adlanır. Yoxsa xəstəlik əsasən kliniki simptomları yüngül qrip kimi keçir və yoluxan insanların böyük əksəriyyəti ağırlaşmasız, simptomatik dəstək müalicəsi ilə vəziyyətdən çıxırlar. Beləliklə də, panikaya, sosial təşvişə və ciddi stresə düşmədən, sosial izolyasiya tədbirlərinə və gigeyenik məsləhətlərə əməl etməklə, hər bir insanın özünü və ətrafdakıları qoruması həlelik dünyanın bildiyi yeganə doğru yoldur. Buna da hamılıqla maksimum əməl etməliyik.

***-Hökumət önləyici tədbirlər həyata keçirdi və digər ölkələrdəki vəziyyətlə müqayisədə Azərbaycanda durum normaldır. Karantin və önləyici tədbirləri necə qiymətləndirirsiniz?***

- Ölkədə tətbiq edilən sosial izolyasiya tədbirlərini, karantin rejiminin tətbiqini, sərhədlərin bağlanmasını təbii ki, doğru hesab edirəm. Azərbaycan hakimiyyətinin əksər addımlarını haqlı olaraq tənqid edən tərəfin nümayəndəsi olsam da, bu son tədbirlərin əsasən vaxtında və doğru atıldığı qənaətindəyəm. Hətta quru sərhədlərin bir neçə gün öncə bağlanması, hava daşımalarının daha erkən dayandırılması vəziyyəti artıq nəzarət altına almağa imkan verərdi, deyə düşünürəm. Ölkədə əlbəttə ki, son bir- iki ayın mövzusu olmayan ciddi sosial-iqtisadi problemlər bu dövrdə daha ciddi şəkildə ortalığa çıxmağa başlayır və hakimiyyət əsasən sosial müdafiəyə ehtiyacı olan təbəqələrin bu pandemiya dövründə qorunmasını əvvəlki dövrlərdə olduğu kimi deyil, lazımi səviyyədə həyata keçirməyə çalışmalıdır. Əks halda, ölkə yoluxucu xəstəlikdən deyil, insanları aclıqdan və bu aclıq üzərində siyasi manipulyasiya etməyə girəvə gözləyən fürsətçil qüvvələrdən ciddi və daha böyük ziyanlar görə bilər. Təbii ki, ölkədəki vəziyyətə bilavasitə cavabdeh olan hakim qüvvə bütün bunları nəzərə almağa borcludur.

***-Bu prosesdə əsas yük siz həkimlərin, tibb personalının üzərinə düşdü. Bu barədə nə deyə bilərsiniz?***

- Həkimlik və tibbi xidmətin bütün halqalarında duran insanların əməyi həmişə şücaət hesab edilməlidir. Bu elə bir sənətdir ki, başqalarına həyat verərkən tibb işçiləri özlərini çox vaxt təhlükəyə atmalı olurlar. Ona görə ki, bu iş olduqca çətin, ağır və stresli əmək tələb edən işdir. Son vaxtlaradək səhiyyə sistemimizdəki qüsurlara görə, islahatların həddən artıq gecikdirilməsi və bununla əlaqədar insanların səhiyyədən məmnun qalmamasına görə həkimləri və tibb işçilərini təhqir edən, söyən, aşağılayan çoxlu fikirlərə, yazılara və sosial şəbəkə istifadəçilərinin rəyinə rast gəlirdik. Bir çox hallarda insanların narazılığı haqlı olurdu, amma istənilən halda bu cür fikirləri yayanlar konkret situasiyada həkimin günahı var və ya yoxdur, bunu araşdırmırdılar. Xəstəxanada dərman yoxdur, şəraitsizlikdir, tibb işçiləri can yandırmır və s. bu kimi şikayətlərin həkimə heç bir aidiyyatı yoxdur. Əksinə, bu cür səhiyyədən ən çox əziyyət çəkən məhz həkimin özüdür. İnsanlar başa düşməlidirlər ki, əgər onlar siyasi proseslərə laqeyd yanaşıb, ölkənin demokratikləşməsinə və qanunların işləməsinə dəstək verməyəcəklərsə, seçkilərin saxtalaşdırılmasına dözəcəklərsə heç vaxt normal tibbi xidmət və ya yaxşı sosial təminat, keyfiyyətli təhsil sistemi görməyəcəklər. Bunlar bir- birinə bağlıdır və keyfiyyətin artması bütün sahələrə eyni münasibətlə yanaşıldıqda yaxşılaşa bilər. Təsəvvür edək ki, heç vaxt seçkiyə getməyən, seçki saxtakarlığına göz yuman, sosial ədalətlə bağlı bir dəfə səsini qaldırmayan, hakimiyyətin qanunazidd əməllərinə seyirçi qalan, başqa sözlə desək, hazırkı situasiyanın yaranmasında passiv və ya aktiv iştirakçı olan bir vətəndaşımızın bir gün yolu səhiyyə ilə kəsişir və bu zaman mövcud vəziyyətin bütün günahını əlindəki imkanları ilə xəstələrə yardım etməyə çalışan şəxslərin- həkimlərin üzərinə nifrət yağdırmağa başlayır. Bu əlbəttə ki, doğru deyil və nəinki doğru deyil, bütün vicdanlı həkimlərə və tibb işçilərinə depressiv təsir edən yanlış bir davranışdır. İndiki dövrdə isə yaranmış vəziyyət mövzunu daha da aktual edib. Artıq cəmiyyətdə çox adam başa düşür ki, həkimləri ağına- bozuna baxmadan lənətləməklə yalnız cəmiyyətin ümumi mənafelərinə ziyan vurmuş oluruq. Yəni, nə qədər qəribə olsa da, COVİD-19 pandemiyasının səhiyyə işçilərinin əsil qiymətinin verilməsinə yardım edir desək, məncə yanılmarıq.

***-İndiki şəraitdə bir tibb işçisi kimi cəmiyyətə məsləhətiniz nədir?***

- Hazırkı dövrdə yuxarıda da qeyd etdiyim kimi ən doğru davranış sosial izolyasiya tədbirlərinə və ümumi və şəxsi gigiyenik prosedurlara mümkün qədər diqqətlə və səbrlə hamının əməl etməsidir. Bu xəstəliyin varlı-kasıb, vəzifəli və ya sıravi vətəndaş - hamıya münasibəti eynidir. Hamı eyni təhlükə qarşısındadır. Hamı məsuliyyətli olmalı və yaranmış vəziyyətdə maksimum elan edilmiş rəsmi davranış qaydalarına riayət etməlidir. Təbii ki, vəzifədə olanlar, vaxtilə bu ölkənin var-dövlətini ədalətsizcəsinə talayanlar və ya bu ölkənin sərvətlərinə görə lap qanuni sərvət toplamış şəxslər isə daha məsuliyyətli olmalıdırlar. Onlar başa düşməlidirlər ki, bir gün bu pandemiya qurtaracaq, eyni zamanda, Allahın onlara, özlərini yaxşı mənada xalqa lazımlı adam olmaqları ilə bağlı yaratdığı bu fürsət bitəcək. Bu fürsəti yaxşı dəyərləndirsinlər, ehtiyacı olanlara kömək etsinlər. Bu xalq olmasa, bu gün cah-cəlal içində olan o insanların heç biri xoşbəxt ola bilməz. Bu pandemiya əslində bütün dünyada olduğu kimi, bizim ölkəmizin də maddi cəhətdən önə çıxmağı bacarmış insanlarına bir dərs oldu. Yəqin ki, hamı başa düşdü ki, vəziyyət elə gətirə bilər ki, nəinki müalicə üçün xaricə qaça bilməzsən, heç bəyənmədiyin rayon xəstəxanasında bir çarpayı da tapa bilməzsən. Bu vəziyyətdən həm hökumət, həm də hamı yaxşı dərs götürməlidir.

***-Karantin şərtləri xeyli sayda iş yerlərinin bağlanmasına səbəb oldu. Təbii ki, sosial durumu ağır olan vətəndaşlara yardım etmək üçün müvafiq addımlar atılır, amma problemlər də var. Siz bu dönəmdə vətəndaşlara yönəlik hansı addımların atılmasını təklif edirsiniz?***

- Məncə, dövlət iki təbəqəni mütləq yaxşı mənada qanadı altına almalıdır: İlk növbədə sosial müdafiəyə ehtiyacı olanlar dəqiq müəyyənləşdirilməli və onların ərzaq və həyati fəaliyyəti üçün zəruri məbləğdə vəsaitlə təmin olunmalıdırlar. Bu sahədə addımlar atılmağa başlanılsa da, nə ayrılan 190 manat, nə bu sahədəki operativlik, nə də onun əhatə dairəsi yetərli deyil. İkinci vacib təbəqə isə kiçik sahibkarlardır. Dövlət onların bank borclarından tutmuş ən vacib tələbatlarınadək ehtiyaclarını öz üzərinə götürməlidir. Böyük sahibkarlar və şirkətlər onsuz da vəziyyətdən çıxmağa yollar tapacaqlar.

***-Ayrı-ayrı vətəndaşlar, tanınmış şəxslər, müəyyən imkanlı adamlar karantin dövründə aztəminatlı ailələrə yardım edirlər. Sanki cəmiyyətdə birlik, həmrəylik yaranıb. Bu barədə nə düşünürsünüz?***

-Bu olduqca yaxşı haldır. Bizim xalqımız dünyanın ən yaxşı, mərhəmətli insanlarına sahib olan xalqlarındandır. Mərhəmət və xeyirxahlığı bizə həm də, dinimiz israrla tövsiyyə edir. Bu cür insanı sevindirən, üRəyini qürurla dolduran xeyirxahlıq faktları var, amma kütləvi deyil. Hələ də var-dövlətinin dalında gizlənən, bu xalqdan yığdıqlarını tək yeməyə çalışanlar çoxluq təşkil edir. Onlar da başa düşməlidirlər ki, çətin günlər keçəcək, amma onların pisliyini heç kim unutmayacaq.

***-Amma bu dövrdə müxalifətin vahid mövqeyini, cəmiyyətlə həmrəyliyini görmədik. ADP sədri, eləcə də partiyanın rəhbər qurumları mövcud vəziyyətin dəyərləndirilməsi və müzakirəsi, bununla bağlı ictimaiyyətə məlumat verilməsini müşahidə etdik. Amma bəzi siyasi qüvvələrdə bunun şahidi olmadıq. Sizcə, niyə?***

-Müxalifətin hər vaxt olduğu kimi yekdilliyi əlbəttə ki, bu dövrdə də aktualdır. Amma nəzərə alsaq ki, heç bir müxalifət qurumu yaranmış vəziyyətdən öz dar siyasi maraqları üçün istifadə etməyə cəhd etmir, bunun özü çox müsbət haldır. İqtidar və onun tərəfdarları da görməlidir ki, müxalifətçilik onların indiyədək iddia etdiyi və başa düşdüyü kimi düşmənçilik deyil. Azərbaycan müxalifəti böyük siyasi yetkinlik və iradə göstərərək bu çətin günlərdə iqtidarla münasibətlərini aydınlaşdırmağa deyil, mövcud vəziyyətdə daha yaxşı idarəçilik üçün təkliflər səsləndirməyə, ümumi işə dəstək verməyə cəhdlər edir. Bu, xalq naminə böyük fədakarlıqdır.

***-Maraqlısı odur ki, siyasi dialoq, islahatların aparılması ilə bağlı hansısa təkliflər hazırlayanda digər müxalifət partiyaları sizi hakimiyyətlə işbirliyində suçlayırlar. Bu ittihamlara əsas varmı?***

-Biz özümüzə arxayınıq, bilirik ki, getdiyimiz və cəmiyyətə təklif etdiyimiz yol doğru yoldur. İndiyədək əldə etdiyimiz siyasi təcrübə və dünyada baş verən hadisələrin təhlili göstərir ki, ADP-nin təklif etdiyi qeyri inqilabi, ancaq həqiqi islahatlar yolu, siyasi qüvvələrin münasibətlərinin düşmənçilikdən siyasi dialoq müstəvisinə gətirilməsi yolu ən doğru yoldur. Bunun alternativləri olan digər yollar daha riskli, nəinki onu təklif edən və ya qarşıda duran siyasi qüvvə üçün, bütün ölkə üçün fəlakətli nəticələrə səbəb ola biləcək yollardır. Kimin nə deməsi isə, ayrı söhbətin mövzusudur. Əsas odur ki, bizi ittiham edənlərin yumuşaq desək, səhv etdiklərini özümüz dəqiq bilirik.

***-Bir müddət öncə Sərdar Cəlaloğlu müxalifətlə iqtidarın ortaq məxrəcə gəlməsi, siyasi dialoq mühitinin formalaşması kimi təkliflər irəli sürmüşdü. Hətta bir neçə təmas da yaranmışdı. Amma sonra da bəzi müxalifət partiyaları buna düşmənçilik müstəvisində qiymət verdilər. Necə düşünürsünüz, hazırda siaysi arenada da hər hansı ortaq məxrəcə gəlməyə zərurət yoxdurmu?***

-Bu təklifin alınmamasının başlıca günahını iqtidarda və ya iqtidardakı radikal qüvvələrdə görürəm. Fikir vermisinizsə, həmişə iqtidarla müxalifət münasibətlərində bir anlaşma və ya buna bənzər mühit yaranmağa başlayanda dərhal kimlərsə ciddi narahat olaraq bu münasibətləri əvvəlkindən də daha çox korlanmasına yönəlik addımlar atır və ya bunu təşkil edirlər. Əgər iqtidar müxalifətə qarşı ardıcıl və konkret siyasi addımlar atmağa başlasa, əminəm ki, bu gün cəmiyyətdə özünü “full” radikal kimi təqdim edən qüvvələr də qarşılıqlı addım atacaqlar. İqtidar cəsarətlə bu cür addımlar atmalıdır.

***Z.Məmmədli***

# President 190 manat alanların sayını 3 dəfə artırdı

## İlham Əliyev: “Ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayını biz 600 minə çatdırmalıyıq”

***Aprelin 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında iclas keçirib.***

“Unikal” xəbər verir ki, dövlətimizin başçısı iclasda çıxış edib:

- Aprelin 14-də birinci rübün yekunlarını müzakirə edərkən mən bir çox tapşırıqlar verdim. Təbii ki, bu tapşırıqların hamısı yerinə yetirilməlidir və siz tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar mənə müntəzəm olaraq məlumat verməlisiniz. Bu gün əlavə tapşırıqlar veriləcək, çünki pandemiya davam edir. Baxmayaraq ki, Azərbaycanda vəziyyət nəzarət altındadır, biz öz tədbirlərimizi vəziyyətə uyğun şəkildə görməliyik. Bizim üçün prioritet məsələ, - mən bunu qeyd etmişəm, bir daha demək istəyirəm, - insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir. Eyni zamanda, təbii ki, biz bu şəraitdə iqtisadi sahəyə də daha çox diqqət verməliyik. Çünki hər kəs bilməlidir, əgər güclü iqtisadi imkanlarımız olmasa, biz öz sosial siyasətimizi uğurla apara bilməyəcəyik, xüsusilə pandemiya dövründə ki, bu xəstəlik və bu xəstəlikdən yaranan fəsadlar böyük maliyyə vəsaiti tələb edir. Ona görə bir daha demək istəyirəm, bu pandemiya dövründə bizim üçün əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır.

Hər kəs bilməlidir ki, bu böyük bəla bütün dünyanı böyük sınaq qarşısında qoyubdur. Bu günə qədər dünyada 140 mindən çox insan həyatını itirib və bu xəstəlik sərhədlər tanımır. Əgər ilkin mərhələdə bu xəstəlik Azərbaycana xaricdən gətirilibsə, hazırda daxili yoluxma prosesi gedir. Ancaq bildirməliyəm ki, sərt və qabaqlayıcı tədbirlər nəticəsində biz bu vəziyyəti nəzarət altında saxlaya bilirik. Son üç-dörd günün statistikası müəyyən mənada nikbinlik üçün əsas yaradır. Bildirməliyəm ki, son günlərdə yoluxanların sayı ilə sağalanların sayı arasında dinamika artıq müsbətdir. Yəni, daha çox insan sağalır, nəinki bu xəstəliyə yoluxur.

Bunun başlıca səbəbi görülmüş tədbirlərdir. Mən bunu bir daha demək istəyirəm, əgər biz vaxtında qabaqlayıcı tədbirlər görməsəydik, bu gün Azərbaycanda xəstələrin sayı min yox, bəlkə on min, iyirmi min, bəlkə də daha çox olardı. Biz indi inkişaf etmiş ölkələrin təcrübəsini görürük. Bu ölkələrdə səhiyyə sistemi bir çox ölkələr üçün həmişə nümunə olub. Amma demək olar ki, böyük imkanlara malik ölkələrin səhiyyə sistemi böhran içindədir. Bu da təbiidir. Çünki xəstəliyin yayılma sürəti o qədər genişdir, xəstəlik o qədər tez yayılır ki, heç bir ölkənin səhiyyə sistemi buna davam gətirə bilməz, o cümlədən Azərbaycanın. Ona görə bizim əsas məqsədimiz yoluxma hallarında müşahidə olunan artımın qabağını almaq idi, yoluxma zəncirini qırmaq idi. Görülmüş bütün tədbirlər bu məqsədi güdürdü ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq, vətəndaşlara kömək göstərək, onları bu bəladan qoruyaq və onların sosial müdafiəsini təmin edək.Bu günə qədər həm məhdudlaşdırıcı tədbirlərin görülməsi, bu tədbirlərin mərhələ-mərhələ sərtləşdirilməsi, eyni zamanda, pandemiyadan ziyan çəkmiş sahələrdə çalışan insanların sosial müdafiəsinin təmin edilməsi hesab edirəm ki, bizim düzgün siyasətimizi əks etdirir. Çünki bir daha demək istəyirəm ki, son üç-dörd gün ərzində müsbət dinamika var. Ancaq biz bundan sonra da vəziyyəti nəzarətdə saxlayacağıq, görək ki, bu dinamika nə qədər çəkəcək, bu, davamlıdır, yoxsa yox və hansı əlavə tədbirlər görülməlidir. Çünki dünya böyük çağırışla üzləşib və biz görürük ki, bir çox hallarda ölkələr bu bəla ilə təkbaşına mübarizə aparır.



Son günlər ərzində mənə ünvanlanan minlərlə məktub göstərir ki, Azərbaycan xalqı dövlət tərəfindən görülmüş işlərə çox böyük qiymət verir. Əlbəttə ki, bu, bizi daha da ruhlandırır. Bu, onu göstərir ki, baxmayaraq insanların həyatı çətinləşib, normal həyata müdaxilə edən karantin rejimi bir çoxları üçün problemlər yaradıb, yenə də xalqımızın böyük əksəriyyəti bu vəziyyəti dərk edərək dövlətə öz dəstəyini göstərməkdədir. Biz isə bundan sonra da bu bəla ilə mübarizədə fəal olmalıyıq, qabaqlayıcı tədbirlər görməliyik və elə etməliyik ki, bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək.

Karantin rejiminə gəldikdə, bildiyiniz kimi, karantin rejimi aprelin 20-nə qədər nəzərdə tutulurdu. Ancaq mütəxəssislərin vahid fikrinə görə, karantin rejimi uzadılmalıdır. Mən hesab edirəm ki, bu, düzgün addım olacaqdır. Çünki müsbət dinamika hələ ki, ilk təzahürlərini göstərməkdədir. Biz bu dinamikanı dayanıqlı etməliyik. Ona görə hesab edirəm ki, Operativ Qərargah yaxın vaxtlarda bu məsələ ilə bağlı məlumat verəcək. Hesab edirəm ki, karantin rejiminin uzadılması yeganə düzgün qərardır.

Bunu nəzərə alaraq, biz əlbəttə ki, insanların sosial müdafiəsini daha da gücləndirməliyik. Azərbaycan xalqı yaxşı bilir ki, biz dərhal bu məsələ ilə ciddi məşğul olmağa başlamışıq. Pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən insanların əməkhaqlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən qarşılanır. Bu kateqoriyaya aid olan insanların sayı 300 mindən çoxdur. Eyni zamanda, 300 minə yaxın mikrosahibkarın maliyyə vəziyyətinin təmin edilməsi üçün dövlət böyük maliyyə vəsaiti ayırıb. Beləliklə, ancaq bu kateqoriyalara aid olan 600 minə yaxın insan dövlətdən maddi dəstək alır. Dövlət sektorunda işləyənlərin əməkhaqları tam ödənilir. Hazırda bir milyona yaxın insanın böyük əksəriyyəti işləmir, ancaq dövlət onların maaşını verir. Yəni, bu, bir daha Azərbaycan dövlətinin humanist mahiyyətini göstərir. Onu göstərir ki, - mən bunu dəfələrlə demişəm, hələ koronavirusdan daha əvvəl demişəm, - bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bugünkü ağır vəziyyət bir daha onu göstərir ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur, nəyi bəyan ediriksə, onu da edirik.

Ancaq nəzərə alsaq ki, karantin rejimi uzadılacaq və karantin rejimindən çıxış da gərək bərbaşdan planlaşdırılsın. Sizə də bu məsələ ilə bağlı müvafiq göstərişlər verirəm ki, biz karantin rejimini mərhələli yollarla sərtləşdirmişdik və bu rejimi eyni qaydada - mərhələli yollarla yumşaltmalıyıq. Bu, hansı formada olacaq? Gərək bu məsələ üzərində hökumət və o cümlədən nazirliklər işləsin, təkliflər versin. Yumşalma hansı sahələrdən başlamalıdır, biz indidən bunu planlaşdırmalıyıq. Çünki ümid edirəm, hətta uzadılmış karantin rejimi dövründə müəyyən yumşalma istisna deyil. Amma yenə də biz addımlarımızı vəziyyətə uyğun şəkildə atmalıyıq.

Əlbəttə, məni indiki vəziyyətlə bağlı ən çox narahat edən insanların sağlamlığıdır. Bizim həkimlərimiz insanlara kömək göstərmək üçün əllərindən gələni edirlər. Bildiyiniz kimi, bizim səhiyyə sistemimiz böyük sınaq qarşısındadır. Səhiyyə sistemimizin çökməməsi, ilk növbədə, onunla bağlıdır ki, biz xəstəliyin yayılma sürətini nəzarət altında saxlaya bildik. Əgər bu, nəzarətdən çıxsaydı, bizim səhiyyə sistemimiz buna davam gətirə bilməzdi. Bu gün inkişaf etmiş bəzi ölkələrin, - indi oradakı vəziyyət televiziya və internet resurslarında göstərilir, - insanları ümumiyyətlə müalicə etmək imkanı yoxdur. Bəzi xəstələr dəhlizlərdə yerləşdirilir, yerə uzadılır, uzanırlar yerlərdə və sadəcə olaraq, xəstəxana binasında qalırlar. Ən inkişaf etmiş ölkələrdə yüzlərlə, bəzi hallarda mindən çox insan vəfat edir. Nəyə görə? Sadəcə olaraq, səhiyyə sistemi buna davam gətirə bilmir, xəstəxanalarda yer yoxdur, bəzi hallarda lazım olan avadanlıq çatışmır. Əgər bu ölkələrin səhiyyə sistemi normal fəaliyyət göstərsəydi, o insanların böyük əksəriyyətinin həyatını xilas etmək olardı.

Bizim səhiyyə sistemimiz son illərdə böyük inkişaf yolu keçibdir və bu gün 20-dən çox dövlət xəstəxanasında koronavirus xəstələri müalicə olunur. Bu xəstəxanaların mütləq əksəriyyəti son 16 il ərzində tikilibdir. O cümlədən 575 çarpayılıq “Yeni klinika” bu gün ölkəmizin ən müasir səhiyyə ocağıdır və indi orada 100-dən çox xəstə müalicə alır. Eyni zamanda, Azərbaycan Tibb Universitetinin vaxtilə mənim təşəbbüsümlə tikilmiş Tədris-Terapevtik və Cərrahiyyə klinikalarında da bir çox xəstə müalicə alır. Son illər ərzində bölgələrdə inşa edilmiş mərkəzi rayon xəstəxanalarında bir çox xəstələr müalicə alır. O cümlədən bu ilin mart ayında Goranboy, Qazax, Şəmkir şəhərlərində açılan 3 yeni xəstəxanada xəstələr müalicə alır, orada da 500 çarpayı imkanı vardır. Yəni, mindən çox çarpayı ancaq mart ayında istifadəyə verilibdir. Mənim göstərişimlə hazırda ölkəmizdə modul tipli 10 xəstəxana inşa edilməkdədir. Hesab edirəm ki, bu xəstəxanalar işə düşəndən sonra yaxın 1-2 ay ərzində orada da 2 min əlavə çarpayı istifadəyə veriləcək.

Yəni, biz bütün hazırlıq işlərini görürük. Biz indi həkimlərimizin peşəkarlığını əyani şəkildə görürük. Sirr deyil ki, səhiyyə işçilərinin fəaliyyətinə bəzi hallarda tənqidi yanaşmalar da müşahidə olunurdu. Sanki Azərbaycanın səhiyyə sistemi bərbad vəziyyətdədir, Azərbaycanda xəstələrə lazımi müalicə göstərilmir, imkanlı xəstələr xaricə üz tutular. Bəli, belə hallar var, təkcə Azərbaycanda yox, bizdən qat-qat zəngin olan ölkələrdən də imkanlı adamlar Avropanın, Amerikanın aparıcı klinikalarında müalicə alırlar. Bu, dünya praktikasıdır. Ancaq bu gün biz yalnız öz imkanlarımıza arxalanırıq. Bizim səhiyyə sistemimiz ancaq Azərbaycan həkimləri tərəfindən dövlət dəstəyi ilə inkişaf edir. Bu gün Azərbaycanda ən mürəkkəb əməliyyatların keçirilməsi, koronavirusla bağlı müxtəlif müayinələrin aparılması, 18 laboratoriyamız - bütün bunlar bizim gücümüzü artırır. Yəni, bu gün tam əmin ola bilərik ki, bizim səhiyyə imkanlarımız və həkimlərin peşəkarlığı lazımi səviyyədədir. Göstərdikləri fədakarlığa, qəhrəmanlığa görə həkimlərə bir daha təşəkkürümü bildirirəm. Ona görə mən tam əminəm ki, karantin rejiminin uzadılması nəticəsində biz müsbət dinamikanı gücləndirə bilərik.

Bununla əlaqədar əlbəttə ki, biz aztəminatlı ailələrin problemlərini daha geniş şəkildə həll etməliyik. Bu günə qədər biz nəzərdə tuturduq ki, karantin rejimi aprelin 20-dək davam edəcək, ancaq indi uzadılacaq. Yardım üçün müraciət edənlərin sayı kifayət qədər artmışdır. İndi bu təkliflər, bu sifarişlər geniş təhlil olunur və maksimum şəffaflıq təmin edilməlidir. İlkin mərhələdə nəzərdə tutulurdu ki, 200 min insan dövlətdən 190 manat yardım alacaqdır. Mən hesab edirəm ki, ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayını biz 600 minə çatdırmalıyıq. Yəni, 200 min əvəzinə, 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verməlidir. Bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır. Onların da problemlərini dövlət öz üzərinə götürür. Baxmayaraq, mən dəfələrlə onlara müraciət etmişəm ki, qeyri-formal məşğulluğa son qoyun, çünki bu, sizin üçün problem yaradacaq. Siz işsizlikdən sığorta, işsizlik müavinəti, pensiya, tibbi sığorta ala bilməyəcəksiniz. Son vaxtlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi və digər aidiyyəti qurumların fəaliyyəti nəticəsində on minlərlə yeni əmək müqaviləsi bağlanıldı. Mən ümid edirəm ki, bu ağır vəziyyətdən sonra bunu nəzərə alaraq bu gün hələ də kölgə iqtisadiyyatında çalışan insanlar da dərk edəcəklər ki, yeganə çıxış yolu kölgə iqtisadiyyatından çıxmaqdır. Sahibkarlara müraciət edirəm, qeyri-formal məşğulluğa son qoyun. İşçilərə müraciət edirəm bir daha, əmək müqaviləsi olmadan işləməyin, tələb edin. Əgər hansısa sahibkar sizinlə əmək müqaviləsi bağlamaq istəmirsə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, İqtisadiyyat Nazirliyinə, Prezident Administrasiyasına dərhal məlumat verin. Biz o sahibkarların dərsini verəcəyik. Çünki dövlətin bütün resurslarını səfərbər etdiyi indiki şəraitdə dövləti aldatmaq, vergilərdən yayınmaq və öz maddi marağını, öz tamahını təmin etmək xəyanətdir. Bunun başqa adı ola bilməz. Ona görə tapşırıq verirəm ki, aprel-may aylarında - iki ay ərzində 600 min insan dövlətdən ayda 190 manat alsın. Bu vəsaiti alacaq vətəndaşlardan xahiş edirəm ki, onlar ikinci ödənişi almaq üçün bank hesabları açsınlar. Birinci ödəniş bu ay veriləcək, ona görə yəqin bəzi insanların imkanı olmayacaq ki, bank hesabları açsınlar. Ancaq ikinci ödəniş may ayında veriləcək. O vaxta qədər bu 600 min insanın hər biri bank hesabı açsın və ikinci ödənişi bank köçürmə yolu ilə alsın. Bu, bizim xahişimizdir, bu, bizim tələbimizdir.

Ona görə bu məsələ ilə bağlı indi sizin nazirlik qarşısında çox ciddi vəzifələr durur. Siz qısa müddət ərzində bu ödənişləri təmin etməlisiniz.

***İnformasiya şöbəsi***

# Ziyafət Əsgərov deputat həmkarlarını ittiham etdi: "Bəziləri qanunları oxumur"



***"Kimyəvi silahların məhv edilməsi ilə bağlı məsələni düşünməyə ehtiyac var".***

"Unikal"ın məlumatına görə, bunu Milli Məclisin bu gün keçirilən iclasında "Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması (yığılması) və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deputat Asim Mollazadə deyib.

O bildirib ki, biz kimyəvi silah hazırlamayacağımızı öhdəmizə götürürük: "Eyni zamanda kimyəvi silahların məhv edilməsini də öhdəmizə götürürük. Lakin ölkəmizdə bunun üçün müvafiq texnika yoxdur. Bu, çox bahalı və çətin prosesdir. Ya bunun üçün beynəlxalq təşkilatlara, şirkətlər müraciət etməliyik ki, bizim üçün bu işi görsün ya da bu hissəni qanundan çıxarmalıyıq".

Millət vəkili Hicran Hüseynova bildirib ki, kimyəvi silah və bioloji silahdan istifadə edilməsi ilə bağlı məsələlərdə ehtiyatlı olmaq lazımdır: "Azərbaycan müharibə şəraitində olan ölkədir. Ermənistanda Metsamor AES var. Onlar dəfələrlə bizə qarşı bu silahdan istifadə edilməsi ilə bağlı fikirlər səsləndiriblər. Ona görə də biz qonşu ölkədən olan təhdidlərə vaxtında cavab verə bilmək üçün beynəlxalq səviyyədə hansı müraciətləri etməli olduğumuzu nəzərə almalıyıq".

Millət vəkili Ziyafət Əsgərov qeyd edibki, bəzi həmkarlar ya qanunu oxumur ya da çıxış etmək xatirinə çıxış edir: "Bu qanunda qeyd olunan 1.3-cü maddə qeyri-kimyəvi silahlarla bağlıdır. Bunu qarışdırmaq olmaz. Bioloji və bakterioloji silahlarla bağlı bizim öhdəliyimiz yoxdur. Amma kimyəvi silahlarla bağlı konvensiyaya qoşulmuşuq və qanunu qəbul etməliyik".

# Rəsmi Moskva: "Koronavirus Qarabağ danışıqlarına təsir edir"




***Rusiya XİN-nin mətbuat katibi Mariya Zaxarova Dağlıq Qarabağ münaqişəsinin həllinə toxunub.***

"Unikal" Rusiya KİV-nə istinadən xəbər verir ki, diplomat virusa baxmataraq, münaqişənin həllini diqqətlərində saxladıqlarını söyləyib.

"ATƏT-in Misnk Qrupunun həmsədrləri və sədr Anjey Kasprşik tərəflərlə əlaqə saxlayır. Koronavirus və virusun danışıqlar prosesinə təsiri, münaqişənin bəzi həll aspektləri diqqət mərkəzində saxlanılır".

# Problemli kreditlərin məbləği bilindi



***2020-ci il mart ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 15696,4 milyon manat təşkil edib.***

Dövlət Statistika Komitəsindən (DSK) verilən məlumata görə, ümumi kredit portfelinin 12794,9 milyon manatı və ya 81,5 faizi uzunmüddətli kreditlərin payına düşüb.

Kreditlərin 97,5 faizi banklar, 2,5 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilib.

Ödəmə vaxtı keçmiş kreditlərin məbləği 1297,8 milyon manat olub və ümumi kredit portfelinin 8,3 faizini təşkil edib.

# Elman Rüstəmovun vəzifədə qalma səbəbi...

## Mərkəzi Bankın rəhbəri niyə postunda saxlanıldı?

***Xəbər verildiyi kimi, bu il aprelin 9-da Elman Rüstəmovun Azərbaycan Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilməsi haqqında məsələ Milli Məclisin iclasında müzakirəyə çıxarılıb. Məsələ müzakirə edildikdən sonra səsverməyə çıxarılaraq qəbul edilib.***

Elə həmin gün ölkə başçısı bu təyinatla bağlı sərəncam imzalayıb.Qeyd edək ki, Elman Rüstəmovun səlahiyyət müddəti ayın əvvəlində bitirdi. Belə ki, aprelin 3-də baş bankirin səlahiyyətləri başa çatırdı.

"Mərkəzi Bank haqqında" qanuna əsasən, Mərkəzi Bankın İdarə Heyətinin üzvləri Konstitusiyanın 109-cu maddəsinin 10-cu bəndinə, 95-ci maddəsinin I hissəsinin 15-ci bəndinə və II hissəsinə müvafiq olaraq vəzifəyə təyin və vəzifədən azad edilirlər.İdarə Heyətinin üzvləri vəzifəyə 5 il müddətinə təyin edilirlər.




Mərkəzi Bankın İdarə Heyəti sədrinin birinci müavini və digər müavinləri də beş il müddətinə vəzifəyə təyin edilirlər.

Qeyd edək ki, Elman Rüstəmov axırıncı dəfə Milli Məclisin 2015-ci ilin 3 aprel tarixində keçirilən iclasında Mərkəzi Bankın İdarə Heyətinin üzvlüyünə təsdiq edilmişdi.Onlar 2017-ci ilin mart ayında Milli Məclisin qərarı ilə Mərkəzi Bankın İdarə Heyətinin üzvləri seçiliblər.

Xatırladaq ki, hələ ötən ilin payızında, daha dəqiq desək, noyabrın 24-də bəzi KİV-lərdə Elman Rüstəmovun Mərkəzi Bankın İdarə Heyətinin sədri vəzifəsindən istefa verdiyi bildirilirdi. İddialara görə, E.Rüstəmov artıq kollektivlə də vidalaşmışdı.

Həmçinin bildirilirdi ki, yaxın günlərdə baş bankirin vəzifədən azad olunması və onun yerinə yeni təyinatla bağlı Milli Məclisin toplanacağı gözlənilirdi. E.Rüstəmovun Baş Nazirin müavini vəzifəsinə təyin olunacağı ehtimal edilirdi.

Həmin vaxt məsələ ilə bağlı Mərkəzi Bankın mətbuat xidmətinin rəhbəri Namiq Əliyev açıqlama vermişdi. O demişdi ki, qurumun mətbuat xidmətinə belə bir məlumat daxil olmayıb.Ertəsi gün isə Mərkəzi Bankın İdarə Heyətinin iclası keçirilməli idi. İclasda faiz dərəcələrinə baxılacaqdı. Faiz qərarından sonra Mərkəzi Bankda mətbuat konfransının keçirilməsi nəzərdə tutulmuşdu.

İclas baş tutdu: toplantıdan sonrakı mətbuat konfransında isə Elman Rüstəmov istefa verməsi barədə son günlər yayılmış məlumatlara münasibət bildirmişdi.Həmin vaxt

Baş bankir vəzifəsində qaldığını dedi. "Mən bu gün AMB-nin sədri kimi sizin qarşınızda çıxış edirəm. Jurnalistlərdən xahiş edirəm ki, ancaq rəsmi mənbələrə inansınlar", - o qeyd etdi.

Bu açıqlama gözlənilən idi. Çünki o vaxt 69 yaşı olan Elman Rüstəmovun səlahiyyət müddəti altı aydan sonra - bu ilin aprelində başa çatacaqdı.

Odur ki, onun istefa verməsi ağlabatan görünmürdü.

Xatırladaq ki, Rüstəmov ilk dəfə 1995-ci ilin yanvarında Milli Bankın (Mərkəzi Bankın) İdarə Heyətinin sədri vəzifəsinə təyin edilib. Daha sonra o, 2000, 2005 və 2010-cu illərdə yenidən 5 il müddətinə Milli Bankın İdarə Heyətinin sədri vəzifəsinə təsdiqlənib.

ƏslindəRüstəmovun Mərkəzi Bank rəhbəri kimi təyinat alması gözlənilmirdi.

Lakin,belə görünür, koronavirus səbəbi ilə yaranmış qlobal iqtisadi böhran, xüsusilə, neftin kəskin ucuzlaşması səbəbindən milli valyutamıza - manata yarana biləcək təhlükələr nəzərə alınaraq indiki şəraitdə baş bankirin əvəzlənməsi məqsədəuyğun sayılmayıb və onun səlahiyyətləri bir daha uzadılıb.Hətta bəzi deputatların baş bankirin indiyə qədərki fəaliyyəti ilə bağlı tənqidləri də göstərir ki, əgər hazırkı durum olmasaydı, Rüstəmovun yerinə başqa birinin Mərkəzi Banka rəhbər təyin edilməsi daha real idi. Məsələn, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev demişdi ki, o, Elman müəllimin Mərkəzi Bankın İdarə Heyətinin üzvü təyin edilməsinin əleyhinə səs verib. Deputatın sözlərinə görə, Elman Rüstəmov elə düşünür ki, Mərkəzi Bankın işi yalnız manatın kursunu sabit saxlamaqdır.

Ekspertlərin bir çoxu isə baş bankirin səlahiyyətlərinin artırılmasına tənqidi yanaşıblar. Məsələn, bank məsələləri üzrə ekspert, hüquqşünas Əkrəm Həsənov bildirib ki, Rüstəmov qeyri-adi bəxtə malik olan insandır, heç bir göstəricisinə görə tutduğu vəzifəyə uyğun deyil.O bildirib ki, 2015-ci və 2016-cı illərdəki devalvasiya əməliyyatları, nəticədə bir neçə bankı bağlaması Rüstəmovun nüfuzunu tam sarsıtmışdı: "Belə vəziyyətdə bank nəzarətini həyata keçirə bilmirdi. Çünki bankların da ona qarşı iradı çox idi. Buna görə də 2016-cı ilin mart ayında bank nəzarəti səlahiyyəti ondan alınıb yeni yaradılmış Maliyyə Bazarlarına Nəzarət Palatasına verildi. Palatanın da işi uğursuz oldu, amma bu, başqa mövzudur. Sadəcə, Palatanın fonunda Rüstəmov şükürlü göründürdü. Bununla belə, hökumətin iqtisadi blokundakı kadr dəyişiklikləri onun da əvəz ediləcəyini göstərirdi. 2019-cu ilin sonunda Palatanın ləğv edilərək səlahiyyətlərinin Mərkəzi Banka verilməsi də bundan xəbər verirdi. Çünki sual yaranırdı: Rüstəmov belə yaxşı idisə, 3 il əvvəl niyə səlahiyyətləri Palataya verilmişdi ki?.. Elman Rüstəmovdan müsbət heç nə gözləmək olmaz. Obyektiv olaraq buna qabiliyyəti çatmaz. O, asan pullar dövrünün qəhrəmanıdır. Neft gəlirləri hesabına sabit manat və uğurlu bank sistemi təəssüratını yaratmağa nə var ki! Əsl peşəkar böhran zamanı məlum olur. Son 5 ildə nə etdi ki Rüstəmov? Manat üzdümü? Xeyr! Neftin qiyməti bir qədər sabitləşən kimi qayıtdı əvvəlki taktikaya: perspektivdə zərərli sabit məzənnə yanaşmasına... Mürəkkəb və dərin iş üslubu onluq deyil. Buna uyğun komandası da yoxdur. Odur ki, valyuta ehtiyatlarını bir müddət xərcləyəndən sonra əvvəl-axır devalvasiyaya gedəcək. Bank nəzarəti sahəsində də ondan müsbət heç nə gözləməyək. Bank sisteminin mövcud problemləri onun sayəsində və iştirakı ilə yaranıb..."

Ekspert baş bankirin Mərkəzi Bankda islahatlar aparacağına da inanmır. Sitat: "Vəzifədə qaldığı dövrdə, sadəcə, vaxt udmaqla məşğul olacaq. O, nə İnam Kərimov, nə Mikayıl Cabbarov, nə də xüsusilə Sahil Babayev deyil ki, real və ciddi islahatlara başlasın, müasir tərzdə işləməyə başlasın".

Bəs bütün bu tənqidlər, iradlar nə qədər doğrudur? Baş bankir növbəti 5 ildə ona bəslənilən inamı doğrulda biləcəkmi? Bunu gələcək göstərəcək. Odur ki, gözləyək...

***Sənan Mirzə***

# Parlamentdəki siyasi partiyalar bəyanat yaydı

***Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan siyasi partiyalar COVİD-19 pandemiyasının qarşısının alınması və sosial-iqtisadi fəsadlarının aradan qaldırılması tədbirləri ilə əlaqədar bəyanat imzalayıblar.***

"Unikal"ın məlumatına görə, bəyanatı Yeni Azərbaycan Partiyası, "Ana Vətən" Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası, Böyük Quruluş Partiyası, Demokratik İslahatlar Partiyası, Demokratik Maarifçilik Partiyası, Vəhdət Partiyası, Vətəndaş Birliyi Partiyası imzalayıblar.

**Sənəddə deyilir:**

"Biz, bu bəyanatı imzalayan siyasi partiyalar COVİD-19 pandemiyasının bütün dünyada tuğyan etdiyi, yüz minlərlə insanın həyatını itirdiyi, pandemiyanın nəticəsində son onilliklərin ən dərin böhranının meydana gəlməsi təhlükəsinin yarandığı, sosial və iqtisadi həyatın çox ciddi təsirlərə məruz qaldığı, pandemiyanın fəsadlarının Azərbaycanda da özünü göstərdiyi bir zamanda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması, insanların sağlamlığının qorunması, meydana çıxan sosial-iqtisadi problemlərin aradan qaldırılması sahəsində ölkəmizdə həyata keçirilən kompleks və qabaqlayıcı tədbirlərin əhəmiyyətini və onların müsbət nəticələrinin əldə olunmasında siyasi partiyaların məsuliyyətini dərk edərək, milli birliyin və həmrəyliyin daha da möhkəmləndirilməsinin xüsusi əhəmiyyətini vurğulayaraq, aşağıdakıları bəyan edirik:

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bilavasitə təşəbbüsü ilə və rəhbərliyi altında Azərbaycan hökuməti tərəfindən həyata keçirilən:

a) COVİD-19 pandemiyasının yayılmasının qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirləri;

b) virusa yoluxma hallarının və təhlükəsinin azaldılması məqsədilə hərəkətin məhdudlaşdırılması və xüsusi karantin rejiminin tətbiqini;

c) xəstəliyə yoluxanların müalicəsinin təşkili ilə əlaqədar operativ və kompleks işləri;

d) sərhədlərin bağlanması nəticəsində xarici ölkələrdə qalmış çoxsaylı Azərbaycan vətəndaşlarının, o cümlədən xaricdə təhsil alan tələbələrin dövlət hesabına vətənə qaytarılmasını;

e) əhalinin həssas təbəqələrinin sosial müdafiəsinin daha da gücləndirilməsi sahəsində əlavə tədbirləri;

f) aztəminatlı ailələrin üzvləri olan və ödənişli təhsil alan tələbələrin pandemiyaya qarşı mübarizə dövründə təhsil haqqını ödəməkdən azad edilməsini;

g) pandemiyanın yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilmiş məhdudlaşdırıcı tədbirlər nəticəsində əmək fəaliyyətini dayandırmış işçilərin sosial müdafiəsi ilə əlaqədar dövlət dəstəyi proqramını;

h) fəaliyyətini müvəqqəti dayandırmış kiçik və orta sahibkarlara dəstək çərçivəsində həyata keçirilən layihələri;

i) iqtisadiyyatın bütün sahələrinin pandemiyanın mənfi təsirindən qorunması istiqamətində çoxşaxəli proqramların işlənib hazırlanmasını;

j) makroiqtisadi sabitliyin qorunması yönündə görülən kompleks tədbirləri;

k) pandemiyaya qarşı mübarizə tədbirlərinin maliyyələşdirilməsi üçün böyük həcmdə dövlət vəsaitinin ayrılmasını;

l) COVİD-19 pandemiyasına qarşı mübarizə tədbirlərinə əhalinin səfərbər olunmasını, o cümlədən "Koronavirusla Mübarizəyə Dəstək Fondu"nun təsis edilməsini;

m) azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş yaşı 65-dən yuxarı olan 176 nəfərin Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə əfv olunmasını müsbət qiymətləndiririk.



**2. Təmsil olunduğumuz təşkilatların üzvlərini:**

a) hökumətin həyata keçirdiyi zəruri və təxirəsalınmaz qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlərə etimadla yanaşmağa, müəyyən edilmiş karantin rejiminə tam riayət etməyə;

b) koronavirusa qarşı mübarizə tədbirləri çərçivəsində sosial məsuliyyət nümayiş etdirməyə;

c) pandemiyaya qarşı mübarizənin vacib şərti olan milli birlik və həmrəylik çağırışlarına qoşulmağa;

d) təşkilat vəzifələrinin yerinə yetirilməsi məqsədilə istənilən toplantılardan imtina etməyə, partiyadaxili fəaliyyətdə və ünsiyyətdə yalnız müasir informasiya texnologiyalarının imkanlarından istifadə etməyə səsləyirik.

3. Əhali arasında təşviş yaratmaq məqsədilə sosial şəbəkələrdə koronavirus xəstəliyi ilə əlaqədar şaiyələrin, təxribat xarakterli məlumatların yayılmasını qətiyyətlə pisləyir və müvafiq səlahiyyətli orqanlar tərəfindən belə hallara qarşı qanun çərçivəsində ən ciddi tədbirlərin görülməsini xahiş edirik.

4. Xarici ölkələrdə yerləşdirilmiş və şübhəli məqsədlərə xidmət göstərən sosial media vasitələrində hökumətin COVİD-19 pandemiyasının qarşısının alınması sahəsində tədbirlərinə etimadsızlıq yaratmaq niyyəti güdən və bununla da əhalinin sağlamlığının qorunması vəzifələrinin yerinə yetirilməsinə bilərəkdən ziyan vuran təbliğatı qətiyyətlə pisləyir, bu cür təhlükəli antiazərbaycan təbliğatına son qoyulmasını tələb edirik.

5. Koronavirusla mübarizə sahəsində zəruri məhdudlaşdırıcı tədbirlərin tərkib hissəsi kimi xüsusi karantin rejiminin tətbiq edilməsinin və onun insanların sağlamlığına ciddi təhlükə yaradılmasına səbəb olan kobud qanun pozuntusuna görə sanksiyalar tətbiq edilməsinin bəzi qruplar tərəfindən bilərəkdən siyasiləşdirilməsini yolverilməz hesab edirik.

6. Koronavirus xəstəliyinin yaratdığı indiki durumdan siyasi təbliğat məqsədləri üçün istifadə olunmasına, pandemiyanı siyasi mübarizə alətinə çevirmək, pandemiyadan milli maraqlardan uzaq, dar siyasi niyyətlər naminə faydalanmaq cəhdlərinə qəti etirazımızı bildirir, bu cür cəhdləri siyasi mədəniyyət və etika normaları ilə bir araya sığmayan hərəkət kimi qiymətləndiririk.

7. Bütün siyasi partiyaları, ictimai təşkilatları və vətəndaş cəmiyyəti qurumlarını COVİD-19 pandemiyasının və onun yarada biləcəyi sosial-iqtisadi nəticələrin tezliklə aradan qaldırılması naminə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən tədbirləri dəstəkləməyə, həmin tədbirlərin uğurla həyata keçirilməsinə öz imkanları daxilində kömək göstərməyə dəvət edirik.

***H.İsgəndərov***

# Ceyhun Bayramovdan kolleclərlə bağlı ciddi gözlənti...

## Nazir bu təhsil müəssisələrindəki özbaşınalıqlara müdaxilə edəcəkmi?

***Azərbaycanda elə bir həftə yoxdur ki, hansısa kollecə bağlı ittihamedici, yaxud qalmaqallı xəbər yayılmasın.Son olaraq, Qazax Dövlət Sosial-İqtisadi Kollecindəki özbaşınalıqlarla bağlı məlumat yayılıb.***



Belə ki, 2019-cu ilin yanvarında Qazax Dövlət Sosial-İqtisadi Kollecində tədris işləri üzrə direktor müavini vəzifəsindən ərizə yazaraq çıxan Nicat Göyüşlü deyib ki, bu təhsil müəssisəsində işlədiyi müddətdə bir sıra ciddi qanun pozuntuları ilə üzləşib. Bununla bağlı kollecin direktoru Elşad Quliyevə irad bildirdiyi üçün təzyiqlərə məruz qalıb. Sitat: "Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən İnşaat Kollecində müəllim işləyirdim. Həmçinin təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışırdım. 2017-ci il mayın 31-də keçmiş Təhsil naziri Mikayıl Cabbarovun (2013-2017) əmri ilə Qazax Dövlət Sosial-İqtisadi Kollecində tədris işləri üzrə direktor müavini vəzifəsinə təyin olundum. İyunun 16-dan - kollecdə fəaliyyətə başladığım gündən bu təhsil ocağında tədris planının tələblərini tam yerinə yetirməyən tələbələrə saxta diplomların verilməsi, ixtisası uyğun gəlməyən şəxslərin müəllim kimi işə qəbul edilməsi, həmçinin tələb olunandan çox sayda müəllim işə götürüldüyü üçün dərs saatlarının hər hansı bir formadasa, əsassız şəkildə şişirdilməsi kimi qanun pozuntuları ilə rastlaşdım. Direktorun birinci müavinini təyin etmək səlahiyyəti Təhsil nazirindədir.Direktor həmin Vüqar Eyyubov ad-soyadlı şəxsi özbaşına müavin təyin etmişdi.Bilmirəm, kimin tapşırığı və istəyi idisə, direktor bu təyinatı özbaşına həyata keçirmişdi.Direktor 2016-cı ildə ödənişli əsaslarla oxuyan tələbələrin də təqaüd ala biləcəyi haqda Nazirlər Kabinetinin qərarını qulaqardı edirdi.Həmçinin onlara mühasibatlıq sənədlərində adı olub, anbara daxil edilməyən mallar haqqında və daha ciddi qanun pozuntuları barədə iradlarımı bildirdim".

Şikayətçi bildirib ki, davamlı şəkildə kollecin direktoru Elşad Quliyevin basqıları ilə üzləşib. Sitat: "O, gah deyirdi ki, Qazax Rayon İcra Hakimiyyətinin başçısı istəmir ki, sən burada fəaliyyət göstərəsən, gah da söyləyirdi ki, sənin kollecdə işləməyini Təhsil Nazirliyi istəmir. Məsələni dəqiqləşdirmək məqsədilə, Təhsil Nazirliyinin əməkdaşları ilə danışanda, belə bir iddialarının olmadığını dedilər.Rayon icra hakimiyyətinin başçısına dəfələrlə müraciət etsəm də, qəbuluna düşə bilmədim.İcra başçısına haqqımda xoşagəlməyən, həqiqəti əks etdirməyən məlumatlar ötürmüşdülər.Guya mən müəllimləri təhqir etmişəm, tələbələrə qarşı düzgün rəftar göstərmirəm.Ümumiyyətlə, insanlara yuxarıdan aşağı baxıram, kobudluq edirəm. Başçıya problemli adam kimi təqdim olunmuşamsa, bircə nümunə, fakt göstərsinlər... Tək kollec və rayon deyil, bütün Gəncəbasara yayılmışdı ki, direktor məni sıxışdırıb işdən çıxarmaq istəyir.Bu haqda mətbuatda yazılar da dərc olunmuşdu.Buna görə kollecin tələbələri yığışıb, imza toplayaraq Təhsil Nazirliyinə müraciət etmək istəmişdilər. Bundan xəbər tutub, həmin tələbələri çağırıb, qorxutmuşdular... Bir neçə işçi ilə məni üzüzə qoyduqları üçün başa düşdüm ki, məni ləkələməyə çalışırlar.Gördüm ki, bunlar nəsə qondarma quramayla məni ləkələməyə çalışır.Buna görə də ərizəmi yazıb, işdən ayrıldım".

Şikayətçi deyib ki, məqsədi kollecdə baş verən qanun pozuntularının təkrarlanmamasıdır.Əlində ciddi faktların olduğunu bildirən Nicat Göyüşlü Qazax Dövlət Sosial-İqtisadi Kollecində baş verən özbaşınalıqlarla bağlı tədbir görülməsini istəyir.

Qazax Dövlət Sosial-İqtisadi Kollecinin direktoru Elşad Quliyev isə açıqlamasında ona qarşı irəli sürülən iddiaları əsassız adlandırıb: "Qanunsuzluqları Nicat müəllim özü etmiş olar. O, eks-təhsil naziri Mikayıl Cabbarovun əmri ilə bizə gəlib. Nazir Ceyhun Bayramovun vaxtında da mənim xəbərim olmadan, ərizə yazıb, işdən çıxıb.Mənim onun nə vaxt ərizə yazıb işdən getməyindən xəbərim olmayıb".

Qeyd edək ki, qəzetimizdə bundan əvvəl də ayrı-ayrı kolleclərdə baş verən rüşvət, korrupsiya halları, özbaşınalıqlar, narazılıqlar barədə bəhs etmiş və açıq şəkildə vurğulamışdıq ki, Azərbaycandakı kolleclərin fəaliyyətinə nəzarətin gücləndirilməsi vacibdir.Bu istiqamətdə xüsusilə Təhsil Nazirliyinin və onun rəhbəri Ceyhun Bayramovun üzərinə böyük yük düşür.Artıq kolleclərlə bağlı ictimai rəydə möhkəmlənən neqativ təəssüratları kökündən dəyişdirməyin vaxtıdır.

Lakin hələlik Bayramovun və rəhbəri olduğu nazirliyin sözügedən təhsil müəssisələri ilə bağlı neqativ hallara kəskin müdaxiləsi müşahidə edilmir, elə bu səbəbdən də kolleclər ətrafında az qala hər həftə yeni qalmaqallı xəbər, şikayət dolu müraciət, ittihamedici fikirlər ortaya çıxır.

Onu da deyək ki, təhsil ekspertləri də bir çox kolleclərin bazara çevrildiyini, orada korrupsiyanın, rüşvətin at oynatdığını dilə gətiriblər.Ancaq belə görünür, bütün bunlar həmin təhsil müəssisələri ilə bağlı ciddi ölçü götürülməsi, kolleclərin fəaliyyətinə nəzarətin artırılması üçün hələ də yetərli sayılmır...

***Orxan Həsənli***

# Azərbaycanda daha 2 siyasi partiya qeydiyyata alındı



***Dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycanda müxtəlif yönümlü, məram və məqsədləri ilə fərqlənən 55 siyasi partiya dövlət qeydiyyatına alınıb.***

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən "Unikal"a bildirilib ki, bu gün respublikamızda müxtəlif siyasi partiyalar qanunvericilik hakimiyyəti və yerli özünüidarəetmə orqanlarında təmsil olunmaqla ictimai-siyasi həyatda yaxından iştirak edirlər.

Altıncı çağırış Milli Məclisin ilk iclasında çıxışı zamanı dövlət başçısının irəli sürdüyü partiyalararası geniş dialoqun aparılmasının vacibliyi ilə bağlı tövsiyəsi, artıq Prezident

Administrasiyasında partiya rəhbərləri ilə müzakirələrin keçirilməsi, müxtəlif partiyaların nümayəndələrinin Milli Məclisin və komitələrinin rəhbərliyində təmsil olunması ölkədə çoxpartiyalı sistemin təkmilləşdirilməsinə xidmət edir.

Bu günlərdə Ədliyyə Nazirliyində Azad Demokratlar Partiyasının və Yeni Zaman Partiyasının qeydiyyat ilə bağlı müraciətlərinə əsasən təqdim olunmuş təsis sənədlərinin qanunvericiliyə uyğunluğu məsələsi öyrənilib və onların dövlət qeydiyyatına alınması barədə qərar qəbul edilib.

Bununla bağlı, aprel ayının 16-da Ədliyyə Nazirliyinin rəhbərliyi ilə qeydiyyata alınmış partiyaların sədrləri Sülhəddin Əkbər və Musa Ağayev arasında görüş keçirilib və onlara dövlət qeydiyyatı haqqında şəhadətnamələr təqdim edilib. Partiya rəhbərləri ölkə başçısının iradəsi ilə çoxpartiyalı sistemin inkişafı sahəsində başlanmış prosesi dəstəklədiklərini vurğulayaraq, görülən işlərlə bağlı razılıqlarını ifadə etmiş və bu istiqamətdə atılan addımların dövlətçiliyimizin möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliklərini bildiriblər.

# Deputatlar spikeri dəstəklədilər



***"Milli Məclisin iş vaxtı bitib, amma biz gündəlikdə olan məsələləri müzakirə edə bilərik".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Sədri Sahibə Qafarova parlamentin iclasında çıxış edən zaman deyib. O bildirib ki, Milli Məclisin iş vaxtının bitməsinə baxmayaraq gündəlikdə hələ 6 məsələ müzakirə edilməyib. Spiker qanun layihələrinin müzakirəsinin davam etdirilməsini təklif edib. Deputatlar spikerin təklifini dəstəkləyiblər.

# Karantin rejimini pozan 22859 sürücü cərimələndi




***Koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 15 aprel 00:00-dan 16 aprel 00:00- dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 2923 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.***

Bu barədə Baş Dövlət Yol Polisi İdarəsindən (BDYPİ) verilən məlumatda bildirilib.

Qeyd edilib ki, ümumilikdə 1apreldən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 22859 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

# Əbülfəs Qarayevə çox vacib sual

## Tarixi tikililərlə bağlı həyəcan təbilləri artır, bəs Mədəniyyət Nazirliyində bu barədə nə düşünürlər?

***Bu yaxınlarda sosial şəbəkələrdə Göyçay rayonunun Nərimanov küçəsi 48 ünvanında yerləşən, yarıuçuq vəziyyətdə olan tikili haqqında müxtəlif məlumatlar dərc olunurdu. Bildirilirdi ki, tikili Osmanlı generalı Nuru Paşanın qərargahı olub, tarixi abidədir və baxımsızlıq ucbatından məhv olur.Göyçay rayon Şəhər İnzibati Ərazi nümayəndəliyinin rəisi Rəşad Şükürov isə uçan binanın tam başqa bir məkan olduğunu və sadəcə olaraq Nuru paşanın keçmişdə qərargahı olmuş binanın yaxınlığında yerləşdiyindən sosial şəbəkələrdə belə əsassız məlumatların yayıldığını bildirmişdi.***

Onun sözlərinə görə, hələ keçən il Türkiyədən gəlmiş qonaqlara Nuru Paşanın qərargah kimi istifadə etdiyi məkan kimi təqdim olunub. Nümayəndəliyin rəisi bildirib ki, Nuru Paşaya aid olan tarixi məkan Nərimanov küçəsi 48 ünvanında yerləşir və rayonda fəaliyyət göstərən sahibkar tərəfindən həmin ərazi özəlləşdirilib: "Vaxtilə Qafqaz İslam Ordusunun qərargahının yerləşdiyi binanın bir hissəsində hazırda yaşayış var, bir hissəsi çay evi kimi fəaliyyət göstərir. Onu da qeyd edim ki, Azərbaycanın tanınmış generallarından olan Sadıqbəy İsmayıl oğlu Ağabəyzadə də bu binada doğulub. Binanın divarındakı barelyefdə bu barədə məlumat qeyd olunub. Uçulub-dağılan bina isə yaxınlıqda yerləşir, vaxtilə bir hissəsində yaşayış olub, qəzalı olduğundan insanları oradan köçürüblər. Göyçay Korlar Cəmiyyətinin idarəsi də uçan binada yerləşib".



Tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli isə məhz uçulub-dağılan binanın Nuru Paşanın qərargahı olduğunu dedi: "Bina gördüyünüz kimi, sökülüb, dağıdılıb. Burada nə edəcəklərindən mənim xəbərim yoxdur, amma bir tarixçi kimi, Qafqaz İslam Ordusunu uzun müddət araşdırmış biri kimi buna çox təəssüf edirəm. Aidiyyəti qurumların bu binanın qorunmasına, bunun bir kompleks kimi saxlanılmasına köməklik göstərməsini istəyirəm, çünki bina dağıdılıb.

Memarlıq üslubuna görə, həm də tarixi hadisələrə yaxınlığı baxımından mühüm abidə hesab edilən bu ev dövlət qeydiyyatına alınmayıb və abidənin qorunması ilə bağlı tədbirlər görülməyib. Qafqaz İslam Ordusunun qərargahı olması və şəxsən Nuru Paşanın bu binada oturması ilə əlaqədar bir çox rəsmi sənədlər, raportlar və hesabatlar var. Bunlardan biri qərargah rəisi, polkovnik Rüşdü bəyin raportlarıdır və orada Göyçayda, bu evin ətrafında baş verən bütün hadisələr dəqiqə və saatına qədər hamısı qeyd olunub. Yəni bu binanın Azərbaycan tarixinin ən önəmli hadisələrindən birinə şahidlik etdiyi, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması prosesində əsas dayaq nöqtələrindən biri olduğu məlumdur".

Tarixçi illər öncə Göyçay rayon İcra Hakimiyyətinə rəsmi məktubla müraciət edərək həmin tarixi məkanın qorunması və tariximizə sahib çıxılması üçün xahiş edib: "Bütün bunlara baxmayaraq, bu gün müəyyən insanlar tərəfindən həmin kompleks şəkildə olan məkan ayrı-ayrılıqda nömrələnərək sanki fərqli məkanlarmış kimi qələmə verilir. Lakin bu, tam yanlış bir informasiyadır, tarixi sübutlar və sənədlər mövcuddur və araşdırma zamanı rahatlıqla müəyyən etmək olar. Ümid edirəm ki, tariximizə və keçmişimizə biganə qalmazlar və illərə meydan oxuyan bu tarixi məkan qorunub saxlanılar".

Qeyd edək ki, bu günlərdə Bərdədəki bir tarixi tikili ilə bağlı da həyəcan təbili çalınmışdı. Yerli camaatın xatirəsinə böyük hörmət bəslədiyi Bala bəyə məxsus həmin tikilinin üzərindəki lövhədə yazılana görə, XIX əsrə aid bina yerli əhəmiyyətli memarlıq abidəsidir. Həm də dövlət tərəfindən qorunur.

Lakin orada dözülməz, bərbad vəziyyət hökm sürür. Rayon mərkəzi xəstəxanasının da yerləşdiyi bina çökmək üzrədir. Deməli, həm yerli əhəmiyyətli memarlıq abidəsi kimi, həm də səhiyyə ocağı olaraq yerlə-yeksan ola bilər. Xəstəxananın baş həkimi Yeganə Əhmədova da vəziyyətdən narahatdır. Onun bildirdiyinə görə, binada cari təmir aparmağa da ixtiyarları yoxdur. Çünki Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti belə bir addım atmağa icazə vermir.

Həmin qurumun mətbuat katibi Fariz Hüseynov isə bildirib ki, Bala bəyin evi hazırda Nazirlər Kabinetinin qərarına uyğun olaraq qeydiyyata alınmayıb: "Fasada bərkidilmiş lövhə də oraya səhvən vurulub. Buna baxmayaraq, yerli mühafizə şöbəsi tərəfindən yeni aşkar olunmuş abidə kimi mühafizəsi təşkil olunub. Hazırda dövlət qeydiyyatına alınmalı abidələr siyahısındadır. Dövlət qeydiyyatında olmadığına görə nazirliyin vəsaiti hesabına təmiri mümkün deyil. Ancaq sponsor dəstəyi olarsa, imkanlı şəxsin vəsaiti hesabına layihələndirmə, mütəxəssis yardımı göstərilməklə Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti də bacardığı köməkliyi göstərə bilər".

Qeyd edək ki, ölkənin müxtəlif yerlərindəki tarixi tikililərin, abidələrin baxımsız vəziyyətdə olması, uçulub-dağılması barədə xəbərlər, şikayətlər son vaxtlar xeyli artıb. Əlbəttə, bu həyəcan doğurur. Eyni zamanda Əbülfəs Qarayevin rəhbərlik etdiyi Mədəniyyət Nazirliyinin sözügedən məsələdə məsuliyyətini gündəmə gətirir.Maraqlıdır, tariximizin bir parçası olan tikililərlə bağlı həyəcan təbilləri çoxalarkən adıçəkilən nazirlikdə bu barədə nə düşünürlər? Sualın cavabı yəqin hamı üçün maraqlıdır. Həmin cavabın tezliklə veriləcəyinə inanmaq çətin olsa da, hər halda buna ümid eləməkdən başqa əlimizdən bir şey gəlmir...

**_Sənan Mirzə_**

# Ölkə vətəndaşlarının 94 faizindən çoxu Prezidentə etibar edir - SORĞU

***Prezident İlham Əliyevin son dövrdə ölkədə həyata keçirilən inqilabi islahatlarla bağlı cəmiyyətin ictimai rəyinə müstəsna əhəmiyyət verməsini nəzərə alaraq, Sosial Tədqiqatlar Mərkəzi (STM) 2019-cu ildən etibarən yeni formatlı sosioloji sorğulara start verib.***

STM-dən "Unikal"a verilən məlumata görə, bu sorğular islahatlarla bağlı ictimai rəyin rüblük (3 aylıq) monitorinqi baxımından ölkədə bir ilk olmaqla yanaşı, həm də sosial proseslərin dinamikasını və ictimai rəydə dəyərləndirilməsini daha operativ izləməyə imkan verir.

Təqdim edilən növbəti hesabat, 2020-ci ilin sona çatan ilk rübünü (yanvar-mart) əhatə edir. Sosioloji sorğu əsaslı bu analitik hesabatın məqsədi bəhs edilən müddətdə dövlət başçısının daxili və xarici siyasətinin başlıca məqamları, ölkədəki ictimai-siyasi proseslərin vəziyyəti ilə bağlı xalqımızın rəyinin operativ öyrənilməsi, qanunverici, icraedici hakimiyyət və hüquq-mühafizə sistemində gedən proseslərə cəmiyyətin münasibətini çevik dəyərləndirməklə ümumi mənzərənin göz önündə canlandırılması, müvafiq qərarların qəbulunda mötəbər mənbə kimi həm də ictimai rəyə istinad edilməsinə şərait yaratmaqdır.

Rəy sorğusunda dövlət başçısının həm daxili, həm də xarici siyasət sahəsində çoxşaxəli fəaliyyətini izləməyə imkan verən, siyasi təqvimdə tarixi əhəmiyyətə və xüsusi çəkiyə malik olan, rəsmi xronikada, eləcə də yerli və xarici mediada geniş işıqlandırılan hadisələr əksini tapıb.

2020-ci ilin yanvar-mart ayları ərzində də, həmişə olduğu kimi, Azərbaycanın dövlət başçısının fəaliyyətində yerli və beynəlxalq ictimai rəydə gündəmə çevrilən və yadda qalan hadisələr baş verib. Bu hadisələr Prezident İlham Əliyevin dövlətçiliyin gücləndirilməsi naminə daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyəti diqqət mərkəzinə gətirməklə yanaşı, ona olan inam və etibarın daha da yüksəlməsini təmin edib.

Beləliklə, 2020-ci ilin birinci rübü ərzində Prezident İlham Əliyevin daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyətə ictimai rəyin münasibətinin və Prezidentə inam indeksinin öyrənilməsi üçün Sosial Tədqiqatlar Mərkəzi (STM) tərəfindən keçirilən sorğunun nəticələri ən qısa şəkildə belə ifadə edilə bilər:

Bütün dünyada neft qiymətlərinin aşağı düşməsi, beynəlxalq geosiyasi qarşıdurmaların kəskinləşməsi, II Dünya müharibəsindən sonra dünyada ilk dəfə ən dərin sosial, siyasi, iqtisadi böhran vəziyyətini yaradan yeni qlobal pandemiyanın sürətlə yayılması fonunda Prezident İlham Əliyevə cəmiyyətin inam və etibarı, onun həyata keçirdiyi düzgün siyasət nəticəsində daha da artıb, xalqımızın rifahı və firavanlığının daha da yaxşılaşmasına yönələn islahatlar kursuna dəstək yüksələn xətt üzrə gedir.

Təqdim edilən "İnam indeksi" ictimai rəy sorğusuna əsaslanan analitik hesabat həmin qənaəti təsdiq edir.

Sorğunun metodoloji prinsipləri

- Keçirilən ictimai rəy sorğusunda ümumilikdə 1212 respondent iştirak edib.

- İctimai rəy sorğusu klaster seçmə metoduna əsaslanıb. Ümumilikdə, ölkə üzrə seçilmiş ünvanlarda 101 klaster təsadüfi seçim əsasında müəyyən edilib və hər birində sorğuda iştirak etməyə müsbət cavab verən ilk 12 nəfər əsas seçimə daxil edilib.

- Sorğuda iştirak üçün ailədə doğum günü sorğu keçirilən vaxta yaxın olan şəxs seçilib.

- Sorğunun nəticələri 95% əminlik intervalı, statistik xəta əmsalının 3% olması nəzərə alınaraq təhlil edilib.

- Sahə işi 2020-ci ilin mart ayı ərzində keçirilib.

Sorğu Naxçıvan Muxtar Respublikasında və işğal edilmiş regionların ərazisi istisna olmaqla bütün ölkəni əhatə edib. Eyni zamanda, işğal edilmiş rayonların etnik azərbaycanlı əhali qrupu da sorğuya cəlb olunub.

Nəticə:

- 2020-ci ilin birinci rübü ərzində Prezident İlham Əliyevin daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyətə ictimai rəyin münasibətinin, Prezidentə "İnam indeksi"nin öyrənilməsi ilə bağlı keçirilmiş sorğunun nəticələrinin təhlili göstərir ki, Prezident İlham Əliyevə cəmiyyətin inam və etibarı, onun həyata keçirdiyi düzgün siyasət nəticəsində daha da artıb, xalqımızın rifahı və firavanlığının daha da yaxşılaşmasına yönələn islahatlar kursuna dəstək yüksələn xətt üzrə davam edib.

- Hakimiyyətin digər qolları (qanunverici və məhkəmə hakimiyyəti) ilə müqayisədə respondentlərin mütləq əksəriyyəti (94.7%) Prezidentə etibar edir.

- Prezidentə "tam etibar edirəm" deyənlər respondentlərin mütləq çoxluğunu (90.8%) təşkil edir.

- Respondentlərin 57.4%-i parlamentə, 46.2%-i yerli icra hakimiyyətinə, 49%-i məhkəməyə etibar edir. Bu üç hakimiyyət qolu içərisində ən aşağı etibarlılıq icra hakimiyyətinədir. Bu, onu deməyə əsas verir ki, ölkə əhalisi hakimiyyətin digər strukturları ilə müqayisədə Prezidentə daha çox etibar edir.

- Ölkə başçısının hərbi, siyasi və sosial-iqtisadi sahələrdəki fəaliyyəti ümumilikdə böyük əksəriyyət tərəfindən müsbət dəyərləndirilib. Prezidentin ordu quruculuğu və silahlı qüvvələrin modernləşdirilməsi (96%) və xarici siyasət (95%) sahələrindəki fəaliyyəti respondentlərin mütləq əksəriyyəti tərəfindən daha çox müsbət qiymətləndirilir.

- 2019-cu ildə keçirilən tədqiqatın nəticələri ilə yeni nəticələri müqayisə etdikdə aydın olur ki, keçən bir neçə ay ərzində Prezidentin müxtəlif sahələrdəki fəaliyyətinə əhalinin münasibəti müsbətə doğru yüksəlib. Digər önəmli məqam odur ki, Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətini "çox yaxşı" qiymətləndirənlər nəzərəçarpacaq dərəcədə artıb.

- Əhalinin gündəlik həyatına birbaşa təsir edən, yaxud təsiri hiss edilən məsələlərin sosial-iqtisadi sahədə korrupsiyaya qarşı mübarizə səviyyəsinin ictimai rəydə qiymətləndirilməsinin nisbətən aşağı olması bu sahənin, eləcə də işsizlik və sosial vəziyyətin yaxşılaşdırılması kimi məsələlərin yaxın dövr üçün dövlət siyasətinin əsas hədəflərindən biri kimi qalmalı olduğuna dəlalət edir.

- 2020-ci ilin fevral ayında Münhen Təhlükəsizlik Konfransındakı çıxışında ("Valday" Beynəlxalq Diskussiya Klubunda Prezidentin çıxışının davamı kimi) Ermənistanın baş nazirini və işğalçılıq siyasətini tarixi həqiqətlərlə ifşa etməsi ictimai rəydə vətəndaşların Prezidentə olan münasibətinə müsbət təsir göstərməklə bərabər, ərazi bütövlüyümüzün bərpa edilməsinə olan inamı da yüksəldib.

- Prezidentin Münhen Təhlükəsizlik Konfransındakı çıxışı Ermənistanın baş nazirinin növbəti dəfə aciz duruma düşməsi (56.7%), Prezidentin növbəti diplomatik qələbəsi (48.5%), Dağlıq Qarabağ probleminin həlli istiqamətində yeni bir mərhələ (44.3%) kimi qiymətləndirilib.

- Rəyi öyrənilən respondentlərin əhəmiyyətli bir hissəsi (75,9%-i) dünya neft bazarlarındakı volatillik fonunda valyuta məzənnəsinin sabit saxlanılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirləri əhəmiyyətli dərəcədə səmərəli hesab edir.

- Ölkədə maliyyə-bank sektorundakı sabitliyin təmini ilə bağlı nəticə əsaslı tədbirləri müvafiq olaraq respondentlərin 63,1%-i kifayət qədər səmərəli hesab edir.

- COVID-19 pandemiyasının və eləcə də qlobal neft böhranının (neft qiymətlərindəki kəskin eniş) dərinləşdiyi bir dövrdə ölkədə ərzaq təhlükəsizliyi ilə təminat sahəsində reallaşdırılmış genişmiqyaslı işləri vətəndaşlar yüksək dəyərləndirir (87.8%).

- Rəyi öyrənilənlərin 87.8%-i müvafiq dövlət qurumlarının sosial-iqtisadi islahatlarla bağlı ictimaiyyəti periodik məlumatlandırmasını səmərəli qiymətləndirir.

- 89.2% respondent ölkə Prezidentinin milli genofondun qorunması, sosial, səhiyyə və sağlamlığın daha da möhkəmləndirilməsi məsələlərinə xüsusi həssaslıqla yanaşmasını, daima diqqət mərkəzində saxlamasını olduqca yüksək qiymətləndirərək bu istiqamətdə dövlət siyasətini təqdir edir.

- Respondentlərin mütləq əksəriyyəti (93%) dövlətin koronavirusla bağlı ilkin mərhələdə həyata keçirdiyi tədbirləri müsbət dəyərləndirərək yetərli sayır.

- Respondentlərin böyük əksəriyyəti (87.8%) pandemiyanın mövcud olduğu vəziyyətdə hər hansı problemlə qarşılaşdığı zaman dövlətin onlara dəstək göstərəcəyinə inanır.

- Respondentlərin böyük əksəriyyəti pandemiyaya qarşı mübarizə tədbirləri çərçivəsində atılan addımlara karantin məhdudiyyətlərinin tətbiq edilməsinə, bir sıra qonşu ölkələrlə sərhədlərin bağlanmasına (85.6%), kütləvi tədbirlərin qadağan edilməsinə (84%) tədrisin dayandırılmasına (82.4%) daha müsbət münasibət bildirib.

- Ümumilikdə, respondentlərin mütləq əksəriyyəti (92.8%) ictimai qınağa səbəb olan hadisələrə Prezidentin reaksiyası ilə həmrəydir.

- Respondentlərin əksəriyyəti (88.9%) yerlərdə baş verənlər barədə Prezidentin ümumilikdə məlumatlı olması fikrindədirlər. Lakin nə dərəcədə məlumatlı olub-olmaması barədə fikri birmənalı deyil - "tam məlumatlıdır" (44.3%) və "qismən məlumatlıdır" (44.6%) cavablarını seçənlərin çəkisi demək olar ki eynidir.

- Respondentlərin nəzərində Prezidentin yerlərdə baş verənlərlə bağlı məlumatlılığı onun qərar qəbul etməsində əsasən qanunazidd hərəkətlərə yol verən məmurların cəzalandırılmasında (67.5%), korrupsiyaya qarşı mübarizədə (48.7%) və kadr islahatlarında (43.2%) özünü büruzə verir.

- Əhalinin böyük əksəriyyəti (81.8%) "tam əminliklə" bu qənaətdədir ki, yerli icra hakimiyyəti başçılarının Prezident tərəfindən vəzifədən azad edilməsində ictimai fikrin birbaşa təsiri var. Bu fikirdə olanların ümumi göstəricisi isə 95.2% təşkil edir. Əhali arasında belə qənaətin yayılması Prezident-vətəndaş münasibəti cəhətdən müsbət səciyyələndirilə bilər.

- Ümumilikdə, respondentlərin üçdə ikisindən bir qədər çox hissəsi ölkə rəhbərinin ictimai qınağa səbəb olan məsələlərə reaksiyasından tam razıdırsa, dörddə biri qismən razıdır. Nəticələrə əsasən, insanlar ölkə başçısının özünün fəaliyyətində ictimai rəyə həssas olduğunu düşünür.

- İslahatlar və korrupsiyaya qarşı mübarizə siyasəti çərçivəsində Dövlət Təhlükəsizlik Xidməti tərəfindən yerli icra başçılarına qarşı aparılan əməliyyatlar xüsusilə regionlarda yaşayan vətəndaşlarda müsbət gözləntilərin yaranmasına səbəb olub. Bəzi hallarda vəziyyətin dəyişməyəcəyi, məmur özbaşınalığının davam edəcəyini düşünənlərin belə fikirləri dəyişməkdədir. İnsanlar bu kimi addımları da islahatların əsas qolu kimi qiymətləndirir və bunun davamlı olmasını arzulayırlar.

- Həmçinin, Prezidentin etimadını doğrultmayan məmurların bu şəkildə cəzalandırılması onu göstərir ki, islahatlar dönməz və ardıcıl xarakter daşıyır, xalqa xidmət fəaliyyətin yeganə meyarıdır. Eləcə də, qanun qarşısında hər kəs bərabərdir. İnsanlarda da qanunun aliliyinə inam artmaqdadır.

- Respondentlərin yarıdan çoxu (54.4%) bu əməliyyatlardan sonra rayon icra hakimiyyəti başçılarının korrupsiyaya yol verməkdən çəkinəcəyini düşünür. Bir o qədər də respondentdə vətəndaşların qanunun aliliyinə inamının artacağı gözləntisi (50.3%) var.

- Respondentlərin əksəriyyəti (85%) Dövlət Təhlükəsizlik Xidməti tərəfindən aparılan əməliyyatların Prezidentin imicinə müsbət təsir etdiyini düşünür. Vəzifələrindən sui-istifadə edən məmurların cəzalandırılaraq vəzifədən uzaqlaşdırılması başlanan islahatların heç kimin mane ola bilməyəcəyini göstərir.

- Həyata keçirilən kadr dəyişiklikləri vətəndaşların əsaslı hissəsinin nəzərində Prezidentin nüfuzuna müsbət təsir göstərən əsas amillərdən biridir.



- Rəyi soruşulanların 77.6%-nin nəzərində "Prezidentin çıxışlarında bütün hakimiyyət təmsilçilərinə xalqa xidmət etməyi və xalqa yaxın olmağı tapşırması" ölkə başçısının nüfuzuna "ən çox təsir" göstərən amil kimi irəli çıxır ki, bu da məmurların cəzalandırılması və kadr dəyişikliklərinin vətəndaşlar üçün yüksək əhəmiyyət kəsb etdiyini göstərir.

- Təsir dərəcəsinə görə növbəti pillələrdə "xalqa xidmət etməyən məmurlara qarşı qətiyyətli davranışı" (71.8%), "xalqın içərisində olması" (71.6%) və "sadə və təvazökar olması" (71.3%) amilləri dayanır.

- Respondentlərin mütləq əksəriyyəti (94.2%) Prezidentin öz sadəliyi və təvazökarlığı ilə məmurlara örnək olması fikrindədir. Ölkə başçısının bir çox tədbirlərdə, görüşlərdə olan davranışları, səmimi ünsiyyəti, insanları sonadək dinləməsi vətəndaşlarda bu fikri formalaşdırır.

- 2020-ci ilin birinci rübündə vətəndaşların Prezidentə olan inam və etimadının dinamikasına baxdıqda aydın olur ki, bu istiqamətdə yüksəlmə var. Belə ki, STM tərəfindən 2019-cu ildə keçirilən "Prezidentin fəaliyyəti ictimai rəydə" İnam İndeksində oktyabr ayı üzrə bu göstərici 54.6% idisə, mart ayında bununla müqayisədə göstərici 58.1%-dir. Ümumilikdə 2020-ci ilin mart ayına olan göstəricilərə əsasən deyə bilərik ki, respondentlərin mütləq əksəriyyəti (94.5%) ölkə başçısına inanır və etimad göstərir.

- Vətəndaşlar Prezidentin fəaliyyəti ilə bağlı məlumatları televiziyadan (81.1%) və sosial şəbəkələrdən (41.7%) alırlar. Prezident.az saytından (7.3%) və Prezidentin sosial şəbəkə hesablarından (8.4%) istifadə göstəricisi o qədər də yüksək deyil. Respondentlərin demoqrafik təhlili göstərir ki, hər iki ünvana ali təhsilli şəxslər və Bakıda yaşayanlar daha çox daxil olur.

- Vətəndaşların digər sosial şəbəkələrdən deyil, birbaşa mənbənin özündən Prezidentin sosial şəbəkə hesablarından məlumat alması daha düzgün informasiyaya çıxış baxımından səmərəli sayıla bilər.



## Ceyhun Bayramov məktəb direktorunu şöbə müdiri təyin etdi

***Lənkəran Şəhər Təhsil şöbəsinə yeni müdir təyin olunub. Təhsil Nazirliyindən verilən məlumata görə, nazir Ceyhun Bayramovun əmrinə əsasən, bu vəzifəyə Ülviyyə Əliyeva təyinat alıb.***

Qeyd edək ki, Ü. Əliyeva təyinata kimi Lənkəran şəhər Azər Məhərrəmov adına 7 nömrəli tam orta məktəbin direktoru vəzifəsində çalışıb.

## Qanunsuz heyvan kəsiminin qarşısını almaq üçün monitorinqlər keçirilir

***Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi istiqamətində tədbirləri davam etdirir.***

AQTA əməkdaşları tərəfindən ölkəmizdə koronavirusa qarşı mübarizə tədbirləri çərçivəsində Mingəçevir şəhəri ərazisində fəaliyyət göstərən heyvan kəsimi və satışı yerlərində maarifləndirici monitorinqlər keçirilib.

Monitorinq zamanı heyvan kəsiminin və ət satışının antisanitar şəraitdə və baytarlıq ekspertizası aparılmadan həyata keçirildiyi məntəqələr aşkarlanıb. Agentlik əməkdaşları tərəfindən kəsimlə məşğul olan şəxslərə öz fəaliyyətlərini qanunvericiliyin tələblərinə uyğun qurmaq və heyvan kəsimini mərkəzləşdirilmiş, müasir kəsim məntəqələrində həyata keçirmək barədə bildirişlər təqdim olunub. Koronavirusla mübarizə tədbirləri çərçivəsində tətbiq olunan tələblər, heyvan kəsimi məntəqələrinin fəaliyyətinə dair metodiki göstərişlər diqqətə çatdırılıb.

AQTA əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi istiqamətində ardıcıl tədbirlərini bundan sonra da davam etdirəcək və istehlakçı hüquqlarının pozulmasına yönəlmiş qanunsuz halların qarşısı alınacaqdır.

## Türkiyə Azərbaycandakı vətəndaşlarını təxliyə edəcək

***Türkiyə hökuməti Azərbaycandan ölkəsinə dönmək istəyən vətəndaşlar üçün təxliyə reysləri təşkil edəcək.***

Bu barədə Türkiyənin Azərbaycandakı səfirliyindən məlumat verilib. Məlumata görə, Türkiyə Hava Yolları Azərbaycanda olan və ölkəsinə qayıtmaq istəyən Türkiyə vətəndaşlarının təxliyəsi üçün yaxın günlərdə təyyarələr göndərəcək.

"İndiyədək səfirliyə ölkəyə qayıtmaq üçün müraciət edən bütün vətəndaşlarımıza uçuşlarla bağlı ətraflı məlumat e-poçt, "WhatsApp" və SMS vasitəsilə çatdırılacaq. Bununla əlaqədar vətəndaşlarımızı e-poçt və telefonlarını mütəmadi olaraq yoxlamağı xahiş edirik", - diplomatik nümayəndəlikdən bildirilib.

## İki ayda 8151 nikah, 2841 boşanma...

***Cari ilin ilk iki ayında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən qeydə alınan nikah və boşamaların sayı açıqlanıb.***

Dövlət Statistika Komitəsindən (DSK) Modern.az-a verilən məlumata görə, 8151 nikaha daxilolma və 2841 boşanma halları qeydə alınıb.

Əhalinin hər 1000 nəfərinə 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı azalaraq 5,2-dən 5,0-a düşüb, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə (1,7) qalıb.

# Bu il Azərbaycana dünyanın 151 ölkəsindən turist gəlib

***2020-ci ilin yanvar-mart aylarında Azərbaycana dünyanın 151 ölkəsindən 519,3 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 15 faiz az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.***

Dövlət Statisika Komitəsindən (DSK) verilən məlumata görə, azalmanın əsas səbəbi koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikası ilə cari il fevralın 29-dan İran, martın 14-dən Gürcüstan, martın 15-dən Türkiyə, martın 18-dən Rusiya Federasiyası arasında dövlət sərhədində məhdudlaşdırıcı rejim, eləcə də dünyanın əksər ölkələrində vətəndaşların səfərlərinə müvəqqəti məhdudiyyətlər tətbiq olunduğuna görə cari ilin mart ayında ölkəmizə gələnlərin sayında müşahidə olunmuş kəskin azalma ilə bağlıdır:

"Belə ki, cari ilin mart ayında ölkəmizə gələnlərin sayı əvvəlki ayla müqayisədə 53,4 faiz, ötən ilin mart ayı ilə müqayisədə isə 62,2 faiz azalıb.

Cari ilin birinci rübündə gələnlərin 30,3 faizi Rusiya Federasiyası, 28,3 faizi Gürcüstan, 11,7 faizi Türkiyə, 5,9 faizi İran, 2,4 faizi Hindistan, 2,3 faizi Səudiyyə Ərəbistanı, 2 faizi Ukrayna, hər birindən 1,5 faiz olmaqla Birləşmiş Ərəb Əmirlikləri və Pakistan, 1,4 faizi Küveyt, 1,3 faizi Qazaxıstan, 1,2 faizi Türkmənistan, 1,0 faizi İraq, 0,9 faizi Böyük Britaniya, 0,8 faizi Özbəkistan, 0,7 faizi İsrail, 6,7 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 73 faizini kişilər, 27 faizini isə qadınlar təşkil edib.



Cari ilin birinci rübündə Birləşmiş Ərəb Əmirliklərindən gələnlərin sayı 62,4 faiz, Çindən - 52,7 faiz, İrandan - 45,9 faiz, Omandan - 45 faiz, İraqdan - 41 faiz, ABŞ-dan - 31,7 faiz, İspaniyadan - 29,7 faiz, Qətərdən 27,8 faiz, İtaliyadan - 27,3 faiz, Niderlanddan - 23,2 faiz azalıb.

Ümumilikdə körfəz ölkələrindən gələnlərin sayı 36,3 faiz azalaraq 68,1 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 22,0 faiz azalaraq 14,9 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 6,3 faiz azalaraq 189,6 min nəfər olub",

"Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 64,9 faizi dəmir yolu və avtomobil, 33,8 faizi hava, 1,3 faizi isə dəniz nəqliyyatından istifadə edib.

2019-cu ilin yanvar-mart ayları ilə müqayisədə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 23,3 faiz azalaraq 932,5 min nəfər olub. Ölkə vətəndaşlarının 34,1 faizi İrana, 30 faizi Gürcüstana, 20,4 faizi Rusiya Federasiyasına, 9,8 faizi Türkiyəyə, 5,7 faizi isə digər ölkələrə səfər edib. Gedənlərin 68,5 faizini kişilər, 31,5 faizini qadınlar təşkil edib.

Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 32,8 faiz, Türkiyəyə gedənlərin sayı 23,8 faiz, Gürcüstana gedənlərin sayı 16,7 faiz, Rusiya Federasiyasına gedənlərin sayı isə 13,8 faiz azalıb.

2020-ci ilin yanvar-mart aylarında xarici ölkələrə səfər etmiş Azərbaycan Respublikası vətəndaşlarının 82,9 faizi dəmir yolu və avtomobil, 16,2 faizi hava, 0,9 faizi isə dəniz nəqliyyatından istifadə edib",-deyə rəsmi məlumatda bildirilib.

# 190 manat üçün qeydiyyatdan keçənlərə niyə SMS gəlmir? - Rəsmi CAVAB

***İşsizlər üçün nəzərdə tutulan birdəfəlik ödəmə (190 manat) üçün elektron qaydada e.sosial.az portalına müraciət edib hələ də cava ala bilməyən vətəndaşlara bağlı məsələyə aydınlıq gətirilib.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) İctimaiyyətlə əlaqələr və Kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov Modern.az-ın sorğusuna cavab olaraq bildirib ki, proses ardıcıl, növbəlilik qaydasında olaraq həyata keçirilir: "Həmçinin, müraciətlərin sayının çox olduğunu nəzərə almaq lazımdır. Hər gün 45-50 min vətəndaşın müraciəti emal edilir. Ümumilikdə müraciət edən və sahibkarlıqla məşğul olan 19600 vətəndaşa, həmçinin əmək müqaviləsi ilə işləyən 20 min muzdlu vətəndaşa SMS-i göndərilib. Müraciət edən 140 min nəfərə isə birdəfəlik ödəməni almasına hüququ olduğuna dair SMS göndərilib".




F.Talıbov qeyd edib ki, proses gündəlik olaraq davam edir. "Müraciətlərin çoxluğu və prosesin miqyasının geniş olması nəzərə alınaraq, birdəfəlik ödəmə üçün e.sosial.az portalına müraciət edən vətəndaşlara bir neçə gün sonra cavab göndəriləcək. Buna görə narahat olmasınlar. İstənilən halda qeydiyyatdan keçən hər bir vətəndaşa imtina yaxud birdəfəlik ödəmənin təyinilə bağlı SMS göndəriləcək".

# Yasa getmək adı ilə yalan mesaj yazan 120 nəfər cərimələndi

***Yas mərasimində iştirak etmək adı ilə həqiqətə uyğun olmayan və ya yaxın qohumluq statusu daşımayanların yas mərasimlərində iştirak etmək bəhanəsi ilə qanunsuz yerə 8103 qısa nömrəsi vasitəsi ilə icazələr alaraq epidemiya əleyhinə rejimin tələblərini pozan şəxslərin müəyyən edilməsi istiqamətində polis əməkdaşları tərəfindən tədbirlər davam etdirilir.***

Bu barədə Unikal.org-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidməti məlumat verib.

Belə ki, aprelin 16-17 aprel tarixləri arasında paytaxt Bakı və Respublikanın ayrı-ayrı rayonlarında bu üsuldan istifadə edərək karantin qaydalarını pozan ümumilikdə 120 nəfərin şəxsiyyəti müəyyən edilib. Həmin şəxslər polis idarə, şöbə və bölmələrinə gətirilərək izahatları alınıb. Bu cür süi-istifadə hallarına yol verənlər barəsində İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə müvafiq tədbirlər görülüb və onların hər biri 100 manat məbləğində cərimə edilib.

Bir daha diqqətə çatdırırıq ki, 8103 nömrəsinə edilən bütün müraciətlər ciddi və hərtərəfli araşdırılır. Vətəndaşlardan tələb olunur ki, 8103 xidmətindən süi-istifadə hallarına yol verməsinlər. Əks halda bu davranış



karantin rejimi tələblərinin pozulması kimi qeydə alınaraq həmin şəxs barəsində ciddi cəza tədbirləri görüləcək.

# “Yaşıllıq qatilləri”nin məmurlarla işbirliyi...

## Ağacları qanunsuz kəsənlər kimdən cəsarət alırlar?



***Ölkə rəhbərliyinin dəfələrlə kəskin xəbərdarlıqlar etməsinə, mətbuatın mütəmadi yazmasına və cəmiyyətin etirazlarına baxmayaraq, Azərbaycanda yaşıllıqların məhv edilməsi ilə bağlı xəbərlərin ardı-arası kəsilmir.Gəlin təkcə son iki ayda bu mövzuda yayılan məlumatların bir neçəsini xatırlayaq.***

Bu ilin martın əvvəllərində məlum oldu ki, Nizami rayonu, T.Abbasov 5 ünvanında ağacların kəsilməsi ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinə daxil olan şikayət nazirliyin əməkdaşları tərəfindən yerində araşdırılıb. Bunu jurnalistlərə Ətraf Mühitin Mühafizəsi Departamentinin sektor müdiri Sadiq Dərafərin bildirib.

O qeyd edib ki, sözügedən ünvanda aparılan araşdırma zamanı 2 sərv ağacının ”Təbriz Center” MMC tərəfindən tikinti işləri aparılan zaman kəsildiyi müəyyən edilib. Faktla bağlı akt və protokol tərtib olunub.”Təbriz Center” MMC-nin hüquqi şəxs qismində 50 000 manat məbləğində cərimə olunması üçün toplanmış materiallar Nizami rayon Məhkəməsinə göndərilib.

Ondan əvvəl isə Bakı şəhəri Nəsimi rayonu, C.Səlimov 7 ünvanında ağacların kəsilməsi ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinə daxil olan şikayət Nazirliyin əməkdaşları tərəfindən yerində araşdırılmışdı. Ətraf Mühitin Mühafizəsi Departamentinin sektor müdiri Sadiq Dərafərin bildirmişdi ki, sözügedən ünvanda keçirilən baxış zamanı ərazidə 1 ədəd qovaq ağacı və 2 ədəd lüqustr kolunun kəsildiyi məlum olub.O qeyd etmişdi ki, ağac və kolların ərazidə ”Casbak-Trade” MMC tərəfindən tikinti işləri aparılan zaman kəsildiyi müəyyən edilib. Faktla bağlı akt və protokol tərtib olunub.

MMC-nin hüquqi şəxs qismində 50 000 manat məbləğində cərimə olunması üçün toplanmış materiallar Nəsimi rayon Məhkəməsinə göndərilib.

Bu ilin martın 26-da yayılan məlumata görə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə Lerik rayonu Hamarmeşə kəndinin yaxınlığında Gurdasar meşəbəyliyində ağacların kəsilməsi ilə bağlı daxil olan şikayət Nazirliyin yerli qurumlarının əməkdaşları tərəfindən yerində araşdırılıb.

Belə ki, Regional Ekologiya İdarəsinin rəisi Rafael Tahirov jurnalistlərə bildirib ki, sözügedən meşə sahəsinə keçirilən baxış zamanı 30-a yaxın ağacın kəsildiyi aşkar edilib.Faktla bağlı akt tərtib olunub.

“Hazırda Nazirliyin yerli qurumları və rayon polis şöbəsi tərəfindən təqsirkarların müəyyən olunması istiqamətində tədbirlər həyata keçirilir, nəticə barədə əlavə məlumat veriləcək”, - deyə R. Tahirov vurğulayıb.

Nazirlik rəsmisi ağacların kəsilməsi ilə bağlı nazirliyə məlumat verən təbiətsevərlərə təşəkkürünü bildirib, vətəndaşları təbiət düşmənlərinə qarşı bundan sonra da birgə mübarizəyə çağırıb.

Yenə martda Quba-Qusar avtomobil yolunun kənarında ağacların kəsilməsi ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinə daxil olan şikayət Nazirliyin əməkdaşları tərəfindən yerində araşdırılıb. Bunu Nazirliyin Ətraf Mühitin Mühafizəsi Departamentinin sektor müdiri Raqub Mirzəyev jurnalistlərə açıqlamasında bildirib.Onun sözlərinə görə, araşdırma zamanı Quba rayonunun Xucbala kəndi ərazisində Qusar rayon sakini Səidə Əsgərovaya məxsus torpaq sahəsində müxtəlif cinsli ağacların kəsildiyi və təbiətə 18 600 manat məbləğində ziyan dəydiyi müəyyən edilib: ”Faktla bağlı akt tərtib olunub. Dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından məsələyə hüquqi qiymət verilməsi və təqsirkar barəsində qanunamüvafiq tədbirlərin görülməsi üçün sənədlər hüquq-mühafizə orqanlarına göndəriləcək”.

Təxminən iki ay öncə bu dəfə Nizami rayonu, K.Balakişiyev 32 ünvanında ağacların kəsilməsi ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinə daxil olan şikayət Nazirliyin əməkdaşları tərəfindən yerində araşdırılıb. Bunu jurnalistlərə Ətraf Mühitin Mühafizəsi Departamentinin sektor müdiri Sadiq Dərafərin bildirib.O qeyd edib ki, sözügedən ünvanda aparılan araşdırma zamanı 3 şam ağacının ”Karayev City” MTK tərəfindən tikinti işləri aparılan zaman ağır texnika ilə məhv edildiyi müəyyən edilib. Faktla bağlı akt və protokol tərtib olunub.

”Karayev City” MTK-nın hüquqi şəxs qismində 50 000 manat məbləğində cərimə olunması üçün toplanmış materiallar Nizami rayon Məhkəməsinə göndərilib.

Belə nümunələrin sayını artırmaq da olar.Aydın görünür ki, bir çox fiziki və hüquqi şəxslər həm qanunlara, həm də ictimai rəyə hörmətsizlik nümayiş etdirməkdə israrlıdırlar.Onlar yaşıllıqların qəniminə çevrilməkdən nəinki çəkinmir, hətta bunu açıq şəkildə göstərirlər.Bəs beləlləri bu cəsarəti hardan alırlar?Ağacların qanunsuz şəkildə kəsilməsinə qarşı istər ölkə rəhbərliyinin iradəsi, istərsə də cəmiyyətin neqativ münasibəti ortada ikən beləlləri hələ də necə ağacları qanunsuz şəkildə, öz merkantil maraqları, biznes, ticarət məqsədilə kəsə bilirlər?

Müşahidələr deməyə əsas verir ki, bu cür şəxslərə, yaxud şirkətlərə həmin cəsarəti verən əksər hallarda yerli icra hakimiyyətləridir.Hansısa məmura arxalanan, özünü hansısa məmur sayəsində toxunulmaz hesab edənlər ekologiyanın, ətraf-mühitin qəsdinə dururlar. Fikirləşirlər ki, buna görə heç kim onlara “gözün üstə qaşın var” deməyəcək.

Ona görə də yalnız ağacları qanunsuz kəsənlərin, “yaşıllıq qatillərinin” cəzalandırılması ilə iş bitmiş sayılmamalıdır. Onlara bu işdə yardımçı olanlar, həmin şəxslərin, şirkətlərin qeyri-qanuni əməllərinə nəyinsə müqabilində göz yumanlar da hüquq çərçivəsində cəzalarını almalıdırlar. Yalnız belə olan təqdirdə biz təbiətə qarşı genosidin durdurulmasına nail ola bilərik.

***Toğrul Əliyev***



# Rəisin şərəf və ləyaqətini alçaltmaya görə cəzalar müəyyənləşdi

***Milli Məclisin bu gün keçirilən plenar iclasında İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə çıxarılıb.***

“Unikal” xəbər verir ki, dəyişikliklə Məcəlləyə yeni 41-ci fəsil əlavə edilir.

Yeni fəsilin 610-cu maddəsində (Rəisin, yaxud hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsin şərəf və ləyaqətini alçaltma) qeyd edilib ki, rəisin, yaxud hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsin hərbi xidmət üzrə öz vəzifəsini yerinə yetirməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar şərəf və ləyaqətini alçaltmaya görə 10 gündən 20 günədək müddətə inzibati həbs tətbiq olunacaq.

Sənədin yeni 611-ci maddəsində (Tabelikdə olan hərbi qulluqçunun şərəf və ləyaqətini alçaltma) isə bildirilib ki, hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar rəisin öz tabeliyində olan şəxsin şərəf və ləyaqətini alçaltmaya görə on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunacaq.

Bundan əlavə, sənədin yeni 612-ci maddəsində (Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma) bildirilib ki, tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma, yəni bir hərbi qulluqçunun digərinin şərəf və ləyaqətini alçaltması və ya ona zor tətbiq etməsinə görə 10 gündən 1 ayadək müddətə inzibati həbs tətbiq olunacaq.

Həmçinin, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və ya hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin kursantları arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozaraq zərərçəkmiş şəxsə qarşı zor tətbiq etməklə, yaxud hədə-qorxu tətbiq etməklə özgənin az miqdarda əmlakını və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etməyə görə bir aydan üç ayadək müddətə inzibati həbs tətbiq olunur.

Sənəd müzakirələrdən sonra I oxunuşda qəbul edilib.

# Dövlət dilinin normalarını pozanlar bu qədər cərimələnə bilər

***Dövlət dili normalarını pozanların cərimələnməsi təklif olunur.***

Unikal.org-un məlumatına görə, bu, Milli Məclisin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə 533-1 maddəsində əksini tapıb.

Layihəyə əsasən, kütləvi informasiya vasitələrində, internet informasiya resurslarında və reklam daşıyıcılarında dövlət dili normalarının pozulmasına görə fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə, hüquqi şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə ediləcək.

Layihə plenar iclasda səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

# Azərbaycan əhalisinin sayı açıqlandı

***Bu ilin əvvəlindən ölkə əhalisinin sayı 12 192 nəfər və ya 0,1 faiz artaraq 2020-ci il mart ayının 1-i vəziyyətinə 10 079 300 nəfərə çatıb.***

Dövlət Statistika Komitəsindən Unikal.org-a verilən məlumata görə, əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.



## “Dövlət hər zaman xalqın yanında olduğunu sübut elədi” - Ağalar Vəliyev

***”Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə koronavirus pandemiyasının yayılmasının qarşısının alınması, bu qorxunc xəstəliyin fəsadlarının aradan qaldırılması, xalqımızın sağlamlığının mühafizə olunması və əhalimizin sosial müdafiəsinin gücləndirilməsi istiqamətlərində dövlətimiz tərəfindən bütün zəruri tədbirlər görülür. Bütün cəmiyyətimizin bu tədbirlərə dəstək verməsi xalqımızın həmrəyliyinin və öz dövlətinə inamının ifadəsidir. Bütün dünyanı öz cənginə alan koronavirus pandemiyasına qarşı ən yaxşı mübarizə Azərbaycanda aparılır. Cənab Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilən bu tədbirlər dünya ölkələri üçün də nümunədir”.***

Bu firkiləri Unikal.org-a açıqlamasında Milli Məclisin deputatı Ağalar Vəliyev deyib.

Millət vəkili bildirib ki, məhz, cənab Prezidentin qərarı ilə koronavirus pandemiyasına qarşı önləyici tədbirlərin daha tez həyata keçirilməsi bu virusun ölkəmizdə geniş yayılmasının qarşını alıb:

“Diqqət edirsinizsə, istər virusa yoluxma, istər ölüm sayı ətrafdakı ölkələrlə müqayisədə Azərbaycanda çox aşağıdır. Bunun səbəbi odur ki, Azərbaycan Prezidentin daha çevik qərarlar verərək, önləyici tədbirləri reallaşdıraraq, buna nail olub. Müasir klinikanın, onun ardınca tibbi maska zavodu istifadəyə verilməsi də bu siyasətin nə qədər düşünülmüş və genişmiqyaslı olduğunu göstərir. Hər bir vətəndaş dövlətin diqqətindədir. Bunu

Prezidentimiz də hər çıxışında xüsusi vurğulayır. Hər birimiz də gündəlik həyatda bunun şahidi oluruq”.

Ağalar Vəliyev onu da qeyd edib ki, karantin dövründə vətəndaşların dövlətin qayğısına alınması da mühüm addımlardandır. Millət vəkili deyib ki, Prezidentin tapşırığı ilə sosial durumu ağır olan vətəndaşlara yardım edilməsi, eləcə də karantindən zərərçəkən sahibkarlara dəstək verilməsi təqdir olunmalıdır:

“Bütün bu addımlarla dövlət xalqın yanında olduğunu sübut elədi. Verilən qərarlar onu göstərir ki, heç kim dövlətin qayğı siyasətindən kənarda qalmayacaq. Artıq minlərlə işsiinsana yardım edilib.

Onlar müvafiq formada 190 manatlıq kompensasiyanı almağa başlayıblar. Bundan əlavə, yüz minlərlə insana yardımlar edlir. Bütün bunlar Azərbaycan dövlətinin vətəndaşının yanında olduğunu və ona lazım olan dəstəyi verdiyini göstərir. Bu gün bizim hər birimizdən yüksək vətəndaşlıq məsuliyyəti, birlik və həmrəylik nümayiş etdirməklə xüsusi karantin rejiminə və özünütəcrid qaydalarına ciddi şəkildə əməl etmək tələb olunur. İnanıram ki, bu sınaqdan dövlət və xalq olaraq, daha az itkilərlə çıxacağıq, çünki cənab Prezidentin təbirincə desək, “biz birlikdə güclüyük”.

***Murad İbrahimov***

# Cahangir Əsgərov bankını daha da dirçəldir

## "Premium Bank" nizamnamə kapitalını artırır

***Bir ençə gün öncə məlum oldu ki, ”Premium Bank” ASC nizamnamə kapitalını 49 999 950 manat və yaxud 47,8% artırmağı planlaşdırır.***

Kapital artımı üçün dövriyyəyə hər birinin nominal dəyəri 154 manat olan 324 675 ədəd yeni səhm buraxılacaq.

Səhmlər qapalı üsulla yerləşdiriləcək. Son nəticədə Bankın nizamnamə kapitalı 104.601.420 manatdan 154. 601. 370 manata yüksələcək.

Xatırladaq ki, “Premium Bank” 1993-cü ildə “AZAL Bank” adı ilə yaradılıb, 2008-ci ildə adını “Silk Vey Bank”a dəyişib, 2018-ci ildə isə yenidən rebrendinq edib və ”Premium Bank” adı ilə fəaliyyətini davam etdirib. Bankın qeyri-rəsmi sahibi ”Azərbaycan Hava Yolları” (AZAL) QSC-nin sədri Cahangir Əsgərov hesab olunur. Hazırda həmin bankın səhmlərinin 84,48%-i məhz Əsgərovun xanımı Zərifə Həmzəyevaya məxsusdur. Səhmlərin15,22%-i ”VIP Aviation Services” MMC-yə, 0,31%-i isə Elvira Əhmədovaya aiddir.



Xatırladaq ki, Azərbaycandakı 30 bank 2019-cu ilin 1-ci rübü üzrə maliyyə göstəricilərini açıqlamışdı. İlk rübü 30 bankdan 21-i xalis mənfəətlə, 9-u isə xalis zərər ilə başa vurub. Əksər bankda zərərin yaranmasının səbəbi ehtimal olunan depozit və kredit itkiləri üçün ehtiyatın ayrılmasıdır.Ən çox mənfəət əldə edən bank Azərbaycan Beynəlxalq Bankı idi; özəl banklar arasında isə “Kapital Bank”, ”PAŞA Bank”, ”Xalq Bank”,”Unibank”, ”Rabitəbank”, ”Nikoyl Bank” və ”Azərbaycan Sənaye Bankı” ilə yanaşı ”Premium Bank” da ən çox xalis mənfəət əldə etmiş banklar siyahısındaydı. Əsgərovun bankının ötən ili 3 milyon manatdan bir az çox xalis mənfəətlə başa vurduğu açıqlanmışdı.

Halbuki ondan öncəki ilin sonlarına doğru ”Premium Bank”ın işləri elə də qaydasında getmirdi. 2018-ci ilin ilk 9 ayında 28,18 mln. manat xalis mənfəətinə rəğmən, bu bank sonuncu rüb ərzində (oktyabr-dekabr) 12,11 milyon manatlıq zərər etmişdi. Əsgərovun ailə bankının nizamnamə kapitalını önəmli miqdarda artırması isə ölkənin ən iri banklarından sayılan ”Premium Bank”ın daha da böyüməsi istiqamətində atılmış əhəmiyyətli addım sayıla bilər. Xatırladaq ki, bankın əsas səhmdarı olan Z.Həmzəyeva buradakı payını ötən il 69,7%-dən 84,5%-ə yüksəltmişdi. “VIP Aviasiya Xidmətləri Şirkəti” MMC-nin payı isə 30%-dən 15,2%-dək azalmış, eyni zamanda Elvira İsmayıl qızı Əhmədova səhmdarlar sırasına daxil olmuşdu.

Həmin vaxt KİV qeyd edirdi ki, son iki ildə səhmdarlar daim olaraq dəyişib. “Silk Vey Aviaşirkəti” MMC 2015-ci ildə səhmlərini üç fiziki şəxsə satdıqdan sonra bankın səhmləri onların arasında müəyyən nisbətdə bölünübmüş. Ancaq 2016-cı ildə isə səhmdarlar, ən azı, iki dəfə dəyişib. Hazırda isə səhmdarların sayı yenə də üçdür, amma bu dəfə onların arasında bir şirkət də var.

O da bildirilir ki, hazırda Bankın nəzarət paketinin böyük hissəsinə sahib olan Z. Həmzəyeva eyni zamanda “Gazelli Group” MMC-nin prezidentidir. Bankın səhmdarlarından olan “VIP Aviation Services” (“VIP Aviasiya Xidmətləri”) MMC isə 2011-ci ildə yaradılıb. Rəsmi məlumatlara görə, şirkətin təsisçisi İlham Şükürovdur. Bu şirkət Bakıda və Azərbaycanın digər şəhərlərindəki beynəlxalq hava limanlarında fəaliyyət göstərir və aviasiya sektorunda inhisar subyektlərindən biridir. Heydər Əliyev Beynəlxalq Aeroportunun Terminal-1 və Biznes Aviasiya terminalında, eləcə də “Bakı” və “Azərbaycan” VİP zallarında saat və zərgərlik məmulatları təklif edən çoxsaylı satış məntəqələri var.

Səhmdarların arasına ötən il qoşulan E.Əhmədova haqqında isə mətbuatda ətraflı məlumat yoxdur.

***Elvin Rüstəmov***

# Mikayıl Cabbarov vergi güzəştlərini açıqladı

## Nazir: “Pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergi ödəyicilərinə vergi güzəştləri və vergi tətilləri təklif olunub”

***“Vergi Məcəlləsinə dəyişikliklər paketi hazırlanıb və bütün dövlət qurumları ilə razılaşdırılıb”.***

“Unikal” xəbər verir ki, bunu İqtisadiyyat naziri Mikayıl Cabbarov bu gün Prezidentlə keçirilən videokonfransda məruzəsində deyib.

O qeyd edib ki, pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergi ödəyicilərinə 1 yanvar 2021- ci ilədək olan dövr üzrə bir sıra vergi güzəştləri və vergi tətilləri təklif olunub:

“Burada əmlak və torpaq vergiləri üzrə tam məbləğdə vergi güzəştlərinin verilməsi, əldə olunan gəlirin 75 faizi miqdarında vergi güzəşti kimi. Fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyində tutulan vergi dərəcələrinin 14 faizdən 7 faizə endirilməsi, ictimai iaşə və ölkədaxili sərnişindaşıma fəaliyyəti üzrə sadələşdirilmiş vergi məbləğinə 50 faiz güzəştin verilməsi və. s tədbirlər nəzərdə tutulur”.




Nazir qeyd edib ki, mikrosahibkarlıq subyektlərinə 1 yanvar 2020-ci ildən 1 yanvar 2021-ci ilədək 50 faiz vergi güzəştinin edilməsi nəzərdə tutulur. Yəni 2 faiz dövriyyədən, 1 faiz dövriyyəyə endirilməsi, həmçinin vergilərin və cari vergi ödəmələrinin hesablanması və ödənilməsi üzrə vergi tətillərinin verilməsi də nəzərdə tutulur.

”3-cü istiqamətin bütün sahibkarlıq subyektlərinə şamil edilməsi proqnozlaşdırılır. 1 yanvar 2021- ci ilədək olan dövr üzrə aşağıdakı vergi güzəştlərini təqdim edirik: Epidemiyanın qarşısının alınması, əhalinin həyat və sağlamlığının qorunması məqsədiylə vergi ödəyiciləri tərəfindən həyata keçirilən zəruri profilaktik , o cümlədən dezinfeksiya tədbirlərinə görə çəkilmiş xərclərin məhdudiyyəti nəzərə alınmadan gəlirlərdən çıxarılması, həmçinin bir sıra əhalinin ərzaq və tibbi ehtiyacları üçün zəruri olan və siyahısı Cənab Prezident tərəfindən təsdiq olunan bəzi məhsul növlərinin idxalının müddətli olaraq Əlavə Dəyər Vergisindən azad edilməsi. Bunlar kifayət qədər geniş paketdir. Bu paketin yeni rejimdə fəaliyyət göstərməsi sahibkarlar tərəfindən nəzərə alınıb”.



# Pandemiya dövründə dövlət-vətəndaş birliyi

## Prezident İlham Əliyev sosial-iqtisadi məsələlərlə bağlı videokonfrans müşavirəsində mühüm tapşırıqlar verdi

***Aprelin 14-də Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib. Dövlət başçısı öz giriş nitqində Azərbaycan xalqı və ölkəmiz üçün müstəsna əhəmiyyət kəsb edən bir sıra məsələlərə toxunub.***

Bu barədə fikirlərini "Unikal" qəzeti ilə bölüşən Milli Məclisin deputatı Sahib Alıyev Prezident İlham Əliyevin keçirdiyi toplantıdan çıxardığı nəticələrin mühüm məqamlarına toxunb. O bildirib ki, bu müşavirə göstərdi ki, dövlətimiz koronavirus pandemiyasının həm sağlıq, həm də iqtisadi baxımdan vurduğu zərərləri minumuma endirmək üçün nə lazımdırsa, hamısını bütün incəliklərinədək ölçüb-biçərək etməyə çalışır, edəcək də. Onun qənaətincə, biz bu zaman ilk növbədə iqtisadiyyata zərər dəyməsinə yol verməməkmi, yoxsa insanların sağlamlığını qorumaqmı dilemmasıyla üzləşəndə cənab Prezidentin seçimi insanların sağlamlığı olub ki, karantin rejimi də bu üzdəndir:"Üstünlük insanların sağlamlığına verilib, ancaq makroiqtisadi və maliyyə sabitliyinin qorunub-saxlanması üçün də dövlət əlindən gələni edir. Düzdür, 2020-ci ildə iqtisadi artım proqnozlaşdırılan səviyyədə olmayacaq və bəlkə də heç olmayacaq, amma bunun mənfi təsirini insanlar öz dolanışıqlarında elə də çox hiss etməyəcəklər.Bundan əlavə, koronavirus pandemiyasının iqtisdaiyyata vurduğu zərbənin mənfi təsirini Azərbaycan vətəndaşı öz dolanışığında ona görə elə də çox hiss etməyəcək ki, 1) infilyasiyanın sürətli artımına yol verilməməsi üçün tədbirlər görülür, 2) manatın məzənnəsi dəyişməyəcək, bunu cənab Prezidentin özü vurğuladığından niyəsini açıqlamağa ehtiyac duymuram,3) sosial xərclərdə heç bir ixtisar olmayacaq, 4) bu il üçün nə qədər planlaşdırılmışdırsa, bir o qədər köçkünümüz( 7 min) və şəhidlərimizin ailələri(1500) yeni mənzillə təmin olunacaqlar".

Millət vəkili onu da nəzərə çatdırıb ki, pandemiyaya görə öz işini müvəqqəti itirən 600 mindən çox adama dəstək göstəriləcək, 50 mindən artıq ödənişli ictimai iş yerləri açılacaq, 17 min tələbənin təhsil haqqını dövlət ödəyəcək, sahibkarlara köməklik olunacaq, ünvanlı sosial yardım alanların sayı artırılaraq 70 minə çatdırılıb, mümkündür ki, yenə artırılsın. Onun sözlərinə görə, özünüməşğulluq proqramının genişlənməsində, mikrobiznes subyektlərinin artmasında effektli yeniliklər gözlənilir və sair:

"2020-ci il islahatların dərinləşdirililməsiylə tarixə düşəcək. İqtisadiyyatda bu özünü özəlləşdirmənin daha geniş şəkildə aparılmasında- liberallaşmada, kapitalın və mülklərin amnistiyasında, gizli iqtisadiyyata vurulan sarsıdcı zərbədə, idarəetmə və struktur təkmilləşdirilməsinin yeni sahələrə tətbiqində, investisiya proqramlarının, dövlət qurumlarının xərclərinin optimal, daha şəffaf və qənaətçil tərtibində göstərəcək. İslahatlar siyasətdə Milli(millimi?) Şura kimi dövlətə düşmənçilik yanaşması sərgiləyən və xarici güclərə bağlı qruplar istisna olmaqla müxalifət partiyalarıyla başladılan dialoqun genişləndirilməsi, onların ölkədəki proseslərə təsirlərinin əhəmiyyətli şəkildə artması, bütövlükdə demokratiyanın yeni mərhələsinə keçid və dövlət başçımızın təbirincə desək, yeni siyasi konfiqurasiyanın yaranmasıyla yadda qalacaq.

Dövlət həm iqtisadi, həm siyasi, həm də geosiyasi müstəvidə yeritdiyi müstəqillik siyasətindən bir addım da olsun geri çəkilməyəcək. Beynəlxalq Valyuta Fondundan borc almaq üçün sıraya düzülən 150 dövlətin arasında Azərbaycanın yoxluğu, Davos Forumu çərçivəsində aparılan danışıqlar, Münxen Təhlükəsizlik Konfransında sərgilənən mövqe ilə duruş, Türk Şurasının sonuncu Zirvə görüşündə nəzərə çarpan reallıqlar, bütün beynəlxalq qurumlar Dağlıq Qarabağdakı qanunsuz rejimin orada keçirilən qondarma seçkini tanımadıqlarını bildirməsi fonunda susmağa üstünlük verən Avropa Şurası Parlament Assambleyasını cənab İlham Əliyevin kəskin və kəskin olduğu qədər də haqlı tənqidi və sair faktlar da bir növ bunun təsdiqidir.

İqlim dəyişikliyi nəticəsində 10, 20 il sonra Azərbaycanda geniş şəkildə səhralaşma başlaya bilər ki, biz indidən bu reallığa hazır olmalıyıq.İlk növbədə sudan daha qənaətlə və effektli istifadəni bacarmalıyıq. Ona görə də cənab Prezident suvarmada innovasiyanın geniş tətbiqi və sızıntıları aradan qaldırmaq üçün su kanallarının yenindən qurulması tapşırığını verdi. Yeri gəlmişkən, Tərtər də su çatışmazlığından əziyyət çəkən rayonların sırasındadır və mən büdcə müzakirələrində də, hökumətin hesabatında da bundan ən önəmli çıxış yolu kimi məhz ölkə rəhbərinin tələb etdiyi məsələni göstərmişdim. Quraqlıq şəraitində subartezian quyularının çoxluğu yeraltı su balansını pozduğudan hökuməti təcili şəkildə suvarmada İsrail və digər qabaqcıl ölkələrin təcrübəsindən geniş şəkildə faydalanmağa çağırmışdım".

S.Aliyev sonda onu da qeyd edib ki, toplantıda iki reallıq da açıqlandı. "Onlardan biri bundan ibarətdir ki, Milli(millimi?) Şura deyilən qruplaşma və yanyörəsindəkilər bu çətin günlərdə də öz ampulalarındadırlar. Onlar cənab Prezidentin də bildirdiyi kimi "ölənlərin, xəstələrin sayının artmasını istəyirlər, buna sevinirlər" ki, dövlət başçımız düz deyir, onun da bir adı var-düşmənçilik. Amma xislətlərindən və bağlı olduqları çevrələrin tapşırığıyla bu cür hərəkət edənlərlə yanaşı bəzi hallarda özünün bir tikəsini ikiyə bölüb qohumuna, qonşusuna, çox vaxt isə heç tanımadığına verən minlərlə soydaşımız var ki, dövlət başçısı onların hamısına öz təşəkkürünü çatdırdı. Dayanışma, dövlət-vətəndaş birliyi, birgəliyi deyilən, məhz budur!" - deyə millət vəkili fikrini tamamlayıb.

Milli Məclisin digər deputatı Nizami Səfərov hesab edir ki, bunların hər biri ayrılıqda ciddi təhlil predmeti olacaq. Onun qənaətincə, dövlət başçısı məxsusi olaraq qeyd edib ki, Avropa Şurası və onun Parlament Assambleyası "20 il ərzində Azərbaycanı qaralamaq, Azərbaycana şər, böhtan atmaq, Azərbaycanı nüfuzdan salmaq üçün əlindən gələni əsirgəmir". Sözün əsl mənasında, bu təşkilatın Azərbaycanla bağlı fəaliyyətini ikili standartların və siyasi riyakarlığın bariz nümunəsi kimi qiymətləndirmək olar: "Nizamnaməsinin 1-ci maddəsində məqsədi kimi öz üzvləri arasında onların ümumi mirası olan iqtisadi və sosial tərəqqiyə imkanlar yaradan idealların və prinsiplərin qorunması, həyata keçirilməsi üçün daha çox birliyə nail olunmağı göstərən bu təşkilat, əslində, məqsəd və məramından çox uzaq düşüb. Beynəlxalq hüquq normalarına qarşı açıq-aşkar üsyan edən Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi təcavüzə, soyqırımı, insanlıq əleyhinə cinayətlər, hərbi cinayətlər nəticəsində dinc əhalinin vəhşicəsinə qətlə yetirilməsinə, bir milyondan çox insanın dədə-baba torpaqlarından didərgin düşməsinə Avropa Şurası tərəfindən münasibət bildirilməməsini, əslində, bu qurumun yuxarıda sadalanan zorakılıqları, qəddar və qeyri-insani rəftarı ehtiva edən dəhşətli faktlara haqq qazandırması kimi qiymətləndirmək lazımdır. Faktiki olaraq, Avropa Şurası və onun Parlament Assambleyasının Azərbaycana qarşı qərəzli mövqeyinin məntiqi davamı separatizmə açıq-aşkar dəstəkdən ibarət olub. Dünyanı bürüyən koronavirus pandemiyasına və bu şəraitdə hər bir dövlətin bütün resurslarının infeksiya ilə mübarizə üçün səfərbər etdiyi bir dövrdə, Ermənistanın və qondarma "Dağlıq Qarabağ Respublikasının" böhran içində boğulduqları zaman çirkin əməllərindən çəkinməyən separatçı rejim öz seçki oyunlarını davam etdirmək fikrinə düşüb".

Millət vəkili onu da qeyd edib ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğalının nəticələrini möhkəmləndirmək məqsədilə təşkil edilən belə sərsəm hərəkətlərin heç bir hüquqi nəticəsi ola bilməz və beynəlxalq birliyin bu məsələlərə münasibəti birmənalı olaraq mənfidir. Onun sözlərinə görə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağda qondarma "prezident seçkilərinin" keçirilməsini beynəlxalq ictimaiyyətin mütləq əksəriyyəti pisləsə də, Avropa Şurasının Parlament Assambleyası növbəti dəfə mövqesizlik nümayiş etdirərək, susmağa üstünlük verdi: "İnsan hüquqları və əsas azadlıqlarının qorunmasını siyasi təzyiq və siyasi alət vasitəsinə çevirən bu təşkilat bir daha beynəlxalq hüququn fundamental prinsiplərinə - dövlətlərin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsiplərinə əsl münasibətini göstərdi. Dünya miqyasında təhlükəsizliklə bağlı müstəsna rola malik olan Münhen Təhlükəsizlik Konfransında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi məqamların və təkzibolunmaz həqiqətlərin Azərbaycan Prezidenti tərəfindən geniş auditoriyaya çatdırılması, erməni təbliğatının darmadağın edilməsi anti-Azərbaycan qüvvələrini çox narahat edib və onlar beynəlxalq ictimai rəyin ölkəmizin xeyrinə dəyişməsini həzm edə bilməyiblər. Əlbəttə ki, Avropa Şurası Parlament Assambleyasında yuva quran ermənipərəst qüvvələrdən Azərbaycanın beynəlxalq hüquq normaları və prinsiplərinə, haqq-ədalətə əsaslanan mövqeyinə dürüst münasibət bəsləmələrini gözləmək sadəlövhlük olardı. Əslində, Avropa Şurası bir beynəlxalq təşkilat kimi öz nüfuzunu itirməkdə davam edir və növbəti dəfə məlum qüvvələrin əlində alət olduğunu bir daha sübut etdi. Lakin beynəlxalq birlik və bu birliyə daxil olan hər bir dövlət, hər bir beynəlxalq təşkilat bilməlidir ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının tək bir yolu Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazi bütövlüyünün bərpasıdır. Cənubi Qafqaz regionunda sülhün və əmin-amanlığın bərqərar olması isə bütün bölgədə beynəlxalq təhlükəsizliyin sabitliyini və davamlılığını şərtləndirən əsas faktor kimi dəyərləndirilməlidir".

***Z.Məmmədli***

# TRAMP-ÜST QARŞIDURMASININ PƏRDƏARXASI

## ABŞ prezidenti niyə hər şeyi Çinin üzərinə yıxır? - ARAŞDIRMA



***Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 1946-cı ildə qurulub. Şübhəsiz ki, qurulduğu tarixdən bu yana təşkilatın üzərində ABŞ-ın təsiri çox güclü olub. Bu səbəblə də qurulmasından qısa bir müddət sonra bəzi ölkələr üzvlükdən çıxdıqlarını elan ediblər. Keçmiş SSRİ 1955-ci ilə qədər ÜST tərəfindən keçirilən konfranslara qatılmaqdan imtina edirdi.***

Ancaq bu, "dəyişilməyən" bir vəziyyət deyildi. Kommunist küləyinin əsdiyi və milliyyətçilərin siyasi arenalarda önəmli rol sahibi olduğu zamanlarda, yəni, 1970-ci illərdə ÜST ABŞ-a rəğmən, müstəqil qərarlar qəbul etməyi bacarırdı.

**Bəs bunu hardan bilirik?**

"ÜST-ü ABŞ yaratdı, Rokfeller maliyyələşdirdi, onlar da nə dedisə, təşkilat hamısını yerinə yetirdi" kimi bir düşüncəyə qapılmaq doğru deyil. 1970-ci illərdə siyasi iqlimin dəyişməsi ÜST-ü də dəyişdirirdi. Eynilə 2020-ci ildə, yəni, bu zamanda dəyişdirdiyi kimi.

**ABŞ-Çin mübarizəsi**

Görünən mənzərə açıq-aşkar ortadadır - "ABŞ-ÜST" mübarizəsi, əslində, elə "ABŞ-Çin" mübarizəsidir.

ABŞ Prezidenti Donald Tramp da ÜST-ü Çinin tərəfini tutmaqda təqsirləndirir (08.04. 2020-ci il).

Hətta Tramp "ÜST Çini müdafiə etmək üçün yayılan pandemiya təhlükəsinin miqyasını kiçildir"-deyə, bəyanatlar verib (09.04.2020-ci il).

Digər tərəfdən, ABŞ Dövlət katibi Mayk Pompeo ÜST üçün qurulmuş yardım fondunu yenidən nəzərdən keçirəcəklərini açıqlayır (09.04.2020-ci il).

Sonda isə ABŞ ÜST üçün yaradılan fondun öz fəaliyyətini dayandırdığını elan edir (14.04.2020-ci il).

Koronavirusu "Çin virusu" adlandıraraq Çini hədəf alan Tramp məqsədinə çata bilmədi. Çünki G7 ölkələri Trampın pandemiyanı "Çin virusu" adlandırmasına qarşı çıxdılar və bu səbəblə də "ortaq açıqlama" mətninin yazılması alınmadı.

Tramp bundan sonra ikinci həmləyə əl atdı. O, Çini yayılmış pandemiya haqqında dünya ölkələrini gec məlumatlandırmaqda günahlandırdı. Hətta Pompeo bir çıxışında "səbəbkarların hesabat verəcəyi vaxt da gələcək" - deyə, açıqlama verdi (14.04.2020-ci il).

**Bəs Tramp həmin müddət ərzində nələr etdi?**

22 yanvarda "pandemiya deyil", 10 fevralda "aprel ayında bitəcək", 27 apreldə isə "möcüzə kimi bir anda bitəcək" deyərək, Tramp, əslində özü bu pandemiyanı küçümsəyirdi. Çünki öncədən bu haldan çox məmnun idi və düşünürdü ki, bu pandemiya güclü rəqibləri sayılan Çin iqtisadiyyatına ciddi zərər verəcək. O yerə qədər ki, ABŞ-ın Ticarət naziri Vilbur Ross hələ yanvarın 30-da "Çindəki COVİD-19 virusu ABŞ iqtisadiyyatını gücləndirəcək. Məşğulluq Şimali Amerikaya geri dönəcək", - deyə sevinirdi.

İndi yoluxma və ölüm statistikalarına görə ABŞ vətəndaşlarının Tramp hökumətindən narazılıqları get-gedə artıb. Bu narazılığı isə Tramp Çin və ÜST-ə yönləndirir, onları təqsirli gördüyünü bəyan edir.

**Yeni dünyanın işarətləri**

ÜST, Trampın iddia etdiyi kimi, həqiqətən, Çinin tərəfini saxlayırmı? Bilmirik.

Amma bildiyimiz budur - dünya onsuz da dəyişməyə başlamışdı və yeni bir dünya qurulurdu. İqtisadiyyatın mərkəzi yavaş-yavaş Asiya və Sakit okean regionuna keçirdi. ABŞ hegemonluğuna söykənən neo-liberal iqtisadiyyat 2008-ci il böhranına "dəqiq" çarə tapa bilmirdi. Qısası, ABŞ-ın təkqütblü dünyası artıq öz yerini çoxmərkəzli bir dünyaya verirdi.

Beləliklə, pandemiya yeni dünya işarətlərinin hədəfini sürətləndirmiş oldu. Trampın ÜST ilə mübarizəsi bunun önəmli nümunəsidir.

ABŞ-ın hegemonluğu sürətlə aşağı düşdükcə, həmin hegemoniyanın orbitindən də uzaqlaşır. ABŞ-ın silah gücünə qoruyub saxladığı "neft-dollar" sistemi də çökmə mərhələsini yaşayır.

Artıq bir çox dünya dövlətlərinin beynəlxalq ticarətləri milli pul vahidləri ilə etməsi və yaranan neft böhranı doğulmaqda olan "yeni dünya"nın işarətləridir.

# 3 TRİLYON AVRONU İDARƏ EDƏN NAZİRİ KİMLƏR ÖLDÜRDÜ?

## Vaşinqton Rotşildləri Almaniyadan çıxarmağa can atır

***Bu gün də koronavirusun iqtisadi təsirlərindən bəhs edək. Bütün yollar ölümlər vasitəsilə pula çıxır. Bütün hesablar maliyyə gücünü ələ keçirməyə və istifadə etməyə yönəlib. Bu atmosferdə bizim heç bilmədiyimiz inanılmaz dərəcədə önəmli işlər, o cümlədən sui-qəsdlər baş verməkdədir.***

İndi Avropaya uzanaq və mübarizəyə başqa bir pəncərədən baxaq. Koronavirusun yayılması ilə birlikdə, çox güclü zənginlərin, siyasətçilərin, icraçı direktorların artıq təhlükəsiz şəraitdə olmadığını bilirik. Bu, artıq sirr də deyil.

ABŞ-da çox zənginlərin siyahısında ilk 50 yerdə olan bir çox şəxsin harada olduğunu hələ bilən yoxdur. Qəribə olsa da, belədir. Bir yandan virusla hücum edilir, digər yandan görünməyən əllər əməliyyat keçirir.



Almaniyadakı durum da maraqlıdır. Mart ayının son günlərində Vizbaden yaxınlarındakı Frankfurt-Köln sürət qatarı xəttinin yaxınlığında Almaniyanın Hessen əyalətinin İqtisadiyyat naziri və maliyyə mərkəzi Frankfurtun yeganə söz sahibi olan Tomas Şeferin meyidi tapıldı. Cəsəddə işgəncə izləri vardı. Evli və 2 uşaq atası olan İqtisadiyyat naziri Tomas Şeferin ölümü ilə bağlı açıqlama verən Hessen əyalətinin Baş naziri Folker Buffe isə dərin üzüntü və böyük çaşqınlıq içində olduğunu söylədi. Buffer "Tomas Şeferin ani və gözlənilməz şəkildə ölümünə inana bilmirik. Ailəsilə birlikdə yas içindəyik" dedi. Kimsə onun öldüyünə, daha doğrusu, intihar etdiyinə inanmadı. İnanmır da...

Tomas Şeferi tanımadığınız üçün haqlı olaraq "O kimdir?" sualını verə bilərsiniz. Bu, doğru və yerində olan bir sualdır. Tanıyanların ölən Tomas Şefer haqqında qısa deyimi vardır: "O, Frankfurtdakı 3 trilyon avronu idarə edən şəxsdir".

Tomas, Rotşild ailəsinin Almaniyadakı 40 universitetindən biri olan Marburq Universitetinin məzunudur. Təbii, seçildi və ailə üçün işləməyə başladı. Almaniyada ailə nə qədər güclüdürsə, Tomas Şefer də o qədər güclü idi. Ancaq ortadan qaldırıldı. Həm də işgəncə verildikdən sonra cəsədi relslərin üzərinə atıldı.

Yaxşı, bəs bu ölümə səbəb olan nə idi? Şeferin ailəyə, Rotşildlərə yaxın olması idimi? Yox, deyildi. Çünki onlara yaxın olan minlərlə insan vardır. Səbəb bu ola bilməzdi. Ölümün səbəbi başqa idi.

Ölmədən bir neçə gün öncə Tomas Şefer "Alman iqtisadiyyatında verilən sözlər reallığı əks etdirmir. Bir çox önəmli şirkəti dövlətin əliylə batıracaqlar. Sonra milliləşdirmə adı ilə şirkətlərə əl qoyacaqlar. Bu qərarı da Berlində deyil, Vaşinqtonda aldılar" demişdi.

Baxın, məhz bu cümlə, bu çıxış gələcəyi öncədən xəbər verdiyi üçün Şeferi hədəf taxtasına qoydu. Merkelin yerinə namizəd olması gözlənilən, hər keçən gün siyasətdə güclənən Tomas Şefer bu sözlərilə MKİ-ni hərəkətə keçirdi. Bir neçə gün sonra faciəli şəkildə öldürüldü.

Bəziləri qatarın önünə atıldığını və intihar etdiyini söyləsə də, faktlar ortadadır. Bir intihar məktubunun olması haqqında ssenari də alman mediasında yer aldı.

Almaniyada belə bir hadisə baş verirsə, deməli, kimsə təhlükəsiz şəraitdə deyildir. Neçə vaxtdır yazdığım da budur. Pul sistemi dəyişəcəksə, bu, savaşlarla ola bilər. Əgər bildiyimiz savaş olmayacaqsa, çox önəmli şəxslər neytrallaşdırılacaqdır. Hazırda olan da budur.

Rotşild ailəsinin yalnız pulu idarə etdiyini düşünmək yanlış olar. Ailənin də həm silahlı, həm də kəşfiyyat gücü var. Ən kritik ölkə isə Almaniyadır. Çünki "dərin Amerika" bilir ki, Almaniyadan Rotşild ailəsini çıxarmağı bacararsa, İtaliya və Fransada bunu çox asan bacaracaqdır. Bu səbəblə, "dərin Amerika" ilk addımını güclü olduğu Almaniyada atdı.

Qarşıdakı günlərdə bir çox ölüm xəbəri eşidəcəyik. Bunlara intihar və ya qəza deyiləcək. Halbuki heç biri qəza olmayacaq. Önəmli döngələrdəki önəmli şəxslər neytrallaşdırılacaq. Bu, tarix kitablarında haqqında oxuduğumuz savaşlardan çox fərqli bir savaşdır. Amma böyük savaşın lap özüdür.

Tomas Şeferin ölümü, həqiqətən, Rotşild ailəsinə edilə biləcək ən önəmli xəbərdarlıq idi.

Medalyonun digər tərəfi də vardır. "The Economist" və "Der Spiegel" haqqında neçə dəfə yazdım. Yəqin, xatırlayırsınız. Təkrar etməyək. Bu nəşrlər iki böyük gücün döyüş mövqeləridir. Mesajlar çox vaxt buralardan verilir. Almaniya İqtisadiyyat naziri Piter Altmayer, Şefer ölməmişdən öncə "Der Spiegel" nəşrinə müsahibə verdi. Altmayer "Strateji əhəmiyyətli alman şirkətlərini milliləşdirəcəyik" dedi. Bunu kimə dedi? "Dərin Amerika"ya bağlı olan "Der Spiegel"-ə. Burada söylənən, amma gizlədilən bir mesaj vardı. Bu, çox önəmli idi. Nazir Piter Altmayer "Strateji əhəmiyyətli alman şirkətlərini milliləşdirəcəyik" deyərkən, əslində, Rotşild ailəsinə bağlı şirkətlərə əl qoyacaqlarını açıqlayırdı, elan edirdi.

Burada gedən savaşın dövlətlərlə ailələr arasında baş verdiyini bir daha anlayırıq. Ancaq bir almanı ən çox üzən şey Vaşinqtonda qəbul edilən savaş qərarının Berlində əmr kimi qəbul edilməsidir. Bu da Almaniyanın özünün biləcəyi bir işdir... Bu gün alman dövləti "dərin Amerika"nın nəzarətinə keçib. Bu, artıq adi gözlə görünən hala gəlib. Bunun gizlətməli tərəfi də qalmayıb. İndi ölümlərin başlaması çox böyük bir təhlükəyə işarət edir. Çünki artıq iki tərəf də kritik nöqtələrdəki kritik şəxsləri hədəf seçəcəkdir.

Rotşild ailəsinin yalnız pulu idarə etdiyini düşünmək yanlış Merkelin Xristian Demokrat Birlik Partiyası (CDU) ilə birlikdə hərəkət edən və Berlində təsirli söz sahibi olan Tomas Şeferin bir neçə həftə öncə Londonda önəmli görüşlər keçirdiyi, xüsusi təyyarə ilə gedib-gəldiyi və bu təyyarənin "RIT Capital"-a aid olduğu məlumdur. "RIT Capital" Frankfurt vasitəsilə alman iqtisadi sisteminin getdiyi yönü müəyyən edir. Bu, 10 ildən artıqdır ki, heç dəyişmir.

İndi Rotşild ailəsi necə bir qərar verəcək? Şirkətlərin zərər görməsi doğrudur. Ancaq Rotşild ailəsi maliyyə baxımından onların heç birini itirməyəcək qədər güclüdür. Almaniya İqtisadiyyat naziri Piter Altmayer yeni bir qanunun qəbul edilməsilə şirkətlərə əl qoymaq üçün çalışır. Bunun hazırlıqları tamamlandı. Almaniyanın ən böyük 100 şirkətindən 45-i seçildi. Hədəfdəki bu şirkətlər alman iqtisadiyyatına da yön verən şirkətlərdir. Bu səbəblə, öncəlikli olaraq onlar seçildilər.

Almaniyada hadisələrin inkişafı Vaşinqtonun aynası olacaqdır. Gedən savaşı yaxşı anlamaq üçün Berlin-Vaşinqton xəttində baş verən hadisələri diqqətlə izləməyimiz bizə çox önəmli ipucları verəcəkdir.

Təbii, bu arada, BVF-ni də yaxından izləməyi əsla və qəti olaraq unutmayın. Savaşı pul bitirəcək. Doğrusu, savaş elə onun üçündür(Tərcümə Strateq.az-ından).

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# KİVDF

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun dəstəyilə "Qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli ilə bağlı həyata keçirilən tədbirlərin işıqlandırılması" istiqaməti üzrə layihə çərçivəsində hazırlanır.***

# İşsizlərə verilən birdəfəlik ödəmələr yüksək sosial dəstəkdir!

## Yasəmən Zeynalova: "190 manat bu çətin vaxt bizim üçün böyük köməkdir"

***"Mənə iki gün öncə mesaj gəldi. Gedib 190 manatımı aldım. Mən dörd ay əvvəldən ərazi üzrə məşğulluq mərkəzinə müraciət etmişdim. Ona görə də, işsiz kimi qeydiyyatda idim".***

Bu sözləri Xəzər rayon Mərdəkan qəsəbə sakini Pərviz Həsənli söyləyir. 31 yaşlı Pərviz bir uşaq atasıdır. Bu gün o da dövlətin pandemiya dövründə işsizlərə ayırdığı müavinətdən faydalana bilib.

Qeyd edək ki, aprelin 9-dan etibarən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən işsiz kimi qeydiyyata alınan şəxslərə birdəfəlik ödənişin aidiyyəti üzrə köçürülməsi təmin edilir. Artıq Nazirlik bununla bağlı rəsmi statistikaları da açıqlayır. İşsiz kimi qeydiyyata alınan şəxslərdən daha 20 min şəxsin birdəfəlik ödəmə ilə təmin olunması üçün vəsait bank filiallarına və poçt şöbələrinə köçürülüb. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov məlumat verib. O bildirib ki, ödəmələrin verilməsi gündəlik davam edir. Nazirlik artıq 75 min işsiz üçün birdəfəlik vəsait ödənişini həyata keçirib.

Amma adı 190 manat alan işsizlər siyahısında olan təkcə Pərviz deyil. Onlardan biri də Təranə Heydərovadır. Əmircan qəsəbə sakini T. Heydərova iki uşaq anasıdır. T. Heydərova deyir ki, özünün himayəsində azyaşlı uşaqları olduğundan işləmir. Həyat yoldaşı isə bənnadır: "Mən ünvanlı sosial yardımı almaq üçün dörd ay öncə müraciət etmişdim. Mənə bildirdilər ki, az maaşı olsa belə rəsmi iş yeri olmalıdır. Ona görə də həmin vaxt mən iş üçün rayon Məşğulluq Mərkəzində işsiz kimi qeydiyyata düşdüm. Pandemiya dövründə karantin şəraiti olduğundan yoldaşım da işləmədi. Ailəmizdə iki azyaşlı uşaq var. Onları ac qoya bilmərik axı. Yenə sağ olsunlar ki, birdəfəlik yardım üçün şərait yaradıldı. Mən də müraciət etdim. Mesaj gəldi ki, yardım ayrılıb. Əlbəttə ki,çox sevindik. İndiki məqamda 190 manat da əlimizdən tutdu".

Digər həmsöhbətimiz isə Yasəmən Zeynalovadır.

O, Binəqədi rayonunun Binəqədi qəsəbəsində üç övladı ilə birgə yaşayır. Yasəmən




Zeynalova deyir ki, 5 nəfər ailə üzvünün pandemiya dövründə yaşaması çox çətindir: "Həyat yoldaşım fəhlə işləyirdi. 3 oğlum var. Birinin 15, digərinin 13, balacasının isə 5 yaşı var. Evimiz isə yoxdur. İndi bizim vəziyyətimizi siz təsəvvür edin. Karantin dövründə işləyən yox, evə gəlir gətirən yox. Üç uşaq isə karantinin nə olduğunu anlamır. Mən başa sala bilmirəm ki, atanız işləmir, evə gəlir gətirən yoxdur. Sağ olsun dövlətimiz ki, bu pulu ayırdı. 190 manat ailəmizin birtəhər dolanması üçün karantin dövründə əlimizdən tutdu. Karantin dövründə bu 190 manat bizim üçün böyük köməkdir".

Digər birdəfəlik yardım alan şəxs isə Qaradağ rayonu Ələt qəsəbə sakini Elşad Sadıqovdur. 23 yaşlı bu gənc karantindən əvvəl qəsəbə ərazisindəki kafelərdən birində aşpaz işləyib. O deyir ki, xüsusi karantin elan olunduqdan sonra işini itirib: "Kafelər bağlanandan sonra mən də işsiz qaldım. İşsizlərə yardım ediləcəyini eşidəndə mən də müraciət etdim. Mesaj gəldi ki, yardım ayrılıb mənə. Düzdür, 190 manat bütün ehtiyaclarımı qarşılamır. Amma bu çətin vatxda dövlətin dəstəyidir. Sağ olsunlar ki, ən azından bu dəstəyi göstərdilər. Ümid edirik ki, karantin bitənədək biz bu yardımı alacağıq".

Qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemində əhalinin sosial təminatının daha da gücləndirilməsi istiqamətində kifayət qədər əhəmiyyətli islahatlar həyata keçirilir. Bu islahatlar vətəndaşların sosial ehtiyaclarının daha da yaxşı ödənilməsi, onlara göstərilən qayğının daha şəffaf və daha səmərəli şəkildə həyata keçirilməsi prosesini təkmilləşdirmək, qarşıya çıxan neqativ halların sayını minimuma endirməyə çalışmaq məqsədi güdür.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın rəhbəri, Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti Umud Mirzəyev deyir ki, bu gün hökumətin epidemiya dövründə vətəndaşların sosial rifahını düşünərək həyata keçirdiyi tədbirləri bəziləri tamamilə yanlış anlayır: "Əvvəla, dövlət vətəndaşlara sadəcə, 190 manatlıq vəsait ayırmayıb. Nazirin də qeyd etdiyi kimi, 190 manatlıq yardım sadəcə, işsiz vətəndaşları əhatə edir və ümumilikdə, 70 milyon manat bu şəxslərə yardım üçün ayrılıb. Bütövlükdə ayrılan vəsait isə 395 milyon manatdır. Yəni yardımlar sadəcə, 190 manatla və işsizlərlə yekunlaşmır, digər sosial qruplar üçün də müvafiq yardımlar həyata keçirilir".

U. Mirzəyev deyir ki, iki ay ödənilməsi nəzərdə tutulan 190 manatlıq məbləğin heç bir rəsmi iş yeri, aylıq gəliri olmayan vətəndaşlara şamil edilməsi nəzərdə tutulur. Hökumət bu yardımı sadəcə, o vətəndaşlara ünvanlamaq istəyir ki, həmin şəxslərin özünün və ailəsinin heç bir gəlir mənbəyi olmasın. Pandemiya şəraitində iqtisadiyyatımızda yaşana biləcək durğunluq belə ailələrə böyük zərər vura bilər. Pandemiyadan öncə heç bir rəsmi iş yeri olmayan şəxslər bəzən günəmuzd, bəzən də qeyri-rəsmi, müqaviləsiz üsulla müxtəlif yerlərdə çalışır, özlərini, ailələrini dolandırırdılar. Hökumət nəzərə alır ki, bu gün xüsusi karantin şəraitində bir çox iş yerləri bağlanıb. Bu durumda özü və ailəsi dövlətdən maaş almayan şəxslərin minimum ehtiyaclarını ödəmək üçün dövlət 190 manatlıq yardım paketi ayırır. Burada məqsəd ünvanlılıq prinsipini qorumaq və sadəcə, o pula həddsiz ehtiyacı olan şəxslərə yardım edə bilməkdir. Bundan başqa, bu qərardan digər kateqoriyadan olan insanlar, eləcə də muzdla işləyənlər, kiçik və orta sahibkarlıqla məşğul olan vətəndaşlarımız da faydalanacaqlar. Bu cür humanist qərarın dərindən təhlil edilmədən sərt tənqid hədəfinə götürülməsini qətiyyən doğru saymıram. Sosial şəbəkələrdə bir qrup insanlar var ki, qəbul edilən qərarların mahiyyətinə varmadan, ciddi təhlil aparmadan vətəndaşlarımızı çaşdıran bəyanatlar verir, açıqlamalar yayırlar. Fərqinə varmırlar ki, biz hamımız bu fəlakət dəryasında bir gəmidəyik. Bu dövlət də, bu insanlar da bizimkidir. İnsanların savadlısı, savadsızı var, anlayanı, anlamayanı var. Necə deyərlər, qanan qanmayana borcludur. Bəzən görürsən məsuliyyətsiz insanlar dövlətin bütün resurslarının guya ortaya qoyulması, pay-puş edilməsi çağırışları səsləndirirlər. Əzizlərim, heç kim bilmir ki, bu pandemiya dövrü nə qədər davam edəcək. Biz həm resurslarımızı, həm də qəbul edilən qərarlarımızı, hərəkətlərimizi çox diqqətlə ölçüb biçməliyik. Ölkə rəhbərinin, hökumətimizin, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qəbul etdiyi qərarların hamısı məhz vətəndaşlarımızın rifahının yaxşılaşdırılmasına hesablanıb".

Qeyd edək ki, qanuna əsasən, işsiz şəxs - işi və qazancı olmayan, işsiz kimi qeydiyyata alınan, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli şəxsdir: "Muzdla (əmək müqaviləsi ilə) işləyənlər, mülki-hüquqi xarakterli (xidməti) müqavilələrlə işləyənlər, sahibkarlar, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olanlar, ailə kəndli təsərrüfatının üzvləri, əyani təhsil alan tələbələr və b. məşğul şəxs sayıldığından işsiz şəxs kimi qeydiyyata alına bilməzlər. Ona görə də bu kateqoriyadan olan vətəndaşlar işsiz şəxs kimi qeydiyyata alınmaq üçün müraciət etməməlidirlər. İşsiz kimi qeydiyyata alınan şəxslərdən isə hazırda dövlətdən sosial ödəniş (ünvanlı sosial yardım, pensiya, təqaüd, müavinət və s.) alanlara birdəfəlik ödəmə verilməyəcək. Bu da ödəmənin məhz bu yardıma ehtiyacı olanlara ünvanlanması, pandemiya dövründə real olaraq zərərçəkən şəxslərə münasibətdə ədalətli yanaşmanı təmin etmək məqsədi daşıyır. Birdəfəlik ödəmə məşğulluq mərkəzlərində qeydiyyatda olan işsizlərlə yanaşı, xüsusi karantin rejiminin tətbiq edildiyi müddət ərzində müraciət edərək, bu statusu alacaq şəxslərə də şamil olunacaq. Müraciət üçün www.e-sosial.az portalından istifadə etmək, "e-xidmətlər" bölməsinə daxil olmaq lazımdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı



## Böyük əməliyyat: İrandan 10 milyon manatlıq narkotik gətirənlər tutuldu

***Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən növbəti uğurlu əməliyyat tədbiri nəticəsində qaçaqmalçılıq yolu ilə külli miqdarda yüksək təsiredici xassəyə malik narkotik vasitələrin və psixotrop maddələrin ölkə ərazisinə gətirilməsinin qarşısı alınıb.***

Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib. Baş İdarə əməkdaşları əldə etdikləri məlumat əsasında İmişli rayonu Bəhrəmtəpə-Biləsuvar magistral yolunda həyata keçirdikləri əməliyyat zamanı Şəmkir rayon sakini, əvvəllər məhkum olunmuş Enibar İsmayılov və İran İslan Respublikasının vətəndaşı Əli Şəhriyari saxlanılıblar.

Baxış zamanı onların üzərlərində olan bağlamalardan 94 kiloqram 673 qram narkotik vasitə heroin, 646,401 qram tiryək. 950 qram həşiş qətranı, 10 kiloqram 100 qram qurudulmuş marixuana, 7 kiloqram 153 qram psixotrop maddə olan metamfetamin aşkar olunaraq götürülüb. Tədbir zamanı İran vətəndaşından həmçinin 1 ədəd üzərində "Sur-2608" sözləri yazılmış tapança, həmin silaha aid sandıqça, 10 ədəd patron, eləcə də 1 ədəd uzaqgörmə cihazı aşkar olunaraq götürülüb. Əməliyyat zamanı ümumilikdə 113 kiloqram 523 qram çəkidə narkotik vasitə və psixotrop maddə qanunsuz dövriyyədən çıxarılıb.

## Karantini pozan Milli Məclisin sabiq əməkdaşı həbsdədir

***Daxili İşlər Nazirliyinin İnzibati Həbs Olunanların Saxlama Məntəqəsində cəza çəkən 50-ə yaxın şəxslə Bakı Şəhər Baş Polis İdarəsinin (BDYPİ) Dövlət Yol Polisi (DYP) İdarəsinin şöbə rəisi, polis polkovniki Vaqif Əsədov görüş keçirib.***

Görüş zamanı bildirilib ki, sürücülərə 15 gündən 1 aya qədər inzibati cəza verilib.

Qeyd edilib ki, saxlanılan şəxslər arasında polis postlarını dağıdan, eləcə də polis əməkdaşlarının üzərinə maşın sürən, onlara fiziki xəsarət yetirən şəxslər də var.

Onlardan biri Milli Məclis Aparat rəhbəri xidmətinin sabiq məsləhətçisi Rəmzi Şükürovdur.

R.Şükürov əməlindən peşman olduğunu deyib: "Rayonda xəstəmiz var idi və onu ziyarət etməyə gedirdim. Polis postunu görmədim. Daha sonra görəndə isə saxlamaq imkanım olmadı. Bu cür vəziyyət oldu. Digər vətəndaşlara da müraciət edirəm ki, polisin göstərişlərinə əməl etsinlər".

Qeyd edək ki, R.Şükürov idarə etdiyi 90 AS 606 dövlət nömrə nişanlı "Mercedes" markalı avtomobillə Qaradağ rayonu ərazisində polislərin qanuni əmrlərinə tabe olmayaraq yol qurğularını qırıb və maşınla ərazidən qaçıb. Qaradağ Rayon Məhkəməsinin qərarı ilə o, sürücülük hüququnun 2 il məhdudlaşdırılmaqla 30 gün müddətində inzibati qaydada həbs edilib. Hadisədən sonra R.Şükürov Milli Məclis Aparat rəhbəri xidmətinin məsləhətçisi vəzifəsindən azad olunub.

Xatırladaq ki, R.Şükürovun atası Əvəz Şükürov da "tikinti kralı" kimi tanınır. Onlar barəsində mətbuatda dəfələrlə qalmaqallı məqalələr dərc olunub./Report/

# Atasından qisas alan oğulun dəhşətli əməli: Evi yandırdı, qardaşı arvadı...

***Bakıda qardaşı arvadını xüsusi amansızlıqla öldürməkdə təqsirli bilinən 1984-cü il təvəllüdlü İlkin Əsgərovun cinayət işinə baxılıb.***



İlkin Əsgərov atası Nizami Əsgərova məxsus Sabunçu rayonunda Zabrat qəsəbəsində İstixana kombinatı ərazisində yerləşən nömrəsiz fərdi yaşayış evinin həyətindəki istixananın dəmir konstruksiyalarını satmaq üçün sonuncunun ona verdiyi razılıqdan üz döndərməsi səbəbindən, Nizami Əsgərovdan qisas almaq qərarına gəlib.

Bu məqsədlə o, dəyəri 45000 manat olan və içərisində 1530 manatlıq əşya olan fərdi yaşayış evini, ümumilikdə isə 46530 manat dəyərində əmlakı yandırmaq niyyətinə düşüb. İ26 oktyabr 2017-ci ildə, saat 15 radələrində Zabrat dairəsində yanacaqdoldurma məntəqəsindən iki ədəd, hər biri iki litr olan plastmas qabda benzin alıb.

Daha sonra atasının yaşadığı evə gəlib, benzini evin ətrafına tökməyə başlayıb. Həmin evin sakini, həm də onun qardaşı arvadı olan Xatirə Əsgərova cinayətkar əməlin qarşısını almaq istəyib, qaynının əlindən qabı almağa çalışıb.

İlkin Əsgərov əlindəki butulkadakı benzinin özünün, eləcə də Xatirə Əsgərovanın üzərinə tökülmüş olduğunu görüb.

Ev alovlanacağı təqdirdə Xatirə Əsgərovanın diri-diri yanacağını, həmçinin ev sakinləri Nizami Əsgərov, Arzu Əsgərova və qonşu Bəhruz Əhmədovun da təhlükəyə düşəcəyini bildiyi halda, hadisənin baş verməsinə şüurlu surətdə imkan yaradıb.

İlkin Əsgərov alışqanı çıxararaq oranı yandırıb. Yanğın nəticəsində Xatirə Əsgərova bədəninin 75-80 faizini əhatə edən yanıq xəsarəti alıb. O, hadisədən dərhal sonra təcili tibbi yardım xidməti vasitəsilə xəstəxanaya çatdırılıb, almış olduğu xəsarətlərdən noyabrın 3-də vəfat edib.

İstintaq orqanı tərəfindən İlkin Əsgərovun barəsində Cinayət Məcəlləsinin 120.2.3-cü (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) və 29, 186.2.2-ci (əmlakı qəsdən məhv etmə və ya zədələmə, yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan olunub.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə İlkin Əsgərov 17 il müddətinə azadlıqdan məhrum edilib. Onun cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməsi müəyyən olunub.

Hökmdən narazı qalan İlkin Əsgərov apelyasiya şikayəti verib. O, barəsində olan cəzanın yüngülləşdirilməsini xahiş edib. O, ittiham olunduğu Cinayət Məcəlləsinin 29, 186.2.2-ci maddələri ilə cinayət işinə xitam verilməsini, ittiham olunduğu Cinayət Məcəlləsinin 120.2.3 və 120.2.4-cü maddələrinin isə həmin məcəllənin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) maddəsinə tövsif edilməsinə dair qərar qəbul olunması istəyib.

Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə İlkin Əsgərovun apelyasiya şikayəti təmin olunmayıb.

Bu qərardan narazı qalan İlkin Əsgərov kasasiya şikayəti verib. Onun barəsində olan iş araşdırılması üçün Ali Məhkəməyə göndərilib.

Hakim Tahir Kazımovun sədrlik etdiyi kollegiyada kasasiya şikayəti üzrə araşdırma başlanıb. Araşdırma aparılan zaman İlkin Əsgərov saxlanıldığı Penitensiar Xidmətinin 11 saylı Cəzaçəkmə Müəssisəsindən hakimə ərizə göndərib.

O, ərizəsində kasasiya şikayətini geri götürdüyünü, ərizəsinin qəbul edilməsini xahiş edib. Hakim heyəti onun ərizəsini qəbul edib və şikayəti baxılmamış saxlayıb.

Zərərçəkmiş şəxsin hüquqi varisi, həmçinin təqsirləndirilən şəxsin qardaşı tərəfindən də məhkəməyə kasasiya şikayəti daxil olub. O, təqsirləndirilən şəxsin cəzasının ağırlaşdırılmasını istəyib. Hakim heyəti zərərçəkmiş tərəfin şikayətini isə təmin etməyib.

Ali Məhkəmədə Teleqraf.com-a bildiriblər ki, bir müddət əvvəl İlkin Əsgərov şikayətini geri götürsə də, yenidən onun barəsində olan cinayət işində məhkəməyə şikayət daxil olub.

Şikayətdə İlkin Əsgərovun cəzasının yüngülləşdirilməsi xahiş olunur. İlkin Əsgərovun şikayəti araşdırılması üçün hakim İnqilab Nəsirovun icraatına verilib.

Yaxın günlərdə kasasiya şikayətinin araşdırması başlanacaq.

# Bakıda polis maşınının üstündə pivə içən şəxs saxlanıldı

***Bakı Şəhər Baş Polis İdarəsinin (BDYPİ) Dövlət Yol Polisi (DYP) İdarəsi sosial şəbəkələrdə müxtəlif yerlərdə yol polisinə məxsus xidməti avtomobillərin arxa kapotunun üstündə oturaraq pivə içən şəxslə bağlı yayılan məlumatlara münasibət bildirib.***



Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədovun verdiyi məlumata görə, Nərimanov Rayon Polis İdarəsinin (RPİ) Dövlət Yol Polisi Şöbəsinin (DYPŞ) əməkdaşları tərəfindən operativ şəkildə həyata keçirilən təxirəsalınmaz tədbirlər sayəsində həmin şəxs müəyyən olunaraq saxlanılaraq Nərimanov RPİ-nin 18-ci Polis Bölməsinə (PB) gətirilib.

V.Əsədov əlavə edib ki, araşdırmalar nəticəsində məlum olub ki, həmin şəxs Bakı şəhər sakini, 1999-cu il təvəllüdlü Nicat Mustafayevdir.

Onun sözlərinə görə, N.Mustafayev barəsində toplanılan materiallar İnzibati Xətalar Məcəlləsinin 510-cu maddəsi ilə (Xırda xuliqanlıq, yəni ictimai qaydanı pozan, lakin fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət edilməyən hərəkətlərə görə əlli manatdan yüz manatadək məbləğdə cərimə edilir, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda, on beş günədək müddətə inzibati həbs tətbiq olunur) məhkəməyə göndəriləcək.

V.Əsədov qeyd edib ki, N.Mustafayev barəsində qanunvericiliyə uyğun olaraq təsirli tədbirlər görüləcək.

# Dövlət Neft Fondunda hazırkı durum – İNFOQRAFİKA, RƏQƏMLƏR

***Dövlət Neft Fondunun (ARDNF) 2020-ci ilin 1-ci rübündə investisiya fəaliyyətinin nəticələri məlum olub.***

Fonddan verilən məlumata görə, qurumun vəsaitlərinin həcmi, 2020-ci ilin 1-ci rübündə onların dinamikası və idarə edilməsi ilə bağlı son rəqəmlər açıqlanıb.

Rəqəmlərə əsasən NF ilə 41,35 milyard dollarla başlayıb. Yanvarda fondun ehtiyatları bir qədər də artaraq 44 milyardı keçib, sonra enmə başlayıb. Fevralın sonunda vəsaitlər 43,9 milyard dollara, martın sonunda isə 41,3 milyard dollara düşüb. Bahqa sözlə, ilin əvvəlindən indiyədək fondun vəsaitləri 1 973,8 milyon manat azalıb.

Hazırda fondun vəsaitləri 10-a yaxın valyutada saxlanılır. Əsas hissə ABŞ dolları və avrodadır, neft pullarının bir hissəsi hətta Koreya valyutasında saxlanılır. İlin əvvəlindən bəri dollarda saxlanan vəsaitlər 9,4%




artıb, avrodan isə 8,5% azalıb. Rus rublu və Britaniya funtunda saxlanılan vəsaitlər də hərəyə 0,3% azalıb.

Fondda 10 milyon manatdan bir qədər artıq yerli valyuta da var.

Vəsaitlərin əsas hissəsi istiqrazlarda, qadan hissə isə hərəyə 12% olmaqla daşınmaz əmlak və qızılda, eləcə də səhmlərdə saxlanılır.

Koronavirusdan ən çox zərər çəkən hissə səhmlər və daşınmaz əmlak olub. Ötən ilin sonunda fondun vəsaitinin 6,1 milyard dolları səhmlərdə idi. İndi isə səhmlərdəki vəsait 5,1 milyard dollara enib. Pulların 81%-nin saxlanıldığı istiqraz və qızıl hissəsi daha "möhkəm"dir.

Fondun istiqrazlara yatırdığı vəsaitlərin 58%-i ən etibarlı sayılın AAA reytinqli, 12% AA reytinqli, 19,2% isə A reytinqli kağızlardadır. Amma Fondun Beynəlxalq Bank, SOCAR və Cənub Qaz Dəhlizi layihəsinə yatırdığı pullar bura aid deyil.

İstiqrazların 38%-ə qədər şissəsi 1 ilədək müddətə malikdir. 13%-ə qədər hissə 5 ildən artıq müddətə yerləşdirilib.

Fondun vəsaitlərinin coğrafi bölgüsündə hərəyə 33%-lə Asiya və Avropa liderdir. Pulların 27,2%-i ABŞ-ın, 1% Avstraliyanın payına düşür. İlin əvvəlindən ABŞ-a yatırılan vəsaitlər 3% artıb, Avstraliyanın payı 1% azalıb.

# Koronavirusa görə zərər dəyən sahibkarlara nə qədər pul verilir?

***Pandemiya nəticəsində zərərə məruz qalmış 34 min 630 sahibkara 46 mln. 915 min manat maliyyə dəstəyi göstərilib.***

"Unikal"a Maliyyə Nazirliyindən verilən məlumata görə, Nazirlər Kabinetinin təsdiq etdiyi, "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli sərəncamının icrası ilə bağlı Tədbirlər Planına uyğun olaraq pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərə və fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi üçün dövlət büdcəsindən bu günkü tarixə 5 tranş çərçivəsində ümumilikdə 46 mln. 915 min manat ayrılaraq maliyyələşməsi həyata keçirilib.

Sahibkarların müraciəti ilə İqtisadiyyat Nazirliyi tərəfindən formalaşdırılaraq təqdim olunmuş sifarişlər əsasında Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əmək haqqının ödənilməsi üçün 11 min 607 vergi ödəyicisinə 28 mln. 210 min manat, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən 23 min 23 fərdi (mikro) sahibkara 18 mln. 705 min manat olmaqla, ümumilikdə 34 min 630 vergi ödəyicisinə 46 mln. 915 min manat vəsaiti onların müvafiq bank hesablarına köçürüb.

Qeyd edək ki, Tədbirlər Planında pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərə və fərdi (mikro) sahibkarlara Azərbaycan Re-



spublikası Prezidentinin sərəncamı ilə ayrılan vəsait hesabına ümumilikdə 295 milyon manat maliyyə dəstəyinin ödənilməsi tapşırılıb və İqtisadiyyat Nazirliyinin sifarişləri əsasında Xəzinədarlıq orqanları tərəfindən maliyyələşmə gündəlik əsasda davam etdirilir.

**Sahibkarların sayı açıqlandı**

Bu ilin aprelin 1-i vəziyyətinə Azərbaycanda hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçən fərdi sahibkarların sayı 927,8 mini keçib. "Unikal"ın Dövlət Statistika Komitəsinə istinadən verdiyi məlumata görə, hesabat dövründə hər səkkiz fərdi sahibkardan altısı "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Digər sahələrdə xidmətlərin göstərilməsi" və "Nəqliyyat və anbar təsərrüfatı" sahələri üzrə qeydiyyatdan keçib.

Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (30,5%), Aran (20,2%), Gəncə-Qazax (13,4%) və Lənkəran (9,7%) iqtisadi rayonlarında qeydiyyata alınıb.

Fərdi sahibkarların 78,3%-ni kişilər, 21,7%-ni isə qadınlar təşkil edib. Qadınlar "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 26%-ni, "Digər sahələrdə xidmətlərin göstərilməsi" fəaliyyət sahəsində 29,5%-ni, "Ticarət; nəqliyyat vasitələrinin təmiri" fəaliyyət sahəsində isə 20,8%-ni təşkil edir.

Sahibkar qadınların 33,1%-i Bakıda, 17%-i Aran, 15,7%-i Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçib. Fərdi sahibkarların cins tərkibinin regionlar üzrə say bölgüsündən aydın olur ki, Bakıda (23,5%), Gəncə-Qazax (25,4%) və Lənkəran (22,3%) iqtisadi rayonlarında, Naxçıvan Muxtar Respublikasında (21,7%) qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır.




# Şərtlərə əməl etməyən şirkətdən maliyyə dəstəyi geri alınacaq

***İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, aprelin 16-na muzdlu işçilərin əmək haqqının müəyyən hissəsinin ödənilməsi üçün koronavirus (COVİD-19) pandemiyasından zərər çəkmiş 15.511 vergi ödəyicisi və maliyyə dəstəyi almaq üçün 31.180 fərdi (mikro) sahibkar, cəmi 46.691 vergi ödəyicisi müraciət edib.***

Eləcə də bax: Koronavirusa görə zərər çəkən muzdlu işçilər ödəmələr üçün belə müraciət etməlidirlər.

FED.az xəbər verir ki, muzdlu işçilərin əmək haqqının müəyyən hissəsinin ödənilməsi layihəsi çərçivəsində müraciət etmiş 15.511 vergi ödəyicisində çalışan muzdlu işçilərin sayı 169.069 nəfərdir.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən bu müraciətlərdən 134.472 işçini əhatə edən 13.075 vergi ödəyicisinin müraciətləri araşdırılaraq təsdiqlənib və ayrılacaq maliyyə vəsaitinin vergi ödəyicilərinin bank hesablarına köçürülməsi üçün Maliyyə Nazirliyinə təqdim edilib. Digər vergi ödəyiciləri üzrə araşdırmalar davam edir.

İndiyədək təsdiq edilmiş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 61,2 mln. manat təşkil edir.

Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən 11.567 vergi ödəyicisinə 123.343 nəfər muzdlu işçinin əmək haqqı üzrə 28,17 mln. manat vəsaitin köçürülməsi təmin edilib.

Fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi proqramı çərçivəsində 31.180 vergi ödəyicisindən müraciət daxil olub. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən 29.946 müraciət araşdırılaraq təsdiq edilib və maliyyə dəstəyinin bank hesablarına köçürülməsi üçün Maliyyə Nazirliyinə təqdim edilib. Bu proqram üzrə indiyədək təsdiq edilmiş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 23,2 mln. manat təşkil edir. Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən maliyyə dəstəyi çərçivəsində 18,65 mln. manat vəsaitin 22.949 fərdi (mikro) sahibkarın bank hesablarına köçürülməsi təmin olunub.

Bununla yanaşı, İqtisadiyyat Nazirliyi koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar maliyyə dəstəyi göstərilmiş sahibkarlıq subyektlərində işçi sayının ixtisarına yol verilməməsi haqqında xəbərdarlıq edib.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin baş idarə rəisinin müavini Elşən Rəhimli bildirib ki, pandemiyanın yaratdığı mövcud şəraitdə məşğulluq məsələlərinə həssaslıqla yanaşılmalı, işçilərin ixtisarı və əmək haqlarının azaldılması hallarına yol verilməməlidir. Pandemiya ilə əlaqədar dövlətdən maliyyə dəstəyi almış vergi ödəyiciləri tərəfindən işçi sayının azaldılmaması, habelə dövlət tərəfindən verilmiş maliyyə dəstəyinin işçilərin əmək haqlarına və sosial sığorta ödəmələrinə yönəldilməsi ciddi nəzarətdə saxlanılır. Maliyyə dəstəyinin göstərildiyi vergi ödəyicilərində bu şərtlərə əməl edilməməsi hallarına yol verildiyi təqdirdə həmin ödəyicilərə qarşı qanunvericilik çərçivəsində müvafiq tədbirlər görüləcək, verilmiş dövlət maliyyə dəstəyinin geri alınması təmin ediləcəkdir.

# Bu ağac koronavirus daşıyıcısıdır? - Həkimdən açıqlama



***Rusiya allerqoloqlarının fikrincə, şəhərlərdə qovaq ağacının çiçəkləri koronavirusun potensial daşıyıcısı ola bilər. Bu fikir nə qədər həqiqətə uyğundur? Ümumiyyətlə, ağac tozucuqları virus daşıyıcısı ola bilərmi?***

Həkim-allerqoloq Nərmin Zakirli Lent.az -a bildirib ki, bu yanlış fikirdir: "Ağacların tozucuqlarının virus yaymasının heç bir elmi əsası yoxdur. Çiçək tozları öz üstündə virusları daşımır. Virus havada deyil, hansısa insanda olmalıdır ki, digər insana keçə bilsin. Yəni virusun daşıyıcısı polenler ola bilməz. Daşıyıcı insanlar olur".

Həkimin sözlərinə görə, hazırda yaz mövsümü olduğu üçün allergiya problemli insanlar səhv başa düşür, allergiya olduqları halda qrip olduqlarını düşünürlər.

Həkimon fikrincə, allergiya xəstələri koronavirus təhlükəsinə görə risk daşıyıcıları deyil: "Sadəcə olaraq bronxial astma xəstəliyi olanlar koronavirusa yoluxarsa, bu onların xəstəliyini ağırlaşdıra bilər".

# Əmək müqavilələrinin sayı bu qədər artıb




***Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq kölgə iqtisadiyyatına, qeyri-formal məşğulluğa qarşı həyata keçirilən kompleks mübarizə tədbirləri əmək müqavilələrinin sayının artmasına da imkan verib.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, nazirliyin xidməti olan "Əmək müqaviləsi bildirişi" e-sistemindən əldə olunan məlumata əsasən, cari ilin əvvəli ilə müqayisədə özəl sektorda əmək müqavilələrinin sayı 80 min artıb.

Qeyd edək ki, pandemiya ilə əlaqədar qeyri-dövlət sektoru üzrə işçilərin əsassız yerə işdən çıxarılmasına, ixtisarına yol verilməməsi, özəl sektorda iş yerlərinin qorunması diqqətdə saxlanılır. Bu məqsədlə nazirlik tərəfindən "Əmək müqaviləsi bildirişi" e-sistemi üzərindən əvvəlcədən işəgötürənlərə müvafiq bildiriş-xəbərdarlıq göndərilib, gündəlik nəzarət aparılır.

Bu sektorda iş yerlərinin qorunması, xüsusilə də əmək müqavilələrinin sayının artması işəgötürənlərin sosial həmrəylik prinsipinə sadiqliyini göstərir.

İşəgötürənlə işçi arasında bağlanan əmək müqaviləsi işçinin əmək və sosial hüquqlarının yaranmasına və müdafiəsinə əsaslı hüquqi təminat yaradır.

# Karantin zamanı hansı içkilər içilməməlidir?

***Karantin zamanı evdə oturub az hərəkət edən və az kalori sərf edən insanlar üçün bəzi içkilər xüsusi zərərli ola bilər.***

Lent.az -ın Rusiya KİV-nə istinadla verdiyi xəbərə görə, Milli Diyetoloqlar və qidalanma milli assosiasiyasının üzvü marina Marişa hesab edir ki, ilk növbədə tərkibində şəkər olan içkilər təhlükəlidir.

"Müxtəlif qazlı sular, qablaşdırılmış meyvə şirələri, hətta tərkibində şəkər olan kvas da içmək məsləhət deyil", - Makişa vurğulayıb. Mütəxəssisin sözlərinə görə, şəkər insanın immunitetinə zərərlidir və koronavirus infeksiyası təhlükəsi zamanı istifadə üçün tövsiyə olunmur: "Şəkər kompleks iltihaba səbəb ola bilər və bununla da insanın immunitet sisteminin yükünü artırır. Buna görə karantin zamanı qazlı su və ya hətta "təbii" qablaşdırılmış şirələr içmək pis bir fikirdir". Bəs hansı içkilərdən istifadə etmək olar? Mütəxəssis məsləhət görür ki, ilk növbədə adi su içmək lazımdır. Hətta çay və kofe də məsləhətdir. Ancaq bu içkilər tünd olmamalıdır və orta miqdarda, eyni zamanda şəkərdən istifadə etmədən içilməlidir.

# Bu irsi qan xəstəliyinə ən çox oğlan uşaqlarında rast gəlinir

***17 aprel Ümumdünya Hemofiliya Günü kimi qeyd olunur. e-tibb.az-ın xəbərinə görə, Milli Hematologiya və Transfuziologiya Mərkəzinin bu günlə bağlı açıqladığı məlumatda bildirilir ki, günün qeyd olunması ilə əlaqədar 17 aprel tarixinin seçilməsi heç də təsadüfi deyil. Bu, Dünya Hemofiliya Federasiyasını yaratmış Frenk Şnaybelin doğum günü ilə əlaqədardır.***

Günün təsis edilməsinin və qeyd olunmasının məqsədi qanın laxtalanması prosesinin pozulması ilə əlaqədar irsi xəstəlik olan hemofiliyadan əziyyət çəkənlərin hər gün üzləşdiyi problemlərə dünya ictimaiyyətinin və səhiyyə işçilərinin diqqətini cəlb etmək, bu barədə onların məlumatını artırmaqdır.

Hemofiliya - insan qanında laxtalanma faktoru adlandırılan zülalların irsi çatışmazlığı nəticəsində yaranır. X xromosomu ilə qadın tərəfindən keçirilir və əsasən oğlan uşaqlarında özünü büruzə verir. Bu qrup xəstələrdə travmalar, hətta xırda zədələr nəticəsində beyin və digər həyati əhəmiyyətli orqanlarda baş verən qanaxma ölüm riskini artırır. Həmçinin hemofiliyanın ağır formasından əziyyət çəkən xəstələrdə periodik olaraq oynaqlara



qansızma (hemartroz) və əzələlərə qansızma (hematoma) xəstələrdə əlillik və sağlamlıq imkanlarının məhdudluğuna gətirib çıxarır.

Məlumatda bildirilir ki, Azərbaycanda hemofiliya xəstələri digər irsi xəstəliklər kimi dövlət qayğısı ilə əhatə ediliblər. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci Vitse Prezident, birinci xanım Mehriban Əliyeva ölkə vətəndaşlarının səhiyyə xidmətləri ilə təmin edilməsinə xüsusi önəm verirlər. Bunun bariz nümunəsi səhiyyə müəssisələrinin yenidən qurulması, əhaliyə tibbi xidmət məqsədi ilə qəbul olunmuş dövlət proqramlarıdır. Xüsusi əhəmiyyət kəsb edən sənədlərdən biri kimi 2005-ci ildə qəbul edilmiş "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə qayğı" üzrə dövlət proqramını qeyd etmək olar.

Qafqaz regionunda ilk Hemofiliya mərkəzi məhz Bakıda 1973-cü ildə yaradılıb. Hazırda mərkəz çox profilli M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının Hematologiya şöbəsinin nəzdində fəaliyyət göstərir. Mərkəzdə 1675 xəstə dispanser qeydiyyatındadır.

Dövlət proqramının tədbirlər planına əsasən, hemofiliyalı xəstələrə göstərilən tibbi yardımın təkmilləşdirilməsi, onların laxtalanma faktorları ilə təminatı, qanaxmaların profilaktikası, ağırlaşmaların aradan qaldırılması, həyat keyfiyyətinin yaxşılaşdırılması, ömürlərinin uzadılması, əlilliyin, vaxtsız ölümlərin qarşısının alınması məqsədilə fəaliyyətlərin icrası nəzərdə tutulub.

Bu gün inkişaf etmiş ölkələrdə olduğu kimi Azərbaycanda da hemofiliyalı xəstələr ev şəraitində, ambulator və stasionar şəraitdə müalicə alırlar. Dövlət proqramı uğurla həyata keçirilir. Əsas məqsəd bütün bölgələrdə yaşayan pasiyentlərin dərman preparatları ilə təminatını yaxşılaşdırmaq, müalicə prinsiplərini tam beynəlxalq standartlara uyğunlaşdırmaq və profilaktik müalicəni həyata keçirməkdir. Eyni zamanda anamnezində hemofiliya riski olan ailələrdə hamiləlik zamanı prenatal diaqnostikanı başlamaqdır.

# Azərbaycanda bələdiyyələrin fəaliyyətini necə təkmilləşdirilmək olar? - TƏKLİFLƏR

***"Bu gün bələdiyyələrlə bağlı ən çox narahat edən məsələ torpaq sahələrinin real qiymətdən daha aşağı satılmasıdır".***

Bunu Milli Məclisin iclasında Ədliyyə nazirinin müavini Vilayət Zahirovun təqdim etdiyi "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzənin (2019-cu il üzrə)" müzakirəsi zamanı deputat Elman Nəsirov deyib.

O bildirib ki, bələdiyyələrdə iclasların keçirilməsi ilə bağlı da problem var: "Bir çox halda bələdiyyə sədrləri səlahiyyətlərini aşaraq, iclas keçirmədən özü qərarlar qəbul edir. Bu gün bələdiyyələrin sosial sığorta ödənişlərinin xeyli borcu olması da ciddi problemdir. Ən azı qardaş Türkiyə dövlətinin praktikası nümunə götürülməlidir. Türkiyədə bələdiyyələr yetərincə ciddi addımlar ata biləcək instituta çevrilib. Bizdə də Türkiyə təcrübəsindən yararlanmaq olduqca yerində atılmış addım olar. Hesab edirəm ki, Azərbaycan bələdiyyəsi 20 il ərzində xeyli iş görüb, amma bu işlər davam etdirilməlidir".

Deputat Azay Quliyev bildirib ki, bələdiyyələrin borclarının yığılıb qalması məsələsi də ciddi problemdir: "Ümumilikdə hesabatda nə qədər bələdiyyənin hansı borcları olması qeyd olunması yaxşı olardı. Eyni zamanda aktların ləğv edilmiş bələdiyyələrin də konkret adları hesabata salınsa, yaxşı olardı. Həmçinin bu bələdiyyələrlə bağlı görülən hüquqi tədbirlər də hesabatda göstərilməlidir. Yeni seçilən bələdiyyə üzvləri vətəndaşların inam və etibarını qazanmağı bacarmalıdır ki, insanlar vergiləri ödəsinlər. Ümumiyyətlə, bələdiyyələrin hesabatları həm elektronlaşmalı, həm də kifayət qədər əlçatan olmalıdır. Bundan başqa, bələdiyyələrin müstəqil gəlir əldə etmək qaynaqları yaradılmalıdır. Bu da bələdiyyələrin sosial problemlərinin həllində mühüm rol oynayacaq. Gələcəkdə bələdiyyə sədrinin də xalq tərəfindən seçilməsi məsələsinə baxmalıyıq. Bakı bələdiyyələrinin mülkiyyətində olan torpaqların sərhədlərinin dəqiqləşməsinə də ehtiyac var".

İnsan Hüquqları komitəsinin sədr müavini Tahir Kərimli isə qeyd edib ki, koronavirus pandemiyası hələ bitməyib və davam edir: "İki mühüm nəticə çıxarmışam. Bunlardan birincisi koronavirusa qarşı mübarizədə dövlətin səyləridir. Ölkəmizdə koronavirusun sürətlə yayılmasının qarşısı məhz ölkə başçısının vaxtında



verdiyi qərarlarla alına bildi. ÜST də bu gün Azərbaycanın gördüyü işləri təqdir edir. Artıq ölkə başçısı sahibkarlara, insanlara müraciət edir ki, yardımlaşın, köməkləşin. Əsrin əvvəlində Hacı Zeynalabdin Tağıyev kimi xeyriyyəçilərimiz olub. Bu gün həmin xeyriyyəçilik işlərini dövlətimiz, ölkə başçısı, I Vitse-prezident, Heydər Əliyev Fondu aparır. Hər yerdə artıq ölkə başçısına və I Vitse-prezidentə qarşı yaxşı münasibət hiss olunmaqdadır. Bələdiyyələr də bu gün bu tədbirlərdə aktiv iştirak etməlidir".

T. Kərimli qeyri-konstruktiv müxalif qüvvələri də pozucu fəaliyyətlərindən əl çəkməyə çağırıb.

# Online informatika dərslərinə cəlb olunanların sayı açıqlandı



***“Rəqəmsal bacarıqlar” layihəsi çərçivəsində informatika fənninin onlayn tədrisi davam edir.***

Təhsil Nazirliyindən verilən məlumata görə, hazırda 35 min şagird ”Rəqəmsal bacarıqlar” layihəsi çərçivəsində informatika fənni üzrə onlayn dərslərə cəlb olunub.

Onlayn dərslər siniflərdən asılı olaraq həftədə 2-4 dəfə keçirilir. Statistik göstəricilərə əsasən, hər dərs üzrə orta müvəffəqiyyət nisbəti 68 faizə bərabərdir.

Şagirdlərin dərs materiallarını yaxşı mənimsəmələri üçün platformada hər mövzu üzrə nəzəri məlumatların qeyd olunduğu təlimat və layihə metodisti tərəfindən dərsin ətraflı video izahı yerləşdirilir. Şagirdlər təlimat və video dərslərlə tanış olduqdan sonra mövzu üzrə yerləşdirilən praktiki tapşırıqları yerinə yetirirlər.

Bununla yanaşı, layihə çərçivəsində müəllimlər üçün də 3-4 saat davam edən vebinarlar təşkil olunur. 1200 müəllimin iştirakı üçün ümumilikdə 25 vebinarın təşkili nəzərdə tutulub ki, bunlardan 13-ü artıq keçirilib. Vebinarlarda müəllimlər şagirdlər üçün keyfiyyətli onlayn dərslərin təşkili ilə bağlı biliklərə yiyələnirlər. Daha sonra müəllimlər müvafiq test tapşırıqları ilə yiyələndikləri bilikləri yoxlayırlar.

“Rəqəmsal bacarıqlar” layihəsi 2019-2020-ci tədris ilində Bakı, Sumqayıt, Gəncə, Biləsuvar, Şamaxı və Mingəçevir şəhərləri üzrə 123 məktəbi əhatə edir. Hazırda layihə çərçivəsində 70 mindən çox şagird informatika fənnini yeni formatda öyrənməkdədir.

2017-2018-ci tədris ilində tətbiqinə başlanılan layihə şagirdlərdə alqoritmik düşüncə, məntiq, layihə əsaslı öyrənmə bacarıqlarının inkişafı və proqramlaşdırma əsaslarının öyrədilməsi məqsədini daşıyır. Layihə təhsilalanların İKT bacarıqlarına dərindən yiyələnməsinə, onların gələcəkdə informasiya məkanında sərbəst və məqsədyönlü fəaliyyətinə, rəqabətqabiliyyətli və qeyri-standart düşüncə tərzinə malik şəxslər kimi formalaşmasına şərait yaradır.

# Saxta bal nə qədər ziyanlıdır? - TƏHLİL

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) “AQTA maarifləndirir” rubrikası davam edir.***

Rubrika çərçivəsində saxta balın ziyanları təhlil olunur.

AQTA və Qida Təhlükəsizliyi İnstitutu mütəxəssislərinin hazırladığı maarifləndirici materiallar, sağlam qidalanma ilə bağlı tövsiyələr, yaxud gündəlik istifadə etdiyimiz qidalarla bağlı məsləhətlər oxucuların diqqətinə çatdırılır. Budəfəki maarifləndirici mövzu isə “Saxta balın ziyanları” haqqında olacaq.

Bal çox qiymətli bir qida məhsuludur. Bal tərkibi çoxlu sayda mineral və vitaminlərlə zəngin olan təam, saysız-hesabsız müalicəvi xüsusiyyətlərini özündə daşıyan qiymətli nemətdir. Can dərmanı hesab olunan balın 40-dək növü var. Rəngi və dadı isə tərkibindəki çiçək və otlardan asılı olaraq dəyişir. Tərkibində 13-20 faiz su, 80 faizdən çox karbohidrat, 0,4 faiz zülal, 0,3 faiz kül var. Bundan başqa, üzvi turşular, fermentlər, mineral və vitaminlərlə zənginliyi balı min bir dərdin dərmanına çevirib. Sağlamlığa olan faydaları ilə yanaşı, dadlandırıcı və qoruyucu kimi qənnadı sənayesində də geniş istifadə olunur.

Bal seçiminə həmişə diqqətlə yanaşmaq lazımdır. Yalnız keyfiyyətli, təbii məhsul orqanizmə faydalı ola bilər. Satışda “bal” adı ilə geniş çeşiddə, zövqlə etiketlənmiş bankalar görmək olur. Saxta bal xoşagəlməz yan təsirlərə, müxtəlif xəstəliklərin meydana gəlməsinə səbəb ola bilər.



Bəzən məhsulun tərkibində bakteriya, kif və maya göbələklərinə də rast gəlinir. Xoşbəxtlikdən bakteriya və mikrobların çoxu balda böyüyə və çoxala bilmir, lakin spor əmələgətirən mikroorqanizmlər (Bacillus cereus, Clostridium perfringens) məhsulun tərkibində uzun müddət yaşaya bilər. Saxta balın bir sıra orqanoleptik xüsusiyyətləri təbii balla oxşar olsa da, keyfiyyətli məhsulun tərkibində fermentlər, çiçək tozu və dekstrinlər var. Saxta bal hazırlanarkən şəkərli məhsul (yemiş, qarpız, şəkər qamışı və şəkər çuğunduru), təbii (dazı otu, çay dəmləməsi, zəfəran), yaxud süni rəngləndiricilər istifadə olunur.

Hazırlanmış belə məhsula dadının təbii bala uyğunlaşdırılması üçün az miqdarda xalis bal da qatılır. Araşdırmalar nəticəsində müəyyən olunub ki, təbii bal və şəkəri ayıran çox mühüm fərqlər vardır. Şəkər həzm sistemində parçalanaraq qana keçir, lakin təbii bal parçalanmadan sürətli şəkildə qana qarışa bilir.

Şəkər tərkibli saxta məhsul qaraciyərin bəzi funksiyalarının pozulmasına səbəb olur. Bundan başqa, aktiv həyat tərzi keçirməyən insanın normadan artıq şəkər qəbulu bir çox xəstəliklərin inkişafına təkan verə bilər. Bu amil məhz xərçəng hüceyrələrinin yaranması, qaraciyər piylənməsi, depressiya və psixi pozğunluqlar, diabet xəstəliyi, normadan artıq çəki, damar tıxanıqlığı, uşaqlarda böyümə hormonlarının ifrazının ləngiməsi və orqanizmin hormonal balansının pozulması, uşaqlarda diqqət dağınıqlığı, dişlərin çürüməsi və buna bağlı böyrək və bağırsaq iltihablanmaları, orqanizmin immun sisteminin zəifləməsi üçün risk faktorudur.

Saxta balı həqiqi baldan ayırmaq üçün el arasında bir çox sınaqlar mövcuddur. Mütəxəssislərin fikrincə, istehlakçıların məhsulun qoxusuna, rənginə və dadına baxaraq keyfiyyətli olub-olmamasını ayırd edə bilməsi mümkün deyil. Təbii məhsulu laborator müayinə nəticəsində mütəxəssislər ayırd edə bilərlər.

# Çingiz Mustafayev adına Fond yazı müsabiqəsi elan etdi

***Çingiz Mustafayev adına Fond Milli qəhrəmanın 60 illik yubileyi münasibətilə hərbi vətənpərvərlik mövzusunda “Hərb tariximiz” adlı yazı müsabiqəsi elan edir.***

Mükafatlandırma iyunun 15-də, Çingiz Mustafayevin anım günü keçiriləcək. Müsabiqə fondu zəngindir.

I yer (1 nəfər) - Çingiz Mustafayevin 60 illik yubileyi münasibətilə xüsusi olaraq buraxılmış və qalibin adl həkk olunmuş VMF saatı və fotokamera

II yer (1 nəfər) - Çingiz Mustafayevin 60 illik yubileyi münasibətilə xüsusi olaraq buraxılmış buraxılmış və qalibin adl həkk olunmuş VMF saatı və “Caran d’Ache qələmi

III yer (1 nəfər) - Çingiz Mustafayevin 60 illik yubileyi münasibətilə xüsusi olaraq buraxılmış buraxılmış və qalibin adl həkk olunmuş VMF saatı və əksi olan ZİPPO alışqanı

Həvəsləndirici mükafat (3 yer) - Çingiz Mustafayevin 60 illik yubileyi münasibətilə xüsusi olaraq buraxılmış ZİPPO alışqanı

Müsabiqəyə təqdim olunmuş yazılarda üstünlük veriləcək:

- Materialların nəzərdə tutulan mövzunu dolğun əhatə etmə səviyyəsi, faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyəti.

- Müsabiqəyə 2020-ci il aprel ayının 30-dan may ayının 30-dək olan müddətdə qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında gedən yazılar buraxılacaq.

- Müsabiqə üçün dil və janr məhdudiyyəti nəzərdə tutulmur;

- Yazılarda işarə məhdudiyyəti yoxdur.

- Yazıda “Milli Qəhrəman Çingiz Mustafayev adına Fondun ”Hərb tariximiz” mövzusunda elan etdiyi yazı müsabiqəsinə təqdim olunur” qeydi olmalıdır.

Qeyd: Yazı müəllifinin konkret kütləvi informasiya vasitəsində çalışması şərt deyil.

III. Yazıların təqdim edilməsi

Müsabiqə üçün yazılar aşağıdakı e-mailə göndərilməlidir:
info@chingizmustafayev.org

Təqdimat məktubunda yer almalıdır:

- yazı təqdim edən şəxsin əlaqə vasitələri - ev və ya iş telefonu, mobil telefonu, e-mail ünvanı;

- yazı təqdim edən şəxsin fotosu;

- müsabiqə üçün verilmiş yazının getdiyi qəzet və jurnalın 1 nüsxəsi (ayrıca vərəqədə);

- yazı elektron media resursunda verilibsə, bunu təsdiqləyən link.

Əlaqə telefonu:
(012) 345 45 08
(051) 206 42 70

# Sərnişin daşıyan sürücülər arasında koronavirusa yoluxan yoxdur - RƏSMİ

***Xüsusi karantin rejimi dövründə respublika üzrə şəhərdaxili (rayondaxili) avtobus marşrutları ilə (Bakı şəhəri istisna olmaqla) cari ilin 1-3 aprel tarixlərində 231624, 4-6 aprel tarixlərində 124292, 7-9 aprel tarixlərində 63653, 10-12 aprel tarixlərində 69043 və 13-15 aprel tarixlərində 73275 sərnişin daşınıb.***

Dövlət Avtomobil Nəqliyyatı Xidmətindən (DANX) verilən məlumata görə, aprelin 1-3-ü ilə müqayisədə ayın 13-15-i üzrə şəhərdaxili (rayondaxili) avtobus marşrutları ilə (Bakı şəhəri istisna olmaqla) daşınan sərnişin sayı 68.4 % azalıb.

Həmçinin, fəaliyyətinə icazə verilən yeganə şəhərlərarası avtobus marşrutları olan “Bakı-Sumqayıt”, “Bakı-Abşeron” və “Sumqayıt-Abşeron” xətləri üzrə aprelin 1-3-də 75400, ayın 4-6-da 54405, 7-9-da 45275, aprelin10-12-də 43460 və 13-15-də 46160 sərnişin daşınıb. Bu il aprelin 1-3-ü ilə müqayisədə ayın 13-15-i üzrə “Bakı-Sumqayıt”, “Bakı-Abşeron” və “Sumqayıt-Abşeron” avtobus marşrutları ilə daşınan sərnişin sayı 38.8 % azalıb.

Ümumilikdə xüsusi karantin rejiminə qədərki dövrlə müqayisədə daşınan sərnişin sayı 85 faiz azalıb.

Ötən müddət ərzində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti tərəfindən fəaliyyətinə icazə verilən şəhərdaxili (rayondaxili) sərnişin daşımaları, həmçinin “Bakı-Sumqayıt”, “Bakı-Abşeron” və “Sumqayıt-Abşeron” avtobus marşrutları üzrə sərnişindaşıma fəaliyyəti göstərən sürücülər arasında koronavirusa yoluxma halı qeydə alınmayıb.

Avtobusların salonlarında və dayanacaqlarda sərnişinlər tərəfindən sosial məsafəyə riayət edilməsinin təmin edilməsi məqsədilə xidmətin əməkdaşları tərəfindən gündəlik nəzarət tədbirləri davam edir.

**Bütün dünya hazırda koronavirusla mübarizədə peyvənd hazırlamaq üçün gecə-gündüz çalışır. Hər gün "xəstəliyin dərmanı tapıldı" başlıqlı "feyk xəbərlər"lə qarşılaşırıq. Bir ümid inanır, dünyanın üzərində dolanan qara buludlardan xilas olacağımız günü səbrsizliklə gözləyirik. Ümid yerimiz isə həkimlərdir... "Səhhət" rubrikasında kök hüceyrə vasitəsilə xəstəliyin dərmanını axtaran qəhrəmanımızla söhbətləşdik. Müsahibimiz Türkiyədə kök hüceyrə mühəndisi, araşdırmaçı həkim Günel Bayramovadır(kaspi).**




# Kök hüceyrəsindən koronavirusun müalicəsində istifadə olunurmu?

## Günel Bayramova: "Klinik test mərhələsində heç bir qüsur olmadığı təqdirdə, mayın sonunda nəticə əldə edilə bilər"

***- Günel xanım, kök hüceyrələr nədir?***

- İnsan orqanizmində önəmli olan yüzlərlə fərqli hüceyrə növləri mövcuddur. Bu hüceyrələr orqanizmimizin kompleks şəkildə işləməsini təmin edir. Kök hüceyrələr spesifik şəkildə bölünərək istənilən hüceyrə tipinə dönüşə və öz-özünü bərpaetmə xüsusiyyətinə malikdir. Ən əsası, çoxhüceyrəli toxuma və orqanları əmələgətirmə vəzifəsinə sahib əsas hüceyrə tipidir. Kök hüceyrələr bütün toxuma və orqanlarda olur. Müasir dövrdə hüceyrə və gen mühəndisliyi ümidverici müalicə metodlari ilə tibbdə əsas yerlərdən birini tutur. Kök hüceyrə ilə müalicə metodlarında Türkiyədə də uğurlu işlər görülür. Belə ki, elmi və etik qaydalar çərçivəsində "hücrəsəl müalicə" dediyimiz metodu istifadə edərək müasir tibbdə müalicəsi olmayan bəzi xəstəlikləri sağaltmaq mümkündür.

***- Hazırda koronavirusla bağlı Türkiyədə vəziyyət necədir?***

- Türkiyə, koronavirus epidemiyasına qarşı ən təsirli və hazırlıqlı dünya ölkələri arasında ilk sıralarda yer alır. Hazırda Türkiyə, Ümumdünya Səhiyyə Təşkilatının açıqlamasına görə, dünyada yoluxma sayına görə onuncu yerdədir. İnfeksiyanın sürətli yayılmasına baxmayaraq, səhiyyə sistemi qabaqlayıcı tədbirlər görür. Belə ki, xəstəliyin sürətlə müəyyənləşdirilməsi üçün Çindən gətirilən 1 milyona qədər testlərdən və reanimasiya xəstələrinin müalicəsində dərman preparatlarından istifadə olunur. Sözügedən diaqnostik testlər və dərman preparatları pandemiyanın qarşısını almaqda zaman qazandırır. Belə ki, diaqnostik testlər ilk vaxtlarda 3-5 gün ərzində nəticə verdiyi halda, hazırda bir neçə saatda müəyyənləşir. Bunlarla yanaşı, Türkiyə infeksiyanın müalicəsində istifadə olunacaq tibbi vəsait və süni tənəffüs aparatlarının istehsalına başlayıb. Səhiyyə Nazirliyi və Maliyyə Nazirliyinin dəstəyi ilə 6 univeristet və 1 Diaqnostika Mərkəzində peyvənd araşdırılır. Pandemiyanın əleyhinə istifadə olunacaq peyvənd və dərmanların klinik mərhələsində olduğu deyilir.

***- Koronavirus və kök hücrə. Bunların bağlılığını necə izah edərsiniz? Kök hücrə ilə koronavirusu müalicə etmək mümkündürmü?***

- Mezenkimal kök hüceyrələr (MKH) orqanizmdə bərpa gücünə malik çox sayda hüceyrəyə çevrilə bilən və özünü yeniləmə xüsusiyyətinə sahib ana hüceyrələrdir. Bəzi xəstəliklərin müalicəsində istifadə olunan MKH göbək ciyəsindən, sümük iliyindən, yağ toxumasından əldə edilir. MKH immun sisteminin tənzimləyici hüceyrələrinin sayını artırmaqla yanaşı, T və B hüceyrələrinə təsir edərək onların davranışlarını dəyişdirir. Bundan əlavə, antibiotiklər virusların çoxalmasına mane olur və bədəndən xaric olmasını artırır. Bu xüsusiyyətini əsas gətirərək pandemiyada ümidverici müalicə metodu olaraq istifadə edilir. Mezenkimal kök hüceyrələr yaşlı, ağır xəstələrə damar yolu ilə verilərək həm immun sisteminin, həm də ağciyərlərin fəaliyyətini gücləndirəcəyi iddia edilir. Professor Ərcümənt Ovalı "qəhrəmanlarım" adlandırdığı komandası ilə xəstəliyi keçirib sağalmış 23 donorlarla 12 xəstə üzərində peyvəndin klinik mərhələsinə başlayacağını söyləyib. Professor peyvəndin klinik test mərhələsində heç bir qüsur olmadığı təqdirdə, mayın sonunda nəticə əldə edəcəklərini bildirib. Amma koronovirusla bağlı hazırkı vəziyyət deməyə əsas verir ki, yaranmış pandemiya, birincisi, virusun mutasiyası, ( təbii məhvi) ikincisi, onun müalicə və peyvəndinin tapılması,üçüncüsü isə orqanizmlərin kütləvi şəkildə bu infeksiyaya uyğunlaşması ilə aradan götürülə bilər.

***- Bəzi həkimlər COVİD 19-a yoluxanların əksəriyyətinin xəstəliyi yüngül keçirdiyini vurğulayır. Siz necə düşünürsünüz?***

- COVID-19 infeksiyası haqqında bu günə qədər əldə edilən elmi məlumatlar, bəzi insanların yoluxma və ciddi simptomlar inkişafetdirmə riskinin daha yüksək olduğunu göstərir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) verdiyi məlumata görə, xəstəliyə yoluxanların 80 faizi yüngül keçirir, 20 faizi xəstəxana şəraitində müalicə olunur. Xəstəliyə yoluxma, ümumilikdə, 60 yaşdan yuxarı insanlarda daha çox müşahidə edilir. Xəstəlik ən ciddi simptomlarını 60 yaşdan yuxarı olanlarda, ürək xəstəliyi, hipertoniya, diabet, xroniki tənəffüs xəstəliyi, xərçəng və bu kimi ciddi xroniki xəstəlikdən əziyyət çəkən şəxslərdə, eyni zamanda virusa məruz qalan səhiyyə işçilərində özünü göstərir.

***- Kök hüceyrələrinin hazırki tətbiq sahələri hansılardır?***

- Kök hüceyrələrinin tətbiq sahələri çox genişdir. Hazırda kök hüceyrələrin tətbiqi bəzi xəstəliklərdə sınaq mərhələsində olsa da, bir çoxunda artıq standart terapiya kimi qəbul olunur. Kök hüceyrələrinin effektiv tətbiq edildiyi sahələrə, əsasən, qan xəstəlikləri, mədə-bağırsaq sistemi xəstəlikləri, ürək-damar sistemi xəstəlikləri, dayaq-hərəkət aparatı xəstəlikləri, genetik xəstəliklər, kosmetologiya sahəsini və ən əsası, onkologiyanı göstərmək olar. Belə ki, kök hüceyrələr müxtəlif anemiyaların, autizmin, talessemiyanın, uşaqlarda serebral ifliclərdə, Hockin və qeyri-Hockin limfoması, mieolmalarda, əzələ distrofiyalarında, neyroblastomalarda, leykozlarda, onurğa beyni zədələnmələrində, Parkinson xəstəliyində, Alzheymer xəstəliyində, Kron xəstəliyində, hemofaqositoz, hipoksik-işemik ensefalopatiyalarda, neyroblastomalarda, irsi xəstəliklərdən kostman, dicorc, günter, qarler xəstəliyində uğurla tətbiq olunur. Kök hüceyrələrin tətbiqinin sınaq mərhələsində olduğu xəstəliklərə insultu, qaraciyər serrozunu, hepatitləri, böyrək çatışmazlığını, autoimmun xəstəliklərini, diabet, miokard infarktını, sümük defisitlərini, ürək çatışmazlığını və başqa xəstəlikləri göstərmək olar.

***- Kök hüceyrələri onkologiyada hansı formada tətbiq olunur?***

- İnsan orqanizmində qan yaratmağa cavabdeh olan hüceyrələr sümük iliyindəki kök hüceyrələrdir. Son dərəcə xüsusi funksiyalara malik hüceyrələrin köçürülməsinə ümumi olaraq "sümük iliyi köçürülməsi" və ya "kök hüceyrə transplantasiyası" deyilir. Sümük iliyi köçürülməsi xəstənin öz kök hüceyrələrindən yerinə yetirilsə, buna "autoloq köçürülmə", ailə üzvləri və ya qohumlardan olmayan toxuma uyğunluğu olan donorlardan alınsa, "allogenik köçürülmə" adı verilir. Sümük iliyi transplantasiyası zamanı köçürülən qan - kök hüceyrədir. Kök hüceyrə, əvvəlki illərdə sümük iliyindən birbaşa və əməliyyat otağı şəraitində xüsusi iynələrdən istifadə edilməklə yığılırdı. Bu gün isə bu üsuldan nadir hallarda istifadə olunur. Son illərdə daha çox xüsusi dərmanla kök hüceyrələrin sümük iliyindən qana keçmələri təmin edilməklə və "aferez" deyilən bir üsulla yığılır. Bu prosedura heç bir cərrahi müdaxilə tələb etmir. Sümük iliyinin transplantasiyası əməliyyatı da cərrahi müdaxiləyə ehtiyac yaratmır. İlik, damar yolu ilə xəstəyə tətbiq edilir, sümük iliyi hüceyrələri bioloji xüsusiyyətləri ilə sümük iliyini özləri tapıb yerləşir və qan yaratmağa başlayır. İlik köçürülməsinin əsl çətinliyi, iliyin yeni yerində funksiyalarını mənimsəmə xəstənin müşahidəsinin yaxşı aparılmasıdır. Bu kritik dövrdə qırmızı qan (eritrosit) və ağ qan (leykosit) hüceyrələri, laxtalanmaya xidmət edən trombositlər yarana bilməz. Buna görə də, bu dövr anemiya, infeksiya və qanaxma kimi ağırlaşmaların baş verə biləcəyi bir dövrdür. Bu dövrdə yarana biləcək infeksiyalar, qanaxma kimi arzuolunmaz vəziyyətlərin müalicəsi ilə iliyin qəbul edilməməsi və ya yeni iliyin səbəb olduğu xəstəliklərin qarşısını almaq baxımından əhəmiyyətlidir.

***- Kök hücyrə donoru kimlər ola bilər?***

- 18-50 yaş arasında sağlamlığı yerində olan hər kəs kök hüceyrə donoru ola bilər. Bu üsul, əsasən, qan verməyə bənzəyir. Donor həmin gün xəstəxanadan gedə bilər, riskli deyil. İkinci donor olmaq üsulu isə sümük iliyinin toplanmasıdır. Donor anesteziya ilə yatırılır, pelvis sümüyündən kök hüceyrə alınır.



# Bahalı kremdən daha yaxşı təsir edən ərzaqlar - HƏKİMLƏR

***Alman həkimlər istifadəsi bahalı krem görünüşü verən ən yaxşı məhsulların siyahısını tərtib ediblər.***

Xüsusilə, tərkibində karotenoidlər olan bibər və yerkökü dəriyə təsir göstərir. Pomidor və tomat pastasının istifadəsi bahalı kosmetik məhsullardan daha çox xarici görünüşə təsir edə bilər. Bunun üçün onları şorba, sous və sıyıqlara əlavə etmək mümkündür.

Dərinin gözəlliyi üçün balıqda da kifayət qədər omeqa-3 yağ turşuları var. hər gün dəniz məhsulları istifadə etməl qeyrimümkündür: həftədə iki dəfə yemək kifayətdir. Bu zaman yağlı balıq növlərini - somon, skumbirya və ya siyənək seçmək daha yaxşıdır.

Eyni zamanda, həkimlər xəbərdarlıq edirlər: həddən artıq və müntəzəm şirniyyat qəbul etmək daima ehtiras yaradıb, dərini ləng və pis hala gətirir ki, kosmetik prosedurların köməyi ilə onu bərpa etmək çətin olacaq.

# Mehriban Ələkbərzadə "YUĞ"un evdə hazırladığı tamaşalardan danışdı



***Koronavirus (COVID-19) pandemiyasının Azərbaycan ərazisində geniş yayılmasının qarşısının alınması məqsədi ilə ölkə ərazisində sosial izolyasiya tədbirlərinin həyata keçirildiyi, kütləvi tədbirlərin, konsertlərin və tamaşaların ləğv edildiyi zamanda Azərbaycan Dövlət YUĞ Teatrı "Evdə qal" çağırışına qoşularaq, "Evdə qal, teatrsız qalma" adlı sosial kampaniyaya başlayıb.***

Teatrın rejissoru Mehriban Ələkbərzadə Lent.az -a açıqlamasında bildirib ki, teatrın sənətçiləri Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanına əsasən həyata keçirilən tədbirlərə fəal şəkildə qoşulur və Nazirlər Kabinetinin qərarlarına və tövsiyələrinə ciddi riayət edirlər.

Rejissor YUĞ Dövlət Teatrının kollektivi adından bildirdi ki, pandemiyanın ölkəmizə mənfi təsirinin qarşısının alınması üçün görülən tədbirlərə qoşularaq, insanları özlərinin və doğmalarının təhlükəsizliyi naminə karantin qaydalarına əməl etməyə, vaxtı səmərəli keçirməyə, evdən çıxmadan teatrla maraqlanmağa, tamaşalara baxmağa çağırır.

"YUĞ teatrı aprel ayının əvvəlindən etibarən distant rejimdə fəaliyyətə başlayıb. Minimal resurslar çərçivəsində mümkün olduğu qədər teatrın tamaşaları "evdəqalteatrsızqalma" həştağı ilə sosial şəbəkələrdə paylaşılır. Karantin müddətində YUĞ teatrının Youtube kanalı yaradılıb və müxtəlif internet resurslarında və yaddaş qurğularında saxlanılan bütün videoyazılar (məxfi status-la) kanala yerləşdirilib. Aprel ayı üçün virtual nümayişi nəzərdə tutulan tamaşaların repertuarı müəyyənləşdirilib. Həftədə 2 dəfə YUĞ Dövlət Teatrının facebook, və youtube sosial hesablarında tamaşaların vieoları paylaşılır. Həftədə bir dəfə isə arxiv tamaşaları, tamaşalardan parçalar və teatrın fəaliyyətinə həsr olunmuş televiziya verilişləri, süjetlər, reportajlar və videoçarxlar izləyicilərə təqdim olunur. Artıq karantin rejiminin uzadılacağı təqdirdə növbəti ayda nümayiş olunacaq tamaşalar və videosüjetlərin siyahısı da müəyyənləşdirilib".

Mehriban Ələkbərzadə teatrın repertuar planına uyğun olaraq yenə də onlayn sistemlə yeni tamaşa üzərində işə start verildiyini dedi: "Aydındır ki, teatr canlı və kollektiv sənət növüdür, bırda müəyyən ilkin mərhədən danışmaq daha dogrudur. Tamaşa üzərində rejissor işi, rejissorun rəssamla işi ve s... Hələ ki, 2 tamaşa üzərində bu formatda işlər gedir".

Teatrın baş rejissoru Yuğ teatrında il ərzinde hazırlanacaq tamaşalardan da danışdı: "Matey Vişnekin " Qoca kloun tələb olunur" pyesi əsasında "Kloun Bizzz" tamaşasının ( quruluşçu rejissor Mikayıl Mikayılov) daxili baxışı oldu, amma premyera tədbirlərin ləğv edildiyi zamana düşdü.

C.Məmmədquluzadə " Çay dəsgahı" pyesi əsasında "Toy dəsgahı" tamaşası ( quruluşçu rejissor Günay Settar), Ə.B. Haqverdiyev " Pəri Cadu" tamaşası ( quruluşçu rejissor Gümrah Ömer), İ. Vırıpayev " İllüziya" (quruluşçu rejissor Mikayıl Mikayılov), V. Şekspir " Hamlet" (quruluşçu rejissor Mehriban Elekberzade) hazırlıq prosesində olan tamaşalardır.

# "Suğra və oğulları" filmi hazırdır

***Bakı Media Mərkəzi və "Buta Film" şirkətlərinin birgə istehsalı olan "Suğra və oğulları" filmi bu il tamaşaçıların ixtiyarına veriləcək.***

Filmin rejissoru İlqar Nəcəf Lent.az -a dildirib ki, çəkilişlərində Almaniyanın "Salar Film" və Fransanın "Arizona Production" şirkətləri ilə yaxından əməkdaşlıq edilən filmdə II Dünya müharibəsi dövrü Azərbaycanda, arxa cəbhədə, kənddə yaşayan insanların taleyindən bəhs olunur.

Filmin əksər çəkilişləri Daşkəsən rayonunun Suqovuşan kəndində aparılıb. Ssenari müəlliflərindən biri və rejissoru İlqar Nəcəf olan "Suğra və oğulları" filminin yaradıcı heyəti arasında avropalı mütəxəssislər də yer alıb. Filmin quruluşçu operatoru Avropa Kino Akademiyasının üzvü Ayhan Salar (Almaniya), səs rejissoru Michael Menzke (Almaniya), filmin ssenari müəllifləri Asif Rüstəmov və Roelof Jan Minneboadır (Niderland).



Maraqlı süjet xətti olan filmdə Suğra iki oğlu ilə birgə dağ kəndində yaşayır. Onun əri Böyük Vətən müharibəsində döyüşlərdə iştirak edir. Suğra uzun müddətdir ərindən xəbər ala bilmir, bu ərəfədə isə onun böyük oğluna da çağırış vərəqi gəlir. Ərindən sonra oğlunu da itirəcəyindən narahat olan Suğra tərəddüd edir və sonda böyük oğlunu dağlarda gizlənən qaçaqların yanına göndərir. Bundan sonra o, hakimiyyətin yerli nümayəndəsinin timsalında müharibə və imperializmin ağır əziyyətləri ilə üz-üzə qalır. Sevgi və nifrətlə dolu həyat onu gözləyir.

Ekran əsərində tanınmış aktyorlar Qurban İsmayılov, Günəş Mehdizadə, Xalidə Quliyeva, İlqar Cahangir, Rasim Cəfər, Aydan Həsənzadə ilə yanaşı, ilk debütünü edən Hümbət Əhmədzadə, Paşa Məmmədli kimi gənc aktyorlar da rol alıblar. Bu gənclər Daşkəsən rayonunun sakinləridir. Çəkilişlər zamanı bir sıra epizodlarda rayonun Suqovuşan kəndinin sakinləri də iştirak edib. II Dünya müharibəsi dövrünün bütün keşməkeşlərini özündə cəmləşdirən filmin bu il geniş auditoriyaya təqdim olunması ilə yanaşı, beynəlxalq festivallarda da Azərbaycanı təmsil etməsi gözlənilir.

Qeyd edək ki, Bakı Media Mərkəzi Azərbaycanın audiovizual məhsulların istehsalı ilə məşğul olan aparıcı və innovativ media şirkətidir. Mərkəzin son işləri sırasında "Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu", "Əbədi ezamiyyət", "Multikulturalizm İli"nə həsr olunmuş "Bir günəş altında", "Son İclas" , "Miras" və s. kimi filmlər yer alır.

Mərkəz haqqında daha ətraflı məlumatı şirkətin www.bakumediacenter.az rəsmi internet saytından, "Facebook", "YouTube", "Linkedin", "Instagram" və "Twitter" sosial şəbəkələrindəki səhifələrindən əldə etmək mümkündür.

İlqar Nəcəf onu da əlavə etdi ki, film nüfuzlu beynəlxalq festivallardan birində nümayiş edildikdən sonra Bakıda premyera etmək fikirləri var.



# Şahzadənin kölə həyatı, iş yerində eşq, mistik son... – Aqibət

***Dodo Çoqovadze gürcü aktrisasıdır. Cəmi üç filmdə çəkilib. Biz onu "Ələddinin sehrli çırağı" nağıl filmindən şahzadə Budur rolu ilə tanıyırıq. Niyə görəsən, o filmdən sonra bu aktrisanın üzünə kinonun qapıları həmişəlik bağlanıb? İndi Dodo hardadır?***

Lent.az -ın oxucuları üçün araşdırdıq.

Bu gözəl gürcü qızı 1951-ci ilin fevralında Tiflisdə dünyaya gəlib. Anası rus, atası gürcü olub. Uşaqlıqdan çox zərif olduğundan, həm də incəsənət qabiliyyətinə, marağına görə anası onu xoreoqrafiya məktəbinə yazdırıb. Bununla da qızın gələcək taleyi həll edilib.

Tez-tez aktrisa seçmək üçün Xoreoqrafiya məktəbinə gələn gürcü kinematoqrafçıları budəfəki gəlişlərində Dodonu seçirlər. 10 yaşlı Dodo beləcə "Balaca cəngavərlər" filminin çəkilişlərinə düşüb.

1963-cü ildə Dodo həmin filmdə Nana roluna çəkilib. Bu filmin çəkilişləri ilə paralel onu Lermontovun əsəri əsasında çəkilən eyniadlı "Zəmanəmizin qəhrəmanı" filmində Bella roluna dəvət edirlər.

Onda Dodonun cəmi 13 yaşı vardı. Qız sınaqdan keçib. Çəkilişlərə az qalmış rejissor eşidib ki, qızın yaşı azdır. Bunu eşidəndə qəti surətdə məhəbbət səhnələri olan filmdə azyaşlını çəkməkdən imtina edib.

Bundan dərs alan aktrisa "Ələddinin sehrli çırağı" filminə dəvət olunanda öz yaşının üstünə iki yaş artırıb, "15 yaşım var" deyir.

Çəkilişlər ona çox rahat və asan gəlirdi. Aktrisa hətta çəkilişlər zamanı filmin operatoruna vurulub. Çəkiliş prosesində aktyorlardan biri ona vurulub və hətta evlilik təklifi edib. Evli aktyor, Dodo razılıq verdiyi halda, ailəsindən boşanacağını da vəd edib. Dodo razılaşmayıb. Çəkiliş qrupu Dodoya çox nəzakətli, az qala ailənin kiçik övladı kimi rəftar edirmiş. Səhnələrdən birinin çəkilişlərində qızın ayağı ciddi zədə alıb. Çəkiliş qrupu onu ayağı sağalıncaya qədər gözləməli olub. Baş rolun ifaçısı Boris Bıstrov hətta Dodonu çəkilişə özü gətirib-aparırmış.

Film sovet ölkəsində çox yayıldı və sevildi. Filmin sitatları indiyə qədər də ona baxanların dilindədir. "Bağdadda sakitlikdir", "Bizim Budur qızımız..." və sair.

Film o qədər populyarlıq qazanmışdı ki, Almaniyada aktrisa Dodonun Budur obrazında şəkilləri açıqcaların üstünə vurulub, satışa çıxarılmışdı.

Həmin şəkil o vaxtın çox tanınmış "Sovet ekranı" jurnalının üz qabığında əks olunmuşdu.

Məktəbə qayıdanda yoldaşları Dodoya "Hollivud ulduzu" deyə müraciət edirmişlər.

Sonra aktrisa doğma Tiflisə qayıdıb, Teatr İnstitutunu bitirib. Bir dəfə qastrollardan birində 23 yaşlı Dodo məşhur musiqiçi David Şuşaninlə tanış olub. Çox keçmədən ailə qurublar. Nino adlı bir qızları olandan sonra ayrılmalı olublar. Onu yalnız ev qadını kimi görmək istəyən David, özünü reallaşdırmaq üçün mübarizəyə başlayan Dodonun xoşuna gəlməyib.

Hər tamaşadan sonra David Dodonu ona xəyanətdə günahlandırır, onu yalnız ev qadını kimi görmək istədiyini deyirmiş.

Bir dəfə "Hamlet" tamaşasından sonra Ofeliya rolunu oynayan Dodo əri tərəfindən Hamletlə kulisdə də münasibətdə olmaqda günahlandırılıb.

Aktrisa artıq dözməyib və 10 illik ailə həyatını ayrılıqla başa vurub.

Ayrıldıqdan sonra da David Şuşanin onu rahat qoymayıb, həmişə nəzarətdə saxlayıb.

Onunla ailə qurmaq istəyənlərin qarşısına keçib. Dodo özü də onunla evlənmək istəyənlərin çoxluğuna baxmayaraq, razılıq verə bilməyib. Ehtiyat edib ki, yenə qul, kölə həyatı başlayar, bir kişinin qarşısında həm işləyər, həm də təqib olunar. Ailə həyatı onun təsəvvüründə belə qalıb.

İndi aktrisanın yeganə həyat sevinci qızıdır. Doğma institutunda ritm dərsləri deyir, Hərdən reklam çarxlarında çəkilir.

Ondan uzun müddət sonra - bir də 30 yaşında "Səmada gecə cadugərləri" filmində çəkilib. Bununla da onun karyerası başa çatıb.

Taledir, yoxsa şeytan əməli - olan budur. Ömürlük Budur kimi yaddaşlarda qalmalı olub...

# Dərinin gözəlliyinə təsir edən məhsullar - Bilmədikləriniz



***Dəfələrlə deyildiyi kimi dərinin gözəlliyi daxildən başlayır. Ən bahalı kremlərdən biri belə, orqanizmin mineral, vitaminlər almadığı təqdirdə dəri problemlərinin öhdəsindən gəlməyə kömək etmir. Milli.Az medicina.az-a istinadən bildirir ki, müəyyən vitaminlər, mikroelementlər və yağ turşuları dərinin gözəlliyinə, gəncliyinə və sağlamlığına təsir edən ən mühüm faktorlardan biridir.***

**Bal**

Bal şirin və yüksək kalorili bir məhsuldur, lakin az miqdarda olsa da dərinin sağlamlığına faydalı təsir göstərir. Aktiv maddələr dərini içəridən qidalandırır və daha elastik edir. Sıyıq, kəsmik və ya qatığa bir çay qaşığı bal əlavə edin və ya çay,qəhvə içərkən istifadə edin. Ama nəzərə almaq lazımdır ki, isti içkilərə bal əlavə etmək olmaz. Yüksək temperaturdan bütün qidalar məhv olur, yalnız şəkər qalır.

**Çiyələk**

Tərkibindəki C vitamini (sitrus meyvələrindən daha yüksək) onu gözəllik və dəri sağlamlığı üçün ən yaxşı məhsullardan birinə çevirir. Vitamin C ən güclü antioksidandır. Sərbəst radikallar dərini zərərdən qoruyur, kollagen və elastinin istehsalını stimullaşdırır (dərinin elastikliyini və sıxlığını təmin edir) və qırışları minimuma endirir. Bu qırmızı giləmeyvə, dərini yaşlanmadan qoruyur. Bir ovuc çiyələk əla qəlyanaltıdır.Qatıq, sıyıq və hətta salat üçün də əlavə etmək mümkündür (ispanaqla birlikdə çiyələk ümumiyyətlə möcüzəvi vasitədir).

**Fındıq**

Omega-3 yağ turşularının və E vitamininin əla mənbəyidir. Bu maddələr dərinin qidalanmasında əsas elementdir. Quruluq və soyma problemini aradan qaldırır və vaxtından əvvəl yaşlanmağın qarşısını alır. Fındıq, faydalarına baxmayaraq, kifayət qədər yüksək kalorili bir məhsuldur: kiçik bir ovuc qoz-fındıq gündə maksimum hissədir . Buna görə də gündəlik kalori nisbətini unutmayın.

**Yulaf kəpəyi**

Yulaf kəpəyi, dərini rahatladan və bəsləyən bitki mənşəli protein və mikroelementlərlə zəngindir. Eyni zamanda nəmin dəri səthindən buxarlanmasının qarşısını alaraq, bir növ manea yaradır. Yulaf həmçinin sıxlıq, quruluq, soyulma və dərinin qıcıqlanması problemlərinə qarşı mübarizə aparmağa kömək edir. Səhər yeməyi üçün yulaf kəpəyi bişirin, təsirini artırmaq üçün üzərinə bal, qoz-fındıq və ya giləmeyvə əlavə edin.

**Rəngli tərəvəzlər**

Təbii antioksidan karotenoidlər, xüsusən beta-karotin, tərəvəzlərə parlaq rəng verən əsas elementlərdir. Yerkökü, balqabaq və şirin bibərə rəngi verən bunlardır. Orqanizmdə beta-karoten A vitaminə çevrilir . Dərini sərbəst radikallar tərəfindən zərərdən qoruyur, vaxtından əvvəl yaşlanmağın qarşısını alır, elastikliyini artırır və içəridən təbii parlaqlıq verir. Xatırlamaq lazımdır ki, A vitamini yağda həll olunur, yəni yağ komponenti olmadan bunlar orqanizmə heç bir təsir göstərməyəcək. Tərəvəz salatına bir ovuc fındıq, toxum və ya bir qaşıq bitki yağı əlavə etmək mütləqdir.

# Alimlər: Bu simptom koronavirusu soyuqdəymədən fərqləndirir

***Azad tənəffüs fasilələri zamanı iybilmə qabiliyyətinin itməsi erkən mərhələlərdə koronavirusu təsbit edən əsas simptomdur.***

"Science" dərgisi xəbər verir ki, bu amerikalı alimlərin apardığı araşdırmalarda qeyd olunur.

Onlar iddia edir ki, iybilmə qabiliyyəti itdikdə xəstə təcrid olunmalı və koronavirus testindən keçməlidir.

"Koronavirusun soyuqdəymə virusuna xas olan burun tutulması və ya seliyin yaranması kimi simptomlarla əlaqəsi yoxdur. Bu həmçinin xəstəliyi rahat şəkildə mövsümi allergiyalardan fəqrləndirməyə imkan verir", - deyə araşdırmada iştirak edən alimlərdən biri olan Əhməd Sadaqat vurğulayıb.

# Koronavirus infeksiyasının xroniki ürək-damar xəstələrinə yoluxması ehtimalı daha yüksəkdir

***Bəşəriyyət koronavirus (COVID-19) pandemiyası kimi qlobal təhlükə ilə üzləşib və bütün dünyada bu virusla ciddi mübarizə aparılır. Koronavirus infeksiyasının risk qrupuna daxil olan xroniki ürək-damar xəstələrinə yoluxması ehtimalı daha yüksəkdir.***



"Unikal" xəbər verir ki, bu sözləri AZƏRTAC-a müsahibəsində invaziv kardioloq Samir Mustafayev bildirib.

Koronavirusa yoluxan xəstələrin şikayətlərinin əsasən əzginlik, halsızlıq, şiddətli quru öskürək, yüksək temperatur və ciddi təngənəfəslikdən olduğunu vurğulayan S.Mustafayev xroniki ürək-damar xəstəliyi olanlarda isə anormal təzyiq yüksəlmələrinə rast gəlinə biləcəyini diqqətə çatdırıb: "Koronavirus xəstəliyinin əsas simptomlardan biri olan yüksək temperatur orqanizmdə iltihabi vəziyyəti artırdığı üçün ürək-damar xəstəliyi olan insanlarda kəskin miokard infarktı riskini yüksəldir. Bu infeksiya nəticəsində orqanizmdə toxuma və orqanların oksigenə tələbatı artır. Oksigen ehtiyacını qarşılamaq üçün ürək daha çox işləməyə məcbur olur."

Kardioloq qeyd edib ki, koronavirus infeksiyasına yoluxan ürək-damar xəstələrində yaranan yüksək temperatur və su itkisi ürək vurğularının sayının artmasına və arterial təzyiq oynamalarına səbəb olur. Nəticədə ürək-damar xəstəliyi olan insanlarda ciddi fəsadlara səbəb olur.

Dünyada bu xəstəliyə tutulan xəstələrin əksəriyyətində simptomlar yüngül olsa da, çox təəssüf ki, yaşlı və xroniki ürək-damar xəstəliyi olan insanlarda bu xəstəlik yüngül keçmir.

Həkim bildirib ki, bütün bunları göz önünə gətirərək, risk qrupunda olan bütün xəstələr özlərini yaxşı qorumalı, sağlamlıqlarına hər zamankından daha diqqətli yanaşmalıdırlar.

Ürək-damar xəstələri və digər xroniki xəstəlikləri olan insanlar koronavirus pandemiyası dövründə nəyə diqqət etməlidirlər?

1. Onlar evdə qalmalıdırlar. Evdən çıxmağa zərurət yarandıqda isə qoruyucu maska, eynək taxmalı, insanların çox olduğu yerlərdən mümkün qədər uzaq durmalı və digər insanlar arasında ən azı 2 metr məsafə saxlamalıdırlar. Maskanın burun, ağız və çənəni örtən hissəsinə heç bir zaman toxunulmamalıdır. Təsadüfən toxunularsa, əllər ən azı 20 saniyə su və sabunla yuyulmalı və ya spirt tərkibli məhlulla dezinfeksiya olunmalıdır. Maska istifadə zamanı çirklənib, nəmlənib və ya cırılıbsa, mütləq yenisi ilə dəyişdirilməlidir. Tibbi maskalar qətiyyən ortaq istifadə edilməməlidir.

2. Şəxsi gigiyena qaydalarına ciddi riayət olunmalıdır. Əlləri tez-tez maye sabunla ən azı 20 saniyə yumalı və spirt tərkibli məhlulla dezinfeksiya etməlidirlər.

3. Evi gündə ən azı 3 dəfə havalandırmaq lazımdır.

4. Evdən çıxmağa məcbur qaldıqda, evə dönərkən paltarların 60-90 dərəcə temperaturda yuyulması tövsiyə olunur. Üst paltarları bir gün balkonda saxlayaraq havalandırmaq lazımdır.

5. Stresdən mümkün qədər uzaq durmaq, sadə idman hərəkətləri etmək məsləhətdir.

6. Normal yuxu rejiminə əməl etmək önəmlidir.

7. Bol su içməli və təbii qidalara üstünlük vermək tövsiyə olunur.

8. Mütəmadi olaraq həkiminizlə əlaqə saxlayın. Həkimin təyin etdiyi dərman preparatları düzgün və vaxtında qəbul edilməlidir.

9. Ciddi zərurət yarandıqca, xəstəxanalara müraciət edilməsi məsləhət görülmür.

"Bu qaydalara ciddi riayət etməklə xroniki ürək-damar xəstəliyi olan insanlar özlərini koronavirusdan qoruya bilərlər", - deyə həkim qeyd edib.

# Arıqlama zamanı çəkinin orqanizmin yağ kütləsindən itirilməsi daha yaxşıdır

***Arıqlamaq üçün pəhriz saxlayanlar, idmanla məşğul olanlar da, müxtəlif dərmanladan istifadə edənlər də var. Çəkidən xilas olmaq üçün istehsal olunan məhsullar istifadəçilərə müxtəlif formalarda - bitki çayları, qəhvə və həblər şəklində təqdim olunur. Qısa zamanda təsir göstərən preparatlardan istifadə olunmasını mütəxəssislərin çoxu məqsədəuyğun hesab etmir.***



Satış statistikası isə həmin preparatların alıcılarının heç də az olmadığını göstərir. Təbii ki, arıqlamaq istəyən hər kəs qısa vaxtda nəticə əldə etmək arzusundadır. Həmin məhsulların dadı xoşagələn və təsiri səmərəlidir. Bəs onların sağlamlığa zərəri varmı?

"Unikal" bildirir ki, həkim-diyetoloq Ləman Süleymanova AZƏRTAC-a deyib: "Bəzən insanlar tərəzidə çəkilərinin azaldığını görəndə sevinirlər, əslində isə azalan çəki su və əzələ itkisidir. Həftədə 0,5-1 kiloqram çəki itirilməsi normal sayılır və çəkinin orqanizmin yağ kütləsindən itirilməsi daha yaxşıdır. Riskli qidalardan alınan vitaminlər bağırsaqlarda rahat mənimsənilmir. Orqanizm həmin məhsulları mənimsəməmiş onların bədəndən xaric olması nəticəsində vitamin və mineral çatışmazlığı yaradır. Bir müddət sonra həmin insanlar saçlarının tökülməsi, aqressivlik və s. hallarla üzləşərək həkimə müraciət edirlər".

Həkim-diyetoloqun dediyinə görə, arıqlamaq üçün pəhriz saxlamaq və fiziki hərəkətlə məşğul olmaq daha məsləhətlidir: "Yaxşı olar ki, çekap müayinədən keçərək kökəlmənin səbəbi öyrənilsin və bundan sonra arıqlamaq daha rahat olacaq. Arıqlamaq üçün hər gün fiziki aktivlik nümayiş etdirmək və bağırsaqlarda faydalı bakteriyaları artırmaq lazımdır və hətta bunun üçün əlavə probiotiklərdən də istifadə etmək olar. Təbii ki, balanslaşdırılmış və düzgün qidalanmaq da ən əsas şərtlərdən biridir".

İstənilən halda orqanizmlə əlaqədar verilən qərarlarda həkim məsləhəti vacibdir, çünki mütəxəssis tövsiyəsi olmadan pəhriz saxlamaq bəzən sağlamlıq üçün fəsadlar törədə bilər.

# "Azərbaycan çempionatı Kiprdən aşağı səviyyədədir" - Anastasios Papazoqlu



***"Zirə"nin yunanıstanlı müdafiəçisi Anastasios Papazoqlunun ölkəsinin mətbuatına müsahibə verib. Qol.az həmin müsahibəni təqdim edir.***

***- Azərbaycanda koronavirusla əlaqədar vəziyyət necədir?***

- Vəziyyət Yunanıstandan daha sakitdir. Rəsmi olaraq bu günə qədər elan olunan rəqəmlərdən işlərin o qədər pis olmadığını görürük. Ancaq həqiqətin nə olduğunu bilmirəm.

***- Ölkədə xüsusi bir tədbir görülüb?***

- Yunanıstanda və Avropanın əksər ölkələrində olduğu kimi, nəqliyyatda məhdudiyyətlər var. Məsələn, bütün dükanlar, kafelər və ticarət mərkəzləri bağlanıb. Yalnız banklar, apteklər və supermarketlər açıqdır. Artıq 15 gündür ki, tədbirlər gücləndirildi və hər şey bağlandı. Buna qədər belə deyildi.

***- Virus əsasən İranda ciddi bir problem yaratdı. Azərbaycan bunun üçün əvvəlcədən hərəkətə keçdi?***

- Xəstəlik İrandan gəldi. İnsanlar əvvəlcə onunla zarafat edirdi. Sonrada yayılmağa başladı. Bir neçə gündən sonra ölkə hərəkətə keçdi və sərhədlər bağlandı. Yenə deyirəm, əsl durumun necə olduğunu bilmirəm. Elan edilən rəqəmlərin doğru olub-olmadığından əmin deyiləm.

***-Belə başa düşdük ki, hazırda orada vəziyyət gərgindir...***

-Əlbəttə, vəziyyətin ciddiliyini başa düşdürük. Bakı çox inkişaf etmiş bir şəhərdir və gündə 24 saat işləyirlər. Tikinti heç vaxt dayanmır. Daim göydələnləri qaldırırlar və son vaxtlar əvvəlki dövrdəki kimi sürətlə işləmirlər. Demək olar ki, tikintini dayandırıblar.

***-Ümumiyyətlə, Bakı necə şəhərdir?***

-Çox zəngin bir şəhərdir. Yaşamaq üçün çoxlu pul lazımdır. Hər yerdə uca binalar var. Bakı Dubay olmaq niyyətindədir. Bu mövcud olan perspektiv və şəhərin qarşıya qoyduğu məqsəddir. Həqiqətən çox gözəl bir şəhərdir və görməyə dəyər. Əlbəttə bunun iki tərəfi var: çoxlu zənginlər olsa da, yoxsulluq da var. Hava limanından şəhər mərkəzinə gələnə qədər sağda və solda kasıb məhəllələrlə qarşılaşırsan. Buna görə ətrafa rəngli divarlar vururlar ki, mövcud yoxsulluğu görməyəsən. Ancaq ehtiyacınız olan hər şeyə sahib bir şəhərdir. Burada darıxmaq mümkünsüzdür.

***- Bəzi Avropa klublar maaşları azaltdı. Azərbaycanda da belədir?***

- Xeyr. Bizə hələ heç nə deməyiblər. Sadəcə çempionat dayandırılıb.

***- Premyer Liqanın səviyyəsi necədir?***

- Azərbaycan çempionatı Kiprdən aşağı səviyyədədir. Çünki orada da oynadığım üçün müqayisə apara bilərəm. Çempionlar Liqası və Avropa Liqasında oynayan "Qarabağ" var. Növbəti mövsüm biz də avrokuboklara iddia edirik, amma çempionat hazırda dayandırılıb. Necə olacağını da bilmirik.

***- Azərbaycandan sizə təklif gələndə dərhal razılaşdınız?***

- İlk reaksiyam ölkənin harda olduğunu, kimlərlə sərhəddə yerləşdiyini bilmək üçün xəritəyə baxmaq oldu.Bu barədə həyat yoldaşımla müzakirə etdim və sonra razılaşdım

***- Mövsümün sonunda müqaviləniz başa çatır?***

- Bəli, bir illik müqaviləm var. Mövsüm başa çatanda nə olacağını bilmirəm. Sözləşməm mayın sonunda bitir.

# "Qarabağ"la müqavilə imzalamağım üçün prezidentə zəng edildi"

***"Neftçi"nin futbolçusu Donald Gerye "Haiti-Tempo" nəşrinə açıqlama verib.***

31 yaşlı yarımmüdafiəçi Haiti pasportuna sahib olduğu üçün bəzi çətinliklər çəkdiyini söyləyib. Bu, onun "Qarabağ"a transfer olduğu vaxt da baş verdiyini bildirib:"Visla" ilə "Volfsburq"a qarşı yoldaşlıq görüşündə qol vurdum və yaxşı oyun keçirdim. Sonra Almaniya təmsilçisinin nümayəndələri klubumla əlaqə saxladılar. Ancaq Haiti pasportuna sahib olmağım məni çıxılmaz vəziyyətdə qoydu.Azərbaycanda ilk dəfə müqavilə imzalamaq istədiyim vaxt da eyni çətinliyi yaşadım.Pasport məsələsi işimi asanlaşdırmadı.- Buna görə ölkəmizin prezidentinə zəng etdilər ki, məsələnin həllində yardımçı olsun".

Haiti millisinin üzvü ölkəsinin rəhbərliyinə pasportla bağlı müraciət də edib: "Milliyə çağırılan futbolçuların xaricdə oynamasını asanlaşdırmaq üçün diplomatik pasporta sahib olmalarına icazə verməyə çağırıram".

Qeyd edək ki, D.Gerye 2017-2019-cu illərdə "Qarabağ"da oynayıb. O, bu mövsümün əvvəlindən "Neftçi"də çıxış edir.

# Şeydayevlə "Dinamo" barışdı

***Bu gün Rusiya Futbol İttifaqı (RFS) Mübahisələrin Həlli Palatasının iclası keçirilib.***

"Unikal" qurumun rəsmi saytına istinadən xəbər verir ki, iclasda qış fasiləsində Moskva "Dinamo"-sundan ayrılan millimizin və "Sabah"ın üzvü Ramil Şeydayevlə sabiq klubu arasındakı barışıq sazişi təsdiqlənib.

Paytaxt təmsilçisinə yeni futbolçuların qeydiyyatdan keçirilməsi ilə bağlı qoyulan qadağanın aradan qalxdığı bildirilib.

Xatırladaq ki, 2019-cu ilin yayında "Krılya Sovetov"dan azad agent qismində "Dinamo"ya keçən 24 yaşlı hücumçunun müqaviləsi bu ilin yanvarında Moskva klubu tərəfindən pozulmuşdu.



RFS-in Mübahisələrin Həlli Palatası "Dinamo"nu Şeydayev ilə müqaviləyə xitam verildiyi vaxt qayda pozuntuları etdiyi üçün cəzalandırmışdı.



# Mehdiyevin əlçatmaz rekordu

***Azərbaycan çempionatları tarixində ən çox quru oyun keçirən qapıçı Rauf Mehdiyevdir.***

Qol.az xəbər verir ki, karyerası ərzində "Tərəqqi", "Azəri", "Neftçi", "Fərid", MOİK, "Şəmkir", "Qarabağ", "Bakı", "Olimpik", "Simurq" və "Karvan" klublarının şərəfini qoruyan qolkiper 137 matçda qapısını toxunulmaz saxlayıb.

İkinci göstəriciyə Hüseyn Məhəmmədov malikdir. Onun aktivində 120 belə görüş var. "100" səddini adlayan ilk qapıçı Nizami Sadıqov 3-cü sırada yer alıb - 111. Daha üç əlcək sahibi 100 və daha çox quru oyun keçirməyə müvəffəq olub. Bunlar Fərhad Vəliyev, Cahangir Həsənzadə və Elxan Həsənovdur. Ümumiyyətlə isə ilk "onluq"da yer alanlardan heç biri cari mövsüm Premyer Liqada çıxış etməyib.

Qeyd edək ki, koronavirus pandemiyası üzündən dayandırılan cari mövsümdə ən çox quru oyun keçirən qapıçı Şahruddin Məhəmmədəliyev ("Qarabağ") 9 dəfə qapısını toxunulmaz saxlayıb.

Ən çox quru oyun keçirən 10 qapıçı

1. Rauf Mehdiyev - 137
2. Hüseyn Məhəmmədov - 120
3. Nizami Sadıqov - 111
4. Fərhad Vəliyev - 110
5. Cahangir Həsənzadə - 108
6. Elxan Həsənov - 107
7. Kamran Ağayev - 96
8. Camaləddin Əliyev - 85
9. Elşən Poladov - 84
10. Nadir Şükürov - 83

# Futbolumuzun ən səs-küylü qalmaqalları

***Pandemiyaya görə futbolsuz qaldığımız bu günlərdə yaxın keçmişə nəzər salaraq milli futbol çempionatımızda yaşanmış qalmaqalları, davaları xatırladıq.***

Azərbaycan futbolunda bu cür faktlar yetərincə olsa da, təəssüf ki, heç də bütün qalmaqallar zamanında lentə alınmayıb (xüsusən də 90-cı illərdə) və ya ictimailəşdirilməyib.

Futbolumuzdakı səs-küylü qalmaqallardan jurnalist İlkin Fikrətoğlunun hazırladığı həmin videosüjeti təqdim edirik (sportinfo.az).

# "İnter"dən 1 milyon maska yardımı

***İtaliyanın "İnter" klubu koronavirus pandemiyasına qarşı mübarizə məqsədilə növbəti yardım kampaniyasına başlayıb.***

Qol.az İtaliya mətbuatına istinadən xəbər verir ki, Milan təmsilçisi 1 milyon qoruyucu maska yardımı etməyə qərar verib.Bu barədə klubun rəsmi saytı məlumat yayıb.

İlk olaraq 200 min maska alınaraq İtaliyanın müxtəlif bölgələrinə göndərildiyi bildirilib.Qalan 800 min maska isə qarşıdakı günlərdə tələbatın daha çox olduğu bölgələrə çatdırılacaq.

Qeyd edək ki, "İnter" daha öncə də 300 min qoruyucu maska və geyim dəsti bağışlamışdı.

# Tünzalədən Rəqsanənin qalmaqallı fikirlərinə reaksiya

***Müğənni Rəqsanə İsmayılovanın Xalq artisti Tünzalə Ağayevanın ünvanına səsləndirdiyi fikirlər tərəflər arasında gərginliyin yaranması ilə nəticələnib.***

"Unikal" xəbər verir ki, bir neçə gün bundan əvvəl Rəqsanənin instaqramda "Dövlət məmurlarının uşaqlarının toylarında oxuyurdunuz. "Xalq artisti" adını alıb şokolad mağazası açmaqla deyil... Tünzalə Ağayeva, şokoladı müğənnilərin evinə göndərib reklam edirsən. Səni sevən xalqa kömək et. Bağlatdır o şokoladdan on qutu, göndər on yetimin evinə",- deməsi qarşı tərəfin xoşuna gəlməyib.

Əvvəlcə sənətçinin prodüseri Yalçın Cabbarov açıqlama verərək T. Ağayevanın daim xeyriyyə addımları atdığını söyləyib. Daha sonra sənətçi sosial şəbəkədə ona dəstək olan insanların statuslarını "story"də paylaşıb, Rəqsanənin üzr istəməsini eyham edib.

Hətta Xalq artisti bu gün aparıcı Nərgiz Cəlilovanın statusunu öz əsas səhifəsində paylaşaraq Rəqsanənin iddialarına cavab verib. Fransız yazıçısı Deni Didrodan sitat gətirilən statusda yaxşılığı incəliklə etməyin vacibliyi vurğulanıb:

"Xoş deyil kimsəni məzəmmət etmək,
Bilmədən, görmədən həqarət etmək.
"Yaxşılıq" təqdirəlayiq hərəkət,
Minnətsiz olması böyük məharət!
Allah da gizlidir,
Əsl mərhəmət, əməl sahibinə verilən qiymət.
Yalnız yaxşılıq etmək kifayət deyil,
Yaxşılığı incəliklə etmək də vacibdir".



Ağayeva sözügedən statusa rəy yazan, R. İsmayılovanın tənqidi fikirlərini birmənalı qarşılamayan şəxslərin şərhlərini bəyənib, hətta onlara cavab da yazıb.

# "İkiarvadlılıq pis deyil, amma xanımıma yaxşı baxıram" - Əməkdar artist



***Əməkdar artist Cavanşir Məmmədov "Səni axtarıram" verilişinin virtual qonağı olub.***

Axşam.az xəbər verir ki, müğənni karantin günlərini necə keçirməsindən bəhs edib. Aparıcı ifaçıdan evini göstərməsini istəsə də, Məmmədov razılaşmayıb:

"İnsan öz evində darıxmamalıdır, ola bilsin balaca olsun. Ola bilsin beş-on nəfər kiçik bir evdədir. Amma mehriban olmalıdırlar. Biz də çətin günlər, yataqxana görmüşük. Səbirli olmalıyıq.

Yox, evi göstərməyək. Belə saraylar çoxunda var. O, Lökbatandan bu tərəfə Nərimanovda, Yasamalda Sulutəpədə villaları göstərin. Evimi göstərməyin tərəfdarı deyiləm. 46 ildə qazancım bu olub. Sənətimlə, alın tərimlə qazanmışam".

C.Məmmədov "Ailə üzvlərinizi göstərin. Gözəl xanım Cavanşir bəyin əlindən nələr çəkmisən? Hamısına dözmüsən. Onun gözəl xanımı var. Qadına çox əziyyət vermisən. Gecə-gündüz orda-burda olmusan. O da evin içində uşaqları tək böyüdüb" sözlərinə isə belə reaksiya verib:

"Qadına sual ver gör, bu kişinin ikinci arvadı olub? İkiarvadlılığa pis baxmıram, amma xanımıma da, nəslinə də yaxşı baxmışam".



# Dilarə: "Koronavirusdan "korova" olaraq çıxmaq istəmirəm"

***"Evdə "beqavoy dorojkam" var, gün ərzində 2 saat onun üstündə qaçıram. Çünki evdə qalanda ən böyük əyləncə yeməkdir. Bu koronavirusdan "korova" olaraq çıxmaq istəmirəm".***

"Unikal" baku.ws-ə istinadla xəbər verir ki, bu sözləri əməkdar artist Dilarə Əliyeva İTV-də yayımlanan "Gəl, qonaq ol" verilişində deyib.

Aktrisa karantin günlərində xarici görünüşünə qətiyyən fikir vermədiyini, hətta saçını belə daramadığını etiraf edib:

"Martın 14-dən evdəyəm, inanırsız, heç eyvana da çıxmamışam. Mənə elə gəlirdi ki, bir qadın özünə görə bəzənir. Karantin vaxtı kəşf etdim ki, auditoriya yoxdursa, heç başımı da daramıram. Sizdən xəbər gəldi ki, efirə çıxacam. Özümə əl qatmışam, saçımı da özüm rəngləmişəm. Makiyaj-falan. Deməli, mənim bəzənməyim üçün auditoriya lazım imiş".